

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET | № 42 (7297) / Şənbə, 2 mart 2019-cu il


Prezident İlham Əliyev:

## 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər*



Bax: səh. 2

## Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı Sərəncam imzalanıb



Bax: səh. 3

Bax: səh. 3



Prezident İlham Əliyev:

## Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır

Bax: səh. 12

## Moldova Prezidenti VII Qlobal Bakı Forumunda iştirak edəcək



## AZƏRBAYCAN-GÜRCÜSTAN:

Bax: səh. 12



## uğurlu əməkdaşlıq formatı

“AZƏRİKİMYA” İSTEHSALAT BİRLİYİ:

## dünənin və bu günün güzgüsündə




Bax: səh. 16

Bax: səh. 3

Rusiya səfiri:

## ATƏT-in Minsk qrupu münaqişənin nizamlanmasına kömək edə bilən real alətdir



Bax: səh. 14

## Məcburi köçkünlərə qayğı dövlət siyasətinin əsas tərkib hissəsidir



Bax: səh. 15

## Prezidentin 800 mindən çox vətəndaşa hədiyyəsi




14 Fəxrəddin Abbasov kimi nankorlar haqlı cəzalarını alacaqlar

21 Bakı Ali Neft Məktəbi “TT-Gate” şirkəti ilə əməkdaşlığa başlayır

20 Şəhər və rayon mərkəzlərində Novruz yarmarkaları fəaliyyətə başlayır

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, mən sizi səmimiyyətlə salamlayıram. Bu gün Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı sizinlə danışmaq istərdim. Mənim ölkəmizin görkəmli mədəniyyət xadimləri ilə bir çox görüşlərim olub, həm fərdi qaydada, həm müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında. Bu gün isə biz daha geniş formatda görüşürük. Hesab edirəm ki, buna ehtiyac var. Çünki ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilmişdir. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır.

İqtisadi sahədə apardığımız islahatlar gözəl nəticələr verir. Bu ilin birinci ayının göstəriciləri bunu deməyə əsas verir. İqtisadiyyatımız demək olar ki, tamamilə bərpa edilib. Əminəm ki, bu il iqtisadi inkişaf baxımından çox ciddi nəticələr olacaqdır. Bilirsiniz, dünyada baş vermiş çox dərin maliyyə və iqtisadi böhran bizim ölkəmizdən də yan keçmədi və 2015-ci ildən sonra demək olar ki, bütün ölkələrdə iqtisadi tənəzzül müşahidə olunurdu. İlk növbədə, iqtisadiyyatı neft-qaz sektoru ilə bağlı olan ölkələrdə bu tənəzzül özünü daha çox büruzə vermişdir. Təsəvvür edin ki, qısa müddət ərzində ölkənin gəlirləri təxminən 4 dəfə aşağı düşür. Bu, nə deməkdir? O deməkdir ki, biz öz xərclərimizi 4 dəfə azaltmalı idik, çox qısa bir müddət ərzində çox ciddi addımlar atmalı idik, heç bir ölkə buna hazır deyildi, o cümlədən də biz. Biz bunu etiraf edirik və əlbəttə ki, bu böhranlı vəziyyət ölkəmizə böyük zərbə vurdu. O vaxt bizim əsas məqsədimiz vətəndaşların sosial müdafiəsini gücləndirmək və bu iqtisadi böhrandan az itkilərlə çıxmaq idi. Hesab edirəm ki, biz buna nail ola bilmişik. 2017-ci il iqtisadi sabitləşmə ili olmuşdur. Keçən il biz artıq iqtisadi inkişafa qədəm qoyduq. Bu il isə artıq inkişaf daha da böyük ölçülərlə özünü göstərir.

İqtisadi islahatlar imkan verdi ki, sosial sahədə çox ciddi addımlar atılsın. Bu ilin əvvəlindən keçən il ərzində hazırlanmış sosial layihələr icra edilməyə başlanmışdır. Azərbaycan vətəndaşları bunu yaxşı bilirlər. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması təxminən 600 min insanı əhatə edir. Çoxmənzilli binaların sənədləşdirilməsi təxminən 350-400 min insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı əhatə edir. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır. Digər sosialyönümlü addımlar, dünən imzaladığım Fərman 800 min insanı əhatə edir və deyə bilərəm ki, bu Fərmanın dünyada analoqu yoxdur. Fərmanı oxuyan, onu təhlil edən hər bir vətəndaş bunu görə bilər. Bu, çox ciddi bir sosial təşəbbüsdür. Dövlət bir daha göstərir ki, öz vətəndaşının yanındadır. Bizim iqtisadi imkanlarımız yarandıqca, ilk növbədə, problemli kreditlər məsələsini həll etməyə qərar verdik və bunu bacardıq. Onu da bildirməliyəm ki, ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını güdən addım olmamışdır. Yəni, bütün bu sosial paket təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha bizim niyyətimizi göstərir.

Digər sahələrdə islahatlar aparılır və aparılmalıdır. Təhsil sahəsində islahatlar aparılır və deyə bilərəm ki, müəllim peşəsini seçən abituriyentlərin sayı kəskin artmışdır. Yəni, cəmiyyətdə müəllim peşəsinə ənənəvi hörmət qayıdır və bu, islahatlar nəticəsində mümkün olmuşdur. Təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, 3200-dən çox məktəbin tikilməsi əlbəttə ki, böyük dəyişikliklərə gətirib çıxardı.

Səhiyyə sahəsində çox ciddi islahatlar aparılır. Qərar qəbul olunub və ümid edirəm ki, biz gələn ildən icbari tibbi sığorta sisteminə keçəcəyik. Biz bir neçə şəhərdə pilot layihələri icra etdik və bu layihələr çox müsbət nəticə verir. Həm vətəndaşlar razıdırlar, həm də tibbi xidmət yüksək səviyyədə göstərilir. Deyə bilərəm ki, bu şəhərlərdə səhiyyə sahəsində şəffaflıq tam təmin edilib. Beynəlxalq maliyyə qurumları, ilk növbədə, Dünya Bankı, - bu yaxınlarda onların nümayəndələri ilə mənim görüşüm olubdur, - bunu çox yüksək qiymətləndirirlər. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı bunun faydasını görəcək. Bu, çox ciddi bir islahatdır, sadə məsələ deyil, bəzi ölkələr illər boyu bu islahata doğru gedirdilər, bunu əldə edə bilməyiblər. Ancaq biz nisbətən qısa müddət ərzində bütün lazımi sənədləri hazırladıq və səhiyyə sahəsində çox ciddi dönüş yaranacaq. Çünki keçən dövrdə biz bütün şəhərlərimizdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikmişik, yəni, infrastruktur mövcuddur.

Digər sahələrdə, məsələn, məhkəmə-hüquq sahəsində islahatlara çox ciddi ehtiyac var və müvafiq göstərişlər verilibdir. Şəhərsalma sahəsində. Bakı şəhərində xaotik tikinti prosesi artıq sona çatır. Şəhərsalma və Arxitektura Komitəsi qarşısında çox ciddi vəzifələr qoyulub ki, buna son qoyulsun. Əlbəttə, biz imkan verə bilmərik ki, inşaat sektorunda durğunluq yaransın. İnşaat iqtisadiyyatın təkanverici sektorlarından biridir, on minlərlə iş yeri yaradan sahədir. Ancaq Bakının bundan sonrakı şəhərsalma qaydaları baş plan əsasında olmalıdır və gözəl şəhərimizin gözəl siması daha da gözəlləşdirilməlidir. Şəhər nəqliyyatı, şəhər təsərrüfatı ilə bağlı islahatlar aparılır. Hesab edirəm ki, biz bu islahatların aparılmasında uğurlar əldə edəcəyik.

O ki qaldı, mədəniyyət sahəsinə, mən elə bu gün istərdim ki, sizinlə bu məsələlərlə bağlı fikir mübadiləsi aparım və bundan sonra görüləcək işlər haqqında danışaq. Çünki əvvəlki illərdə bir çox işlər görülüb. Mən Prezident kimi çalışırdım ki, həmişə bu sahəyə öz diqqətimi göstərim. Hesab edirəm ki, görülmüş işlər qiymətləndirilməlidir. Bizim əsas teatrlarımız - Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Musiqili Teatr əsaslı təmir olundu. Bölgələrdə teatrlar tikildi və əsaslı təmir edildi, yeni teatrlar yaradıldı. Muzeylərimiz, Bakı şəhərinin muzeyləri demək olar ki, tam şəkildə əsaslı təmir edildi - Tarix Muzeyi, Nizami adına Muzey, Muzey Mərkəzi. İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikildi. Müasir İncəsənət Muzeyi fəaliyyətə başladı, digər muzeylər, mən indi hamısını xatırlaya bilmərəm. Hər bir şəhərdə Tarix-Diyarşünaslıq muzeyləri fəaliyyətə başladı.

Dini abidələr əsaslı şəkildə təmir edildi. Bakıda və bölgələrdə yüzlərlə məscid əsaslı şəkildə bərpa olundu. Onların arasında böyük mənəvi əhəmiyyət daşıyan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Azərbaycanın ən qədim məscidi - 743-cü ildə tikilən Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edildi, Heydər Məscidi tikildi. Yəni, bunlar bizim milli irsimizdir.

Digər sahələrdə. Yadımdadır, elə ilk qərarlarımdan biri də o idi ki, Azərbaycan klassiklərinin əsərlərini latın qrafikası ilə çap etdirək. Çünki bir qədər anlaşılmayan vəziyyət yaranmışdı. Biz tam olaraq latın qrafikasına keçmişdik və təhsil də latın qrafikası ilə aparılırdı. Ancaq bizim bütün klassiklərimizin kitabları vaxtilə kiril qrafikası ilə çap olunmuşdu. Ona görə şagirdlər, tələbələr onları oxuya bilmirdilər. O vaxt bizim o qədər də maddi imkanlarımız yox idi. 2004-cü ildə biz bu qərara gəldik. Baxmayaraq ki, maddi vəziyyətimiz çox məhdud idi, biz qısa müddət ərzində bunu da etdik. Nəinki Azərbaycan klassiklərinin, dünya ədəbiyyatının klassiklərinin kitabları latın qrafikası ilə çap olundu.

Kinoteatrların yaradılması, özəl kinoteatrların fəaliyyətə başlaması sevindirici haldır. Nizami Kino Mərkəzi əsaslı şəkildə təmir edildi. Görkəmli mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün abidələr qoyuldu. Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digər görkəmli mədəniyyət xadimlərimizin xatirəsi əbədiləşdirildi. Görülən bütün işləri yada salmaq çətindir. Bizim iki konservatoriyamızdan biri əsaslı şəkildə təmir edildi, o birisi yenidən tikildi.

İndiyədək bu sahədə görülən işlər bundan ibarətdir. Bundan sonra hansı işlər görülməlidir, bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə ki, sadəcə olaraq, mədəniyyət obyektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq. Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz.

Mən düz bir ay bundan əvvəl gənclərlə görüşdə dedim ki, bizim gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür. Ona görə bu məsələlərlə və istənilən məsələ ilə bağlı bu gün mən sizinlə danışmaq istərdim. Hesab edirəm, mən giriş sözümü yekunlaşdırmalıyam ki, sizə daha çox imkan yaradım və siz öz sözünüzü deyəsiniz.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonra mədəniyyət və incəsənət xadimləri çıxış etdilər.

⇨ Davamı 4-cü səhifədə

## Prezident İlham Əliyev:
# Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır




Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, həm də öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu çox əlamətdar hadisədir.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 78-ci kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2017-ci il fevralın 2-də görkəmli dirijor maestro Niyazinin abidəsinin açılış mərasimindəki çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin dekabrından 2017-ci ilin mart ayınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfəri və Davosda keçirdiyi görüşlər barədə informasiyalar, Forumun "İpək yolunun səmərəsi" mövzusunda interaktiv iclasında çıxışının mətni, Almaniyaya işgüzar səfəri zamanı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru: OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda dəyirmi masada, "Avrasiyada əməkdaşlıq və problemlər" adlı panel müzakirədə çıxışlarının mətnləri daxil edilib. Panel müzakirədə dövlətimizin başçısı dünyanın diqqətini bir daha Qarabağ məsələsinə yönəldərək problemin ədalətli həllinə çağırış edib və bu məsələlərlə bağlı sualları cavablandırıb. Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Belçika Krallığına, Qətər Dövlətinə və Pakistan İslam Respublikasına səfərlərinə dair materiallar, İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində çıxışının mətni yer alıb.

Çoxcildliyin 78-ci kitabında Prezident İlham Əliyevin ABŞ, Peru, Finlandiya, Estoniya, Fransa, İran, Pakistan və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da verilib.

Oxucular bu kitabda ölkə rəhbərinin Əl-Cəzirə televiziyasına geniş müsahibəsinin mətni ilə tanış ola bilərlər.

Nəşrdə dövlətimizin başçısının Naxçıvan Muxtar Respublikasına səfəri, Ordubad, Culfa və Şahbuz rayonlarında, habelə ölkəmizin paytaxtında sosial infrastruktur obyektlərinin açılışında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, eləcə də Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailəsi ilə görüşünə dair informasiyalar toplanıb.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin üçüncü toplantısında söylədiyi nitqlərin mətnləri də bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 78-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## *Rusiya səfiri:* ATƏT-in Minsk qrupu münaqişənin nizamlanmasına kömək edə bilən real alətdir

ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına kömək etməli olan və edə bilən real beynəlxalq alətdir. Bunu Trend-ə müsahibəsində Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov deyib.

Səfir bildirib ki, Minsk qrupunun həmsədrləri bu istiqamətdə müntəzəm fəaliyyətdədirlər: "Hesab edirəm ki, həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində fəal çalışırlar, bunun üçün bütün səylərini göstərirlər".

Qeyd edək ki, bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatında Azərbaycan və Ermənistan liderlərinin yaxın vaxtlarda görüş keçirmək təklifini qəbul etdikləri bildirilib.



## XİN: Həmsədrləri Ermənistanın rəhbərliyinin bu addımlarını pisləyən bəyanatla çıxış etməyə çağırırıq

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyanın fikirlərinə münasibət bildirib.

Ermənistanın yüksək səviyyəli məmurunun bu kimi fikir söyləməsi ATƏT-in Minsk Qrupunun həmsədrlərinin rəhbərliyi altında aparılan danışıqların mahiyyəti və məntiqi, xüsusilə də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Parisdə keçirilmiş sonuncu görüşünün nəticələri ilə ziddiyyət təşkil edərək, uzun illərdir ki, aparılan danışıqlar prosesinə qarşı açıq hücum xarakteri daşıyır: "Mahiyyət etibarilə bu, danışıqlar prosesini məhv etmək və həmsədrlərin fəaliyyətini heçə endirmək cəhdi deməkdir.



Digər tərəfdən, bu bəyanat Ermənistanın Azərbaycan torpaqlarının işğalında birbaşa iştirak etdiyinin növbəti aşkar göstəricisidir və Ermənistanın 1949-cu il Cenevrə Konvensiyaları və Əlavə Protokollarına zidd olaraq həyata keçirdiyi qeyri-qanuni köçürmələr siyasəti də daxil olmaqla bu ərazilərin ilhaqı planlarına bəraət qazandırmaq cəhdidir.

Bununla əlaqədar olaraq işğalçı ölkəyə xatırlatmaq istərdik ki, bu kimi təxribat xarakterli çıxışların bütün mümkün mənfi nəticələrinə görə məsuliyyəti, məhz Ermənistan Respublikası daşıyır.

Azərbaycan, öz tərəfindən, bu məsələni BMT, ATƏT və digər aparıcı beynəlxalq təşkilatlar çərçivəsində qaldıracaq. Eyni zamanda, ATƏT-in Minsk Qrupunun həmsədrlərini Ermənistanın yüksək siyasi rəhbərliyinin nümayəndələrinin bu kimi addımlarını qəti şəkildə pisləyən bəyanatla çıxış etməyə çağırırıq".



## Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı Sərəncam imzalanıb

Prezident İlham Əliyev Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.

Azərbaycanda kino sənəti əlamətdar hadisələrlə zəngin böyük inkişaf yolu keçmiş və ciddi sənət nailiyyətləri qazanmışdır. Ötən əsrin xüsusən 50-80-ci illərində yaradılmış və milli özünəməxsusluğu ilə seçilərək mədəniyyətimizin qızıl fonduna daxil olmuş ekran əsərləri kino salnaməmizin parlaq səhifələridir.

Müstəqillik illərində milli kino ənənələrinin qorunması və Azərbaycan kinematoqrafiyasının yeni şəraitdə fəaliyyət göstərə bilməsi istiqamətində mühüm addımlar atılmışdır. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" kino tariximiz üçün əhəmiyyəti baxımından ilk genişmiqyaslı mühüm sənəddir. Proqram çərçivəsində ötən dövr ərzində kino müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, o cümlədən Bakı şəhərində Dövlət Film Fondu üçün ən müasir texnoloji avadanlıqlara malik yeni bina inşa edilmiş və Nizami Kino Mərkəzi dünya standartları səviyyəsində yenidən qurulmuşdur. Dövlət sifarişi ilə film istehsalı təkmilləşdirilmiş, milli kinonun kadr potensialının gücləndirilməsinə yönəlmiş müxtəlif layihələr gerçəkləşdirilmişdir. Dövlət sifarişi və maliyyə yardımı ilə dövlət və özəl studiyalarda 300-dən artıq film çəkilmiş, istehsal edilən çox sayda ekran əsərləri beynəlxalq film festivallarında müxtəlif mükafatlara layiq görülmüşdür. Eyni zamanda, son illərdə özəl kino sektoru tərəfindən istehsal olunan filmlərin sayının və film çəkilişinə özəl vəsait qoyuluşunun həcminin artması, eləcə də həmin filmlərin tamaşaçı auditoriyasının genişlənməsi kinematoqrafiyamızın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

Ölkədə mədəniyyətə dövlət qayğısının daha da artırılması, kino sənəti ənənələrinin yaşadılması və film istehsalı sahəsinin modernləşdirilməsi zərurətini nəzərə alaraq, Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və digər aidiyyəti qurumların təkliflərini nəzərə almaqla, milli kinematoqrafiyanın dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair "Azərbaycan kinematoqrafiyasının inkişaf konsepsiyası" layihəsini hazırlayıb üç ay müddətində Azərbaycan Prezidentinə təqdim edəcək.

Dövlət sifarişi ilə film istehsalını və gənc kinematoqrafçıların yaradıcılığının dəstəklənməsi ilə bağlı layihələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Mədəniyyət Nazirliyinə 5 milyon manat ayrılacaq.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Xəzərdə terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokolun Azərbaycan tərəfindən icrası ilə bağlı səlahiyyətli orqanlar müəyyən edilib

Prezident İlham Əliyev "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokol"un icrası ilə bağlı səlahiyyətli orqanların müəyyən edilməsi barədə Sərəncam imzalayıb.

Sərəncama əsasən 2018-ci il fevralın 12-də Aktau şəhərində imzalanmış "2010-cu il 18 noyabr tarixli "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş"ə Xəzər dənizində terrorçuluqla mübarizədə əməkdaşlıq üzrə Protokol"un Azərbaycan tərəfindən həyata keçirilməsi ilə bağlı səlahiyyətli orqanlar qismində Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidməti müəyyən edilsinlər.

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər

⇨ Əvvəli 2-ci səhifədə







**Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar RZAYEV dedi:**

-Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Əziz dostlar.

Cənab Prezident, mən, ilk növbədə, Sizə təşəkkür etmək istəyirəm ki, iş qrafikinizin gərgin olmasına baxmayaraq, bizə vaxt ayırmısınız və bizimlə görüşürsünüz. Başqa yaradıcılıq təşkilatları kimi, Yazıçılar Birliyi də Sizin daim qayğınızı və diqqətinizi hiss edir. Yazıçılara - 50 nəfər yaşlı, 20 nəfər cavan yazıçıya Prezident təqaüdünün təyin olunması, 5 il bundan qabaq 80 illiyimizin geniş qeyd edilməsi, Yazıçılar Birliyinin binasının təmiri, klassiklərimizin və müasir yazıçılarımızın yubileyləri bu qəbildən olan işlərdir. Siz bu ili Nəsiminin yubileyi ilə bağlı olaraq "Nəsimi ili" elan etmisiniz. Bu il Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, İsmayıl Şıxlının yubileyləri haqqında Sizin sərəncamlarınız var. Yeri gəlmişkən, istərdim ki, Cəlil Məmmədquluzadənin yubileyi ilində onun məzarı da səliqəyə salınsın və Bakıda heykəli ucalsın. Çünki Nizami Muzeyinin eyvanında bizim yazıçıların və şairlərin - Füzulinin, Mirzə Fətəlinin, Natəvanın, Cəfər Cabbarlının heykəlləri var, o cümlədən Mirzə Cəlilin də. Amma bizim çox böyük yazıçımız Cəlil Məmmədquluzadənin Bakıda ayrıca heykəli yoxdur. Naxçıvanda heykəltəraş Mirqasımov Mirzə Cəlilin çox gözəl heykəlini düzəldib, onun bənzərini Bakıda da ucaltmaq olar.

Dekabr ayında Siz məni qəbul etdiniz və mən Yazıçılar Birliyinin bir çox təkliflərini, xahişlərini Sizə yetirdim. Çox məmnunam ki, Sizin göstərişlərinizlə bunların böyük qismi artıq həyata keçib. Bizim Şüvəlandakı yaradıcılıq evimizi vaxtilə qaçqınlara, köçkünlərə vermişik, artıq 30 ilə yaxındır orada yaşayırlar. İndi Sizin Sərəncamınızla onlara mənzillər verilir, köçürülür və o bina təmir olunacaq. Sizin tapşırığınızla Bakı Şəhər İcra Hakimiyyəti Heydər Məscidinin yanında bir sahə ayırdı, orada biz yazıçılar üçün 16 mərtəbəli bina tikiləcək, kooperativ ev. Bununla da bizim yazıçıların mənzil məsələsi demək olar ki, həll ediləcək.

Daha böyük və şad bir xəbər odur ki, bir neçə il bundan qabaq Sizin təşəbbüsünüzlə bəstəkarların, rəssamların və yazıçıların yaradıcılıq evi tikilməsi haqqında məsələ qaldırılmışdı. Mən bir daha bunu Sizdən xahiş etdim və Siz tapşırıq verdiniz. Mən gedib o yeri görmüşəm. Şabran rayonunda çox səfalı bir yerdir, meşənin içində. Amma böyük bir tala var. Ona görə deyirəm ki, orada ağac da qırılmayacaq, bulaq var, gözəl bir yerdir. Dünən mən Şabran Rayon İcra Hakimiyyətinin başçısı ilə telefonla danışdım, dedi ki, layihə artıq hazırdır. Bəstəkarlar, rəssamlar, yazıçılar üçün üç bina, bir də ümumi bina tikiləcək ki, orada konfrans zalı, poliklinika və dükanlar olacaq. Torpaq və yol işləri qurtarıb. Martda tikinti işləri başlanacaq. Mən Sizə həm Yazıçılar Birliyi adından, həm də icazələri ilə bizim Rəssamlar və Bəstəkarlar ittifaqlarının adından təşəkkürümü bildirmək istəyirəm ki, belə bir nadir şəhərcik yaranacaq.

Bir təklifimi də vermək istərdim. Mən istərdim ki, bu şəhərcik Ulu Öndərimizin şərəfinə Heydərabad adlansın. Çünki bu, həm Heydər Əliyevin Azərbaycan mədəniyyətinə sevgisinin, qayğısının rəmzi olar, həm də Azərbaycanın coğrafi xəritəsində Ulu Öndərin adı ilə daha bir məskən ola bilər.

Mənim bir neçə təklifim də var. İstəyirəm onları da bu gün fürsət var ikən Sizə çatdırım. Ədəbiyyatımızın xaricdə təbliği ilə bağlı məsələ qaldırmaq istəyirəm. Bilirsiniz, ispanların Servantes Mərkəzi var, o, bütün dünyada ispan ədəbiyyatını təbliğ edir. Almanların Höte Mərkəzi var, o da bütün dünyada alman ədəbiyyatını təbliğ edir. Türklərin Yunus Əmrə Mərkəzi var, o da həmin işi görür. Biz də belə bir Füzuli Mərkəzi yaratsaydıq, ən azı böyük şəhərlərdə - Moskvada, İstanbulda, Tehranda, Avropa şəhərlərinin birində həm klassik və müasir Azərbaycan ədəbiyyatını, həm də Azərbaycan ədəbiyyatı vasitəsilə xalqımızın tarixini, bugünkü gününü, siyasətini təbliğ edərdik.

Nəhayət, son təklifim odur ki, cənab Prezident, mən çox istərdim heç olmasa ildə bir dəfə Sizinlə bu formatda görüşək. Bir də əgər mümkündürsə, Mehriban xanımın yanında ziyalıların məşvərət şurasını yaradaq ki, ara-sıra biz orada toplaşaq, ictimai-siyasi, mədəni hadisələr haqqında söhbətlər edək. Mən bu təkliflərimi yazılı şəkildə Sizə təqdim edirəm, bir hissəsi həyata keçsə, çox şad olaram, hamısı keçsə isə daha da şad olaram. Çox sağ olun.

* * *

**Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz ƏLİZADƏ dedi:**

-Möhtərəm cənab Prezident.

Əziz və hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Hörmətli həmkarlar.

Mən də bəstəkarlar və musiqişünaslar adından Sizə dərin minnətdarlığımı bildirirəm ki, vaxt tapıb bizimlə görüşdünüz. Amma zənn edirəm ki, hər halda bizim qədər Sizə minnətdar olan insanlar yoxdur. Ona görə ki, ilk növbədə, Siz bizə binamızı qaytardınız. Unudulmaz açılış oldu. Biz onu heç vaxt unutmayacağıq. Çox gözəl bir mərasim idi. Sizin və ailənizin çox böyük diqqəti, dəstəyi ilə bu mərasimi həyata keçirdik. Doğrudan da uzun illər yurdsuz-yuvasız qalan Bəstəkarlar İttifaqı, nəhayət, öz evinə qayıtdı.

Bundan başqa, Anar müəllimin dediyi kimi, artıq 10 ildir ki, bəstəkarlarımız və musiqişünaslarımız təqaüd alırlar. Bu da 85 illik tariximizdə ilk dəfə olan bir hadisədir, az məbləğ də deyil. Bizim bəstəkarlarımız və musiqişünaslarımız onlarla kitab və yeni əsərlər yazıblar və bu təqaüd onlara maddi tərəfdən çox böyük dəstəkdir. Çox təşəkkür edirik, bu, çox gözəl bir haldır. Bundan əlavə, təbii ki, fəxri adlara, evlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Amma yenə də ehtiyaclar var, möhtərəm cənab Prezident. Burada bir adı çəkmək istəyirəm, bağışlayın, bəlkə yeri deyil, amma bizim 90 yaşında bir bəstəkarımız var, Yaşar İmanov, Abxaziyadan qaçqındır. Artıq ailəsində üç nəsil musiqiçilər böyüyüb. Onun evi yoxdur. O, çox istərdi ki, 90 yaşında da evi olsun. Mümkündürsə, bu məsələni həll edərdiniz. Biz çox minnətdar olarıq.

Təbii ki, gənc bəstəkarların da evə ehtiyacları var. Bu sahədə çox böyük işlər görülür. Amma bilirsiniz, gənc bəstəkarlar ailə qururlar və kirayədə qalmaq onlar üçün bir az çətin olur. Yeni tikilən o evlərdə bizə də imkan daxilində 5-6 mənzil versəniz, çox xoşbəxt olarıq.

Biz çox fəxr edirik ki, son illər islahatlar aparılır. Bu, musiqiyə də aiddir. Mən burada Heydər Əliyev Fondunun işini xüsusi vurğulamaq istəyirəm. Biz həmişə bu Fondun sadiq köməkçiləri olmuşuq və çox gözəl, böyük, mən deyərdim ki, vacib layihələrdə yaxından iştirak etmişik, məsələn, Azərbaycan və rus dillərində Muğam Ensiklopediyasının yaradılmasında. Rus dilində ensiklopediya bu dildə oxuyan 150 milyon insana, o cümlədən musiqisevərlərə, muğamsevərlərə təqdim olunan böyük elmi işdir. Bundan başqa, "Üzeyir dünyası" bizi çox sevindirən böyük bir layihədir. "Üzeyir dünyası", "Fikrət zirvəsi". Burada mən bir məsələyə də toxunmaq istəyirəm, möhtərəm cənab Prezident. Televiziya kanallarında balans bir az pozulub. Mən istəyərdim ki, bu proses bir az tənzimlənsin. Mən 2007-ci ildə bütün kanallara bəstəkarlar və musiqişünaslar adından məktublar göndərdim ki, televiziya kanallarında bədii şuralar bərpa olunsun. Ona görə ki, vaxtilə bu şuralar olub, qadağa qoymaq məqsədilə yox, tənzimləmək, yəni, bu balansı saxlamaq üçün. Amma bu bədii şuraların tərkibi də çox vacib bir məsələdir. Yəni, o tərkibdə kimlər olmalıdır, onların zövqü, savadı, səviyyəsi doğrudan da bu prosesi aparmağa yetərlidirmi? Bax, bunlar çox böyük məsələdir.

Biz yenə də vurğulamaq istəyərdik ki, Azərbaycan musiqisi təkcə mahnılardan ibarət deyil. Biz çox böyük fəxr hissi ilə deməliyik və vurğulamalıyıq ki, bütün Şərqdə, bütün İslam dünyasında nadir bəstəkarlıq məktəbi Azərbaycanda yaradılıb. Bu, haradan gəlir? İlk növbədə, dahi bəstəkarlarımız Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və onların ənənələrini bu gün də davam etdirən bəstəkarlar. Bu, nadir bir məktəbdir və onu həmişə dəstəkləmək, ona kömək etmək lazımdır. Ona görə ki, Avropada musiqi tarixi XIII əsrdən başlayıb, amma bizdə XX əsrdə. Bu 7 əsrlik boşluğu doldurmaq bizə o qədər də asan olmur. Belə dahi insanlar və ulu öndərimiz Heydər Əliyevin dəstəyi, çox böyük diqqəti, bizim bəstəkarlarla şəxsi dostluğu - bunlar hamısı bizim üçün çox böyük dayaq idi. Biz fəxr edirik ki, bizim müəllimlərimiz həmişə Heydər Əliyevin yanında olub, həmişə birlikdə gözəl layihələr işlənib.

Mən istərdim ki, bir problemi də Sizin diqqətinizə çatdırım. Son illər nədənsə bizim bəstəkarlarımızın əsərləri alınmır. Burada çox böyük maliyyə problemi yaranır. Ona görə ki, bizim Bəstəkarlar İttifaqında 11 bölmə fəaliyyət göstərir və bu bölmələrdə bütün janrlara aid olan əsərlər dinlənilir, seçilir. Biz istərdik ki, bu əsərlər alınsın. Ona görə ki, bu, həm bəstəkarlara və musiqişünaslara ruh verər, həm də ki, bu, yenə də Sizin dəstəyinizin bir təzahürü olar.

Bundan başqa, istərdik ki, sifarişlər də olsun. Sizin sərəncamlarınız bizim bəstəkarları və musiqişünasları çox gözəl istiqamətləndirir. Yəni, hansı mövzulara daha böyük diqqət yetirmək lazımdır. Bu baxımdan, bizim Mədəniyyət Nazirliyi yeni əsərlər sifariş etsəydi, daha uyğun olardı və bu əsərlər daha müntəzəm meydana gələrdi.

Bundan başqa, yada salmaq istəyirəm ki, Bəstəkarlar İttifaqı bütün beynəlxalq musiqi festivallarının təşkilində yaxından iştirak edir. Biz fəxr edirik ki, "Muğam aləmi" festivalı artıq beş dəfə keçirilib. Biz bu festivalda çox fəal iştirak edirik. Çox yüksək səviyyədə simpoziumlar keçirilir. Amma Bəstəkarlar İttifaqının da özünün gözəl Şəki festivalı, "İpək Yolu" festivalı var. Təəssüflər olsun ki, son illər biz bu festivalı keçirmək üçün heç bir maliyyə dəstəyi ala bilmirik. Bu il artıq 10-cu yubiley festivalı keçiriləcək və çox istərdik ki, burada bir az dəstək versinlər. Son festivalda mədəniyyət naziri də iştirak etdi. Gördü ki, orada çox yüksək səviyyədə, UNESCO səviyyəsində simpozium keçirildi. Çox gözəl keçdi və UNESCO-nun saytında da bu barədə çox qiymətli sözlər söylənildi. Biz istərdik ki, bu proses davam etsin və bizim Sizin dəstəyinizə də ehtiyacımız var.

Nəhayət, "Nəsimi ili" bizi çox sevindirdi. Ona görə ki, necə deyərlər, bizim bəstəkarlarımızın qələmləri həmişə əllərindədir, həmişə yazıb-yaradıblar. Bizim xalqımızın bütün sevincləri, problemləri bəstəkarların əsərlərində əks olunur. Mən inanıram ki, bəstəkarlar və musiqişünaslar həmişə yüksək səviyyədə, yəni, Sizin dəstəyinizə layiq olan əsərlər yaradacaqlar. Diqqətinizə görə təşəkkür edirəm. İstərdim ki, bizim bəstəkarlarımızın və musiqişünaslarımızın dərin minnətdarlığını bir daha Sizə çatdırım. Sağ olun.

* * *

**Xalq artisti, professor Arif BABAYEV dedi:**

-Hörmətli Prezident.

Hörmətli Mehriban xanım.

Əziz həmkarlar, hamınızı salamlayıram.

Mən öz fikrimi qısa şəkildə deyəcəyəm. Mən müsabiqələr haqqında danışmaq istəyirəm. Bizim növbəti muğam müsabiqəmiz bu yaxınlarda başlayacaq. Hədindən çox insan zəng edir, soruşur, maraqlanır, deyir ki, mən o müsabiqədə iştirak etmək istəyirəm. Doğrudan da çox böyük bir layihədir. Sağ olsun bu layihəni quran Mehriban xanım. Çünki muğam müsabiqələrinin keçirilməsi bizim sənət adamlarının inkişafına çox böyük təkandır. Yəni, cavanların araya-ərsəyə gəlməsi, onların püxtələşib xanəndə kimi formalaşması böyük işdir. Məsələn, bu yaxınlarda Ağdamda möhtəşəm bir bina tikildi.

Açılışda cənab Prezident, Mehriban xanım da iştirak etdilər. Yəni, bununla demək istəyirəm ki, çox sağ olun cənab Prezident, Mehriban xanım. Siz milli mədəniyyətimizin inkişafına doğrudan da böyük qiymət verirsiniz. Bu yaxınlarda, - gərək mən deyim bunu, - onurğa sütunumda bir problem var idi, sağ olsun Mehriban xanımın köməyi ilə o problem aradan qaldırıldı. İndi şükür Allaha ki, ayaq üstəyəm. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Onu demək istəyirəm ki, cənab Prezident, camaatın Sizə çoxlu xeyir-duası, alqışları var. Mən bir sənət adamı kimi, bir ağsaqqal kimi Sizə "Çox sağ olun!" deyirəm. Bu yeni fərmanlar camaatı çox sevindirdi və çox böyük işdir. Mən özüm asdım, doğrudan da çox sevindim və camaat da sevindi. Bunu alqışlayırlar. Doğrudan da bu, böyük işdir.

Mən demək istəyirəm ki, uşaqlar musiqi məktəblərində formalaşırlar. Xalq və bəstəkar mahnılarını onlara balaca vaxtlarından öyrətmək lazımdır. Onların not bilmələri daha yaxşıdır. Bir xanəndə kimi biz bunu görürük. Mən hazırda Milli Konservatoriyada kafedra müdiriyəm. Bizim peşəkar, çox gözəl müəllim yoldaşlarımız var, birgə çalışırıq və yaxşı xanəndələri ortaya çıxarırıq.

Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun, var olun. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

⇨ Davamı 5-ci səhifədə

# *Prezident İlham Əliyev:* 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər



⇨ Əvvəli 4-cü səhifədə

**Azərbaycanın və SSRİ-nin Xalq artisti, Milli Məclisin deputatı Zeynəb XANLAROVA dedi:**

-Mən də bir-iki kəlmə söz demək istəyirəm. Görürəm ki, bəzi çıxışlar xahişlərdən ibarətdir. Mənim xahişim yoxdur. Mən ancaq danışa bilərəm. Ataların bir sözü var: "Görünən dağa nə bələdçi".

Azərbaycanımız çox gözəlləşib, çox böyük inkişaf var. Biz əvvəlki dövrləri də görmüşük, gələn turistləri də görmüşük. Hələ indiyə qədər Azərbaycana bu cür turist axını olmayıb. Hamı nəyə görə gəlir? Ancaq Azərbaycanımızın gözəlliyinə. Neçə prezidentlər görmüşəm. Mən bu sözü dəfələrlə demişəm, yenə də özümü xoşbəxt hesab edirəm ki, bu sözü həmişə təkrar edirəm. Elə prezidentlərimiz, elə başçılarımız olub ki, bizim kəndlərimizi, rayonlarımızı tanımırdılar.

Bizim əziz Prezidentimiz, bizim əzizimiz Mehriban xanım rayonları, kəndləri qarış-qarış gəzirlər. Mən onlara indi rayon deyə bilmərəm, mən onlara şəhər deyərəm. Mən bu qədər ölkə gəzmişəm, inanın, bəlkə də elə bir şəhər görməmişəm. Mən, misal üçün, keçmişdə konsertlər verirdim. Nə qədər konsertlər vermişəm. Ancaq maşınların kuzalarını birləşdirirdilər, üstünə xalçalar döşəyirdilər. Biz onun üstündə stadionlarda yorulmadan konsertlər verirdik. İndi, Maşallah, hər bir rayonda elə böyük mədəniyyət sarayları yaradılıb ki, sanki Heydər Əliyev Mərkəzidir. Gözəl otellər, mərkəzlər tikilib. Vallah, bunu görməmək korluqdur. Ancaq kor adamlar bunları görə bilməz.

Mən Prezidentimizə uzun ömür arzulayıram. Çünki o, Azərbaycanı bu qədər inkişaf etdirib, bu qədər gözəlləşdirib. Hər il mən xaricdə oluram. O qədər gözəl sözlər deyirlər. Fəxr edirəm ki, mənim Azərbaycanım belə inkişafdadır. Mən heç bir xahişdən ötrü gəlməmişəm. Xahiş edirəm, çıxış edənlər də bu gözəlliklərdən danışsınlar. Xahiş lazım olanda onsuz da elə bir adam yoxdur ki, Prezident onunla ayrıca görüşməsin, onu ayrıca eşitməsin. Xahiş edirəm, burada olanlardan, Azərbaycanımızın gözəlliklərindən, inkişafından danışaq.

Mən bunu dəfələrlə demişəm ki, ölməz Heydər müəllimimiz var. İnanın, mən onun yoxluğuna inanmıram. Mən elə bilirəm ki, Heydər müəllim hələ də yaşayır. Siz nə qədər yaşayırsınızsa, Heydər müəllim də həmişə yaşayacaq. Azərbaycan nə qədər varsa, həmişə Heydər müəllim var, Sizinlə birlikdə həmişə yaşayır.

Mehriban xanım, Sizə, mənim əziz Prezidentim, Sizə cansağlığı arzulayıram. Bəlkə də mən natiq deyiləm. Mən 70 ildir səhnədəyəm, indiyədək fonoqramla oxumamışam, səslərini verirlər. Hətta Amerikada qollarımdan tutub deyiblər ki, görəsən, bu, canlı oxuyur, yoxsa fonoqram? Ömrüm nə qədər var, mən canlı oxuyacağam və fonoqram görməyəcəyəm. Yəni, bunu da demək istəyirəm. Danışmağa çox sözüm var. Əlbəttə, muğam olsa, mahnı olsa, mən burada çox oxuyaram, qolumdan tutub çıxarmasanız səhnədən. Ancaq inanın, ürəyimdə Azərbaycanımızın gözəlliyi haqqında o qədər sözlər var ki, yoldaşlardan xahiş edirəm, xahişlərinizi saxlayın, Azərbaycanımızın gözəlliyindən, inkişafından danışın. Çox xahiş edirəm sizdən. Sağ olun.





* * *

**Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini Hacı İSMAYILOV dedi:**

-Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən bizim dünya şöhrətli müğənnimizlə tamamilə şərikəm ki, Azərbaycanın gözəllikləri bu gün göz oxşayır. Amma o gözəlliklərlə yanaşı, biz dayana bilmərik, biz qabağa getməliyik, inkişaf etməliyik hər barədə, həm mədəniyyətimiz, həm iqtisadiyyatımız. Mən fürsətdən istifadə edərək, möhtərəm Prezidentimizə ürəkdən təşəkkür edirəm. Nəinki mədəniyyət xadimləri, bütün Azərbaycan xalqı sizi çox istəyir, Sizə böyük ehtiramları, böyük inamları var. Mədəniyyət işçiləri, hamımız sevinirik ki, bizim belə Prezidentimiz var. Dünya şöhrətli, gözəl, böyük siyasəti olan, Azərbaycanın xoşbəxtliyini təmin edə bilən bir insan bizim möhtərəm Prezidentimizdir, dövlətimizin başçısıdır.

Əlbəttə ki, müstəqil Azərbaycan Respublikası bu gün sürətli inkişaf yolundadır. Bu gözəlliyi hamımız görürük. Onu da qeyd edim ki, bu inkişaf başqa sahələrlə yanaşı, eyni zamanda, mədəniyyətimizin və incəsənətimizin də inkişafına kömək edir. Sözsüz ki, bu inkişaf, canlanma, cənab Prezident, Sizin mədəniyyətə, xüsusilə də teatr sənətinə qayğı və diqqətiniz sayəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyev teatrı və aktyor sənətini həmişə yüksək qiymətləndirib, ona böyük dəyər verib. O deyərdi ki, teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada işləyənlər fədakardırlar, fədaidirlər. Mən həmişə teatra yaxın və bağlı olmuşam. Bu, ötəri hiss deyil. Bu, mənim içimdən gələn bir məhəbbətdir. Ümummilli Liderimizin mədəniyyətə qayğısı, diqqəti bu gün məhz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev tərəfindən davam etdirilir. Əlbəttə, o gözəllikləri deyirsiniz, inanın, mən Azərbaycanda olan teatr binalarını, təmir olunmuş teatr binalarını, o səhnələri, o gözəllikləri görəndə deyirəm, İlahi, nə yaxşı ki, biz bu gözəl dövlətin vətəndaşlarıyıq. Əlbəttə, vətəndaş olmaq üçün gərək Vətəni sevəsən, dövlətinə qulluq edəsən, millətinə xidmət edəsən. Bu gün buraya yığışan insanların, Azərbaycanın görkəmli incəsənət, mədəniyyət xadimlərinin sözsüz ki, bu işdə böyük fəaliyyəti, böyük zəhməti olub. Mən onların hamısına ürəkdən təşəkkür edirəm. Burada məndən yaşlı, məndən titullu insanlar var. Amma çox sevinirəm ki, bu gün hamımız bir yerdəyik. Hamımız bir yerdə Azərbaycan mədəniyyətinin təntənəsi uğrunda nələrisə deyirik, nələrisə istəyirik. Əlbəttə, sənət adamlarına verilən fəxri adlar, Prezidentin fərdi təqaüdü, mükafatlar, onların mənzillə təmin olunması - inanın, cənab Prezident, Siz nə qədər böyük işlər görmüsünüz ki, hamımızın qəlbində Sizə böyük ehtiram, böyük məhəbbət var. Biz Sizi çox istəyirik. Həmişə Sizin yanınızda olmuşuq. İnanın son prezident seçkilərində mədəniyyət işçiləri Sizi çox böyük coşqu ilə dəstəklədilər. Həmin gecə Sizin parka gəlişiniz, oradakı görüşlər, o şadlıq, o bayram mənim heç yadımdan çıxmır. Azərbaycan xalqı bütövlükdə sevinirdi ki, bizim belə Prezidentimiz var. Sizin mədəniyyətə, teatr sənətinə olan münasibətiniz bizi çox sevindirir.

Onu da deyim ki, 50 ilə yaxın işlədiyim Azərbaycan Akademik Milli Dram Teatrı bu illər ərzində böyük uğurlar qazanıb. Uğurlarımız da onda olub ki, biz elə saydığımız yerdə qalmamışıq. Bizim teatrda əvvəllər böyük səhnə və kiçik səhnə olub, indi artıq böyük səhnədən başqa dörd səhnəmiz var.

Bu gün bizim martın 1-də toplaşmağımız çox əlamətdardır. Çünki 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz martın 1-də Azərbaycanda 10 mart - Milli Teatr Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb. Artıq 6 ildir ki, biz bu günü bayram edirik, buna görə Sizə ürəkdən təşəkkür edirik. Bu, milli teatra verilən dəyər və qiymətdir.

Akademik Milli Dram Teatrının böyük bir arzusu var. Əvvəla deyim ki, kollektivimiz Sizi həmişə arzulayır, həmişə istəyir. Çünki bu adət bizə Ulu Öndər tərəfindən miras qalmışdır. O, həmişə teatra gələndə tamaşadan sonra aktyorlarla, rejissorlarla söhbət edirdi. İndi də bu istək var, həmişə də bizim işçilər tərəfindən səslənir. Mən istəyirəm onu bir şəkili Mustafa kimi deyim: Sa qurban olum ay Allah, noolar, elə et bizim möhtərəm Prezidentimiz bir dəfə bizim Akademik Milli Dram Teatrına təşrif gətirsin, biz o günü bayram edək.

Əlbəttə, bu gün Azərbaycan teatr xadimlərinin gördüyü çox işlər var. Yəni, bir çatışmayan, daha doğrusu, arzuolunan odur ki, Azərbaycanda gənc dramaturqlara və gənc rejissorlara çox böyük ehtiyac var. Biz də, bizim direktorumuz Azərpaşa müəllim də bu barədə fikirləşdi. Keçən il bizim ittifaqda 5 yaradıcılıq laboratoriyası açılıb. Gənc rejissorların, aktyorların, eksperimental rejissorların, tənqidçilərin və bir də gənc dramaturqların laboratoriyası artıq fəaliyyət göstərir. Burada 43 nəfər təhsil alır və mən inanıram ki, onların Azərbaycan mədəniyyətinə böyük töhfələri olacaq. Çünki bunlar hamısı gəncliyə aiddir və gənclər mütləq bu sənətə gəlməlidirlər. Bizlərin çoxu yaşlaşır.

Mən bir cəhəti də qeyd edim ki, Azərbaycanda tamaşaçı problemi var. Ancaq bu, bizim teatra aid deyil. Maşallah, bizim teatrda həmişə tamaşaçılar olur, yəqin ki, bizim teatrı çox istəyirlər. Amma bizim teatrda uşaq tamaşaları var. Mən mətbuatda oxumuşam, tənqid edirlər ki, Akademik Milli Dram Teatrına uşaq tamaşaları hazırlamaq yaraşmaz. Axı, bugünkü uşaq sabah böyüyəcək, sabah teatrın əsas tamaşaçısına çevriləcək. Biz onlardan necə əl çəkə bilərik? Burada əyləşən mədəniyyət xadimlərinin hər birindən soruşsanız ki, sən mədəniyyətə, teatra, başqa sənətə hansı yaşından başlamısan, hamı deyəcək ki, məktəb illərindən. Məktəblilərlə teatrların münasibəti, ünsiyyəti qurulmalıdır. Özü də bu, ya yazılı, ya şifahi şəkildə olmalıdır ki, məktəblilər mütləq teatra gəlsinlər. Çünki onlar bizim gələcək tamaşaçılarımızdır.

Bir-iki kəlmə də onu demək istəyirəm ki, çox ağrılı da deyil, paradoksal bir şeydir ki, dövlət tərəfindən maliyyələşən ittifaqlar və təşkilatlar var. Onlar da 18 faiz vergi ödəyir. Amma dövlət tərəfindən maliyyələşməyən Teatr Xadimləri İttifaqı da 18 faiz vergi ödəyir. Burada qəribə uyğunsuzluq var, yəqin ki, bunu düzəltmək olsaydı, bizim daha çox imkanlarımız olardı. Çünki Teatr Xadimləri İttifaqının üzvlərdən yığdığı pulların hamısı o üzvlərin xəstəliyinə, yaşlı olmağına, xeyrinə-şərinə istifadə olunur. Yəni, teatr xadimləri özü-özünü dolandırır. Mən Mədəniyyət Nazirliyinə ürəkdən təşəkkür edirəm. Üç ildir ki, onlar bizə maddi yardım edirlər. Çox sağ olsun Əbülfəs müəllim o barədə. Ürəkdən təşəkkür edirik.

Yəni, deyiləsi sözlər çoxdur. Mən bir şeyi də qeyd edim ki, Azərbaycan Teatr Xadimləri İttifaqı dünyada tanınmış təşkilatın - UNESCO-nun beynəlxalq teatr institutunun üzvüdür. Eyni zamanda, Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının üzvüdür. Buraya MDB, Baltikyanı ölkələr, bir də Gürcüstan daxildir. Bu forumda Azərbaycanı 5 gənc dramaturq, 6 teatr rəssamı, 3 tənqidçi təmsil edib və iki tamaşa oynanılıb. Hazırda isə Mədəniyyət Nazirliyinin bilavasitə təşəbbüsü, maddi köməyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Moskvadakı Şukin adına teatr məktəbində bizim 10 gənc teatr təhsili alır, həm aktyor kimi, həm rejissor kimi. Mən inanıram ki, onlar qayıdandan sonra bizim mədəniyyətimizə öz töhfələrini verəcəklər və eyni zamanda, özlərinin yeni teatr düşüncələrini gətirəcəklər.

İcazənizlə, çıxışımı müstəqil Azərbaycanın memarı və qurucusu Ulu Öndərin tarixi sözləri ilə bitirim. O deyirdi ki, yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaqdır. Mədəniyyət bəşəriyyətin topladığı gözəl nümunələrlə xalqları zənginləşdirir. Azərbaycan mədəniyyəti o zənginliyə öz payını verib və əminəm ki, bundan sonra da verəcək. Diqqətinizə görə çox sağ olun.

* * *

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad BƏDƏLBƏYLİ dedi:**

-Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

Bu görüşə görə dərin minnətdarlığımı bildirmək istərdim. Burada əyləşənlərin hamısı, bütün yaradıcılıq ittifaqları Sizi bir il bundan qabaq filarmoniyada dəstəkləyiblər. Mən bacım Zeynəblə razı ola bilmərəm. Nəyə görə, Zeynəb? Firəngiz xanım da, Anar da böyük ittifaqların sədrləridir. Onların min dərdi var.

⇨ Davamı 6-cı səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər





⇨ Əvvəli 5-ci səhifədə

Onlar özləri üçün heç bir şey xahiş etmirlər. Camaatın dərdi var, onlara qulaq asmaq lazımdır. Ona görə də 90 illiyini qeyd edən bəstəkarımız 1991-ci ildə Abxaziyadan lüt gəldi. Mən onu işə qəbul etdim. Bütün ailə Azərbaycan üçün işləyir. Ona görə mən Firəngiz xanımı alqışlayıram və dəstəkləyirəm.

2021-ci ildə bizim Bakı Musiqi Akademiyasının 100 illiyi tamam olacaq. Onun məzunları buradadırlar, dünya şöhrətli ifaçılar Xuraman, Fidan, Firəngiz xanım, maestro Rauf. Yəni, bizim nəticələrimiz çox böyükdür. Bəstəkarlar məktəbi, vokal məktəbi. İndi bizim məzunlarımız Bolşoy Teatrda, La-Skalada ən möhtəşəm səhnələrdə konsertlərlə çıxış edirlər. Mən çox şadam ki, Üzeyir bəyin ənənələri davam etdirilir. Bu ənənələrin çox böyük bünövrəsi var, cənab Prezident, bu, musiqi məktəblərdir. Əgər musiqi məktəbləri, bu gözəl musiqi təhsili sistemi olmasaydı, bizim uğurlarımız da olmazdı. Bunu mütləq və mütləq saxlamaq lazımdır. Nəbadə musiqi məktəblərini ixtisara salmaq, xüsusilə rayonlarda azaltmaq olmaz. Biz rayonları nəyə görə diqqət mərkəzində saxlayırıq. Şəkidə Firəngiz xanım öz festivalını keçirir. Qəbələ festivalına görə sağ olsun Mehriban xanım, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu. Bu festivala 10 il ərzində ən möhtəşəm orkestrlər, solistlər gəliblər. Camaat indi özləri ailə üzvləri ilə konsertlərə gəlir. Yəni, mühit dəyişir. Rayonlarımızda musiqi məktəbləri çox vacibdir. Ona görə çox xahiş edirəm, biz nəbadə onlara toxunaq.

Mən ikinci məsələyə toxunmaq istərdim. Məncə, artıq ölkəmizdə klassik musiqi alətləri kolleksiyasının yaradılmasının vaxtı gəlib çatıb. Cənab Prezident, bu, bütün dünyada böyük bir bazardır. Sizə misal gətirim. Qvarneri del Cezu skripkasının 2010-cu ildə iki milyon dollar qiyməti var idi. Bu gün onun qiyməti dörd milyon dollardır. Yəni, bunu biz investisiya şəklində ala bilərik və Azərbaycanın bu kolleksiyası olsa, burada bizim ən istedadlı cavan skripkaçılar oturublar. Elvin Qəniyev ayın 7-də maestro Rauf Abdullayevlə filarmoniyada çıxış edəcək. Onun qvarneri skripkası var, ona kirayə veriblər. Mən çox istərdim ki, Rusiyada, misal üçün, 60 milyon dollarlıq kolleksiya alıblar, violonçel. Yenə də deyirəm, bu, investisiyadır. Bu, o demək deyil ki, biz aldıq və qaldı. Vaxt ötdükcə, onun qiyməti qalxır. Əgər mümkünsə, bu kolleksiya məsələsinə baxasınız, cənab Prezident. Bu iki məsələ, bir də mən çox danışmaq istərdim. Amma bu iki məsələyə toxundum.

Cənab Prezident, doğrudan da biz Sizi dəstəklədik və sözün düzü, biz Sizi çox sevirik. Sizin ailənizi sevirik. Maşallah, Sizin qızınız Leylanı hamı çox istəyir. Mən bir neçə dəfə "Xocalıya ədalət!" kampaniyasında iştirak etmişəm. Bir qarabağlı kimi deyim ki, bu, çox təsirlidir. O kampaniya bütün dünyada aparılır. Sağ olsun Leyla xanım, ona dərin təşəkkürümü bildirirəm. Qarabağ icmasının üzvü kimi burada Elçin və bizim ağsaqqalımız əyləşib. Biz bir arzu ilə yaşayırıq - bu yol Şuşaya aparan yoldur. İnanırıq ki, biz gec-tez orada olmalıyıq. Biz Şuşasız yaşaya bilmərik. Çox sağ olun.

* * *

**Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay QASIMZADƏ dedi:**

-Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Bu gün buraya Azərbaycanın ən görkəmli sənət adamlarını topladığınız üçün hamımızın adından Sizə dərin minnətdarlığımı bildirirəm. Son illərdə Azərbaycanda memarlıq və şəhərsalma sahəsində çox böyük işlər görülüb - şəhərlərimizin abadlığı, yeni-yeni memarlıq əsərlərinin yaranması, tarixi irsimizin qorunub saxlanılması, memarlıq abidələrinin bərpası. Bu işlərdə Heydər Əliyev Fondunun səyləri və zəhməti ölçüyəgəlməzdir. Bizim ölkəmizin Mədəniyyət Nazirliyinin abidələrə olan diqqəti, Sizin Sərəncamınızla nazirliyin tərkibində yaranmış Dövlət Xidməti, bunlar hamısı, əlbəttə ki, tarixi irsimizin qorunub saxlanılması üçün çox böyük zəmindir. Bunu təkcə biz yox, bizim beynəlxalq peşəkar qurumlar da görürlər. Ötən ilin mart ayında Siz Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini qəbul edərkən bu yüksək qiymətləri onların özlərindən eşitdiniz. Onlar bunu söylədilər və inanın ki, biz o görüşdən ayrılandan sonra Sizin memarlıq, memarlıq sənəti haqqında yüksək peşəkarlıq səviyyəsində verdiyiniz məlumat onlara çox böyük təəssürat bəxş etdi. Bunun sayəsindədir ki, Azərbaycan memarlığı bu gün dünyada tanınır. Beynəlxalq Memarlar İttifaqının 134 üzvü var. Yalnız 25 nəfər Şuranın üzvü var və onlardan biri də Azərbaycan təmsilçisidir. Bu, həqiqətən böyük nailiyyətdir. Bu nailiyyətə biz Sizin səyləriniz nəticəsində gəlib çıxmışıq.

Bu il iyun ayının 7-dən 11-nə qədər Bakıda tarixi şəhərlər və turizm mövzusunda beynəlxalq forum keçiriləcək. Bu forum Sizin dəstəyinizlə keçirilir. Əlbəttə, biz xoşbəxt olarıq ki, o forumun açılışında hər ikiniz iştirak edəsiniz, imkanınız, vaxtınız olsa. Bu forumdan sonra ayın 11-də Beynəlxalq Memarlar İttifaqının Baş Assambleyası keçiriləcək. Bu assambleyanın təşkil olunması üçün adətən müsabiqə keçirilir. Bu dəfə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyi qərara gəlib ki, bunu Bakıda müsabiqəsiz keçirsin. Bizim Şuranın növbəti iclasında bəzi üzvlər məsələ qaldırdılar ki, niyə müsabiqəsiz olur, niyə Azərbaycanda olmalıdır? Yəni, gəlin müsabiqə elan edək, kim qalib gələrsə, bunu götürər. Sizin artıq tanıdığınız Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonier dedi ki, mən sizə bir sual verəcəyəm, əgər mənə cavab verə bilsəniz, mən bu mövzunu davam etdirərəm. Soruşdu ki, neçə illərdir hamınız Beynəlxalq Memarlar İttifaqının rəhbərliyindəsiniz və üzvüsünüz. Mənə deyin görüm, Azərbaycandan başqa hansı ölkədə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini cənab Prezident qəbul edib. O dəqiqə mübahisə aradan qalxdı.

Biz bu gün tədbirə çox ciddi şəkildə hazırlaşırıq. Tədbiri biz Bakı Media Mərkəzi ilə birgə hazırlayırıq. Bilirsiniz ki, bu tədbirdən sonra iyul ayında Bakıda UNESCO-nun Tarixi İrs Komitəsinin sessiyası keçiriləcək. Əlbəttə ki, bunların hamısı Sizin bu ixtisasa, bu sənətə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir. Mən də heç bir xahişlə müraciət etməyəcəyəm. Mənim, sadəcə bir-iki təklifim var. Bu gün Bakının mərkəz hissəsində çox böyük abadlıq işləri aparılır, tarixi mərkəzində binalar bərpa olunur, təmir edilir. Siz də çıxışınızda çox gözəl vurğuladınız ki, son vaxtlar şəhərsalma problemlərinə çox böyük diqqət yetirilir. Çünki Siz çox gözəl bilirsiniz ki, şəhərsalma dövlətin sosial proqramının əsasını təşkil edən bir amildir. Bizim şəhərimizin tarixi mərkəzinin sərhədləri müəyyənləşməyib. Bakının tarixi mərkəzi var. Mütləq bunun sərhədləri müəyyənləşməlidir. Bu gün Bakının tarixi mərkəzi dörd inzibati rayonun arasında bölünüb. Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonları. Nə qədər bunlara mərkəzdən rəhbərlik olunsa da, aydın məsələdir ki, dörd rəhbərin, dörd komandanın hərəsinin bu işə baxışı müxtəlifdir. Mən təklif edirəm o sərhədlər müəyyənləşsin və Bakının tarixi mərkəzi əsasında xüsusi ərazi vahidi yaransın. Mərkəzi rayon - bu təcrübə başqa paytaxtlarda var, Moskvada da var. Bunu etsək, orada tətbiq olunan qanunlar, normalar, əlbəttə, başqa yerlərdən fərqlənəcək. Yeni Yasamalla Bakının tarixi mərkəzində tələblər eyni ola bilməz. Bu, təbiidir. Onda Sizin istədiyinizə, Bakının tarixi mərkəzinin qorunub saxlanılmasına biz mütləq nail ola bilərik.

İkinci məsələ. Burada yaradıcı ittifaqların rəhbərləri oturublar, məncə bu məsələ onlara da çox yaxındır. Bu gün yaradıcılıq ittifaqlarının fəaliyyəti Azərbaycan Respublikasının "Qeyri-hökumət təşkilatları haqqında" Qanunu ilə tənzimlənir. Məncə bu, üzr istəyirəm, bir qədər ədalətsizdir. Çünki biz yaradıcı ittifaqlar dövlətin siyasətini dəstəkləyərək yaradıcılıqla, quruculuqla məşğuluq. Amma həmin qanun çərçivəsində bir çox təşkilatlar var ki, onlar əks fəaliyyətlə məşğuldurlar. Mən bilirəm ki, dörd il bundan öncə Milli Məclisdə "Yaradıcılıq birlikləri haqqında" Qanunun hazırlanması başlamışdı. Mən müəyyən qədər orada iştirak etmişəm, məsləhətlərimi vermişəm. Sonra o qanunun hazırlanması dayandı. Düşünürəm ki, bu gün elə bir qanunun qəbul olunması həm yaradıcılıq ittifaqlarının statusunu qaldırar, həm onlardan olan fayda başqa ictimai təşkilatlardan fərqlənər və bunu hamı görər ki, yaradıcı kimdir, dağıdıcı kimdir. Məncə bunu bərpa etmək lazımdır.

Sonuncu, bəlkə də xahişdir, demişdim ki, etməyəcəyəm. Amma bu, elə bir xahişdir ki, mən bilirəm, Sizin ürəyinizcə olacaq. Bakının müasir dövrdə, yəni, XX əsrdə memarlıq simasının formalaşmasının iki banisi olub - Sadıq Dadaşov və Mikayıl Hüseynov. Bakıda Zivər bəyin heykəli var, amma bu iki nəfərin heykəli yoxdur. İcazənizlə biz onun layihəsini hazırlayarıq. Biz Ömər müəllimlə bir yerdə bu layihə üzərində bir müddət işləmişik, onu təqdim edək. Xahiş edirəm, bu iki böyük şəxsiyyətə Bakıda mütləq abidə qoyulsun. Çox sağ olun. Sizə uğurlar, cansağlığı arzu edirəm.

* * *

**Xalq artisti Afaq BƏŞİRQIZI dedi:**

-Canım Prezidentim, mənim Sizə danışmamağım qeyri-mümkündür. Canım Prezidentim, çünki Sizi mən seçmişəm. Mən Sizə səs vermişəm. Mən Sizi dəstəkləyirəm.

Canım Mehriban xanım, bu gün mənim burada oturmağımın səbəbkarı göydə Allah, yerdə Sizsiniz. Mənim səhhətimə göstərdiyiniz o qayğıya görə Sizə minnətdaram, ömrüm boyu minnətdar olacağam.

Burada əyləşən bütün incəsənət xadimləri sənətə öz canlarını qoyublar və bu sənətin inkişafında çox böyük rolları olubdur. Lakin biz bununla kifayətlənməməliyik. Biz Sizin sərəncamlarınızdan sui-istifadə edənlərə qarşı çox böyük bir inqilab etməliyik. İki açıq cəbhəsi olan ovuc boyda Azərbaycanı Siz necə qoruyursunuz? Bu dövlətçiliyi necə qoruyursunuz? Hər birimizi necə qoruyursunuz? Siz necə əziyyətlər çəkirsiniz? Bunu biz hamımız başa düşməliyik. Sizin əməyinizi qiymətləndirmək bu balaca məclislərdə deyil, geniş meydanlarda olmalıdır, bizim müsahibələrimizdə olmalıdır. Bu hadisəni başa düşməyən və bu hadisədən sui-istifadə edən ortabab xalqı, bəlkə də deyim Sizə ki, sadə bir xalqı qızışdıran, Vətənin bu vəziyyətində öz şəxsi ambisiyaları üçün istifadə edən şəxslərə bizim dilimiz çox uzun olmalıdır. Çünki hər bir xalqı mədəniyyəti ilə tanıyırlar. Hər bir tikilini təzədən bərpa etmək olar, hər bir dağıntını təzədən qurmaq olar, amma mədəniyyət çat verərsə, bu, çox böyük bir bəladır. Burada oturanlar bilirlər ki, bizə, bizim mədəniyyətimizə çox böyük qayğı var. Bəlkə də biz yeganə xalqıq fikirləşirik ki, problemlərimiz olanda Prezidentimizə, Mehriban xanıma deyəcəyik və onlar bizi bu bəladan, bu problemdən qurtaracaq. Bəlkə də bizim içimizdə bunu təsdiq edənlər var. Çox problemləri biz onların vasitəsilə həll etmişik. Amma bu, təkcə şəxsi ambisiya üçün olmamalıdır. Bizdən sonra yeni nəsil yetişir, yeni, cavan nəsil gəlir. Bəli, çox gözəl mədəniyyət nazirlərimiz olub. Mənim yaşım o vaxta çatmayıb, amma biz onlarla indiki kimi ünsiyyət qura bilməmişik. İndiki kimi deyə bilməmişik ki, cənab nazir, filankəs ağır vəziyyətdə xəstəxanadadır, özəl xəstəxanadır, onun pulu ödənməlidir, o, oradan çıxmalıdır. Bilirsiniz, bütün bunlar hamısı həyat hadisələridir. Bunun hamısını biz çılpaqlığı ilə deməliyik, boynumuza almalıyıq. Nə üçün? Çünki bizim həyat devizimiz, yəni, aktyorların, incəsənət xadimlərinin əsas həyat devizi təbii, düzgün olmaqdır. Biz yalanlardan uzaq olmalıyıq. Cənab Prezident, teatr başqa sahələrə nisbətən bir az çətin vəziyyətdədir. Yəni, Mehriban xanımın qayğısı ilə bizim musiqiçilərimiz, Allaha şükür olsun, muğam festivalı, hamısı maşallah təmin olunublar. Çox sevinirəm. Bizim özümüzün də Sizin xüsusi mükafatınız, Allah Ulu Öndərimizə qəni-qəni rəhmət etsin, xüsusi təqaüdünüz var. Amma biz tək deyilik. Biz özümüzdən sonrakıları da fikirləşməliyik. Cənab Prezident, mənim işlədiyim Musiqili Teatr, - şəhər mərkəzində yerləşən, öz sənəti, öz tarixi, öz sənətkarları olan bir teatr, - üçüncü kateqoriyadadır.

⇨ Davamı 7-ci səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər



⇨ Əvvəli 6-cı səhifədə

Mən bir faktı diqqətinizə çatdırmaq istəyirəm. Aktyor səhər tezdən kirayə qaldığı Müşfiqabaddan iki övladı və yoldaşı ilə çayını, çörəyini götürüb gəlib Konservatoriyanın qabağında dayanır. Uşaqların biri dərsə gedir, ikinci uşağı ikinci növbəyə hazırlayırlar. Orada onu yedirdir, özü isə məşqə gedir. Axşam yenə də həmin o ailə qayıdır Müşfiqabada. Sizə demək istəyirəm ki, bəli, Afaq Başirqızına ev, mükafat, fəxri ad verilib. Çox sağ olun. Amma Afaq Başirqızı tək deyil. Afaq Başirqızı özündən sonrakıları fikirləşməlidir. Sizə olan xahişlər buna görədir, ümumi xalq üçündür.

Canım Prezidentim, çox xahiş edirəm, imkansız aktyorların maaşı və bir də evlə təmin olunması məsələsinə diqqət yetirilsin. Aktyorlarımızın mənzil şəraiti və sosial vəziyyəti ağırdır, bilirsiniz ki, maaşlarımız azdır. Başa düşürük, indi bizim Sizdən heç nə tələb etməyə ixtiyarımız yoxdur. Çünki biz müharibə şəraitində yaşayan bir ölkəyik. Bunun hamısını bilirik və başa düşənlər bunu bilirlər. Amma çox xahiş edirik, teatr sahəsinin, Teatr Xadimləri İttifaqının inkişafı ilə bağlı yeni konsepsiya hazırlanmalı, yeni işlər görülməlidir. Çünki teatr xadimlərinin Teatr Xadimləri İttifaqına həqiqətən də çox böyük ehtiyacı var.

Qarşıdan gələn Novruz bayramınız mübarək olsun. Uğurlu, xeyirli olsun. Gün o gün olsun ki, Allah qoysa, Qarabağda görüşək, sevinək və dərindən bir sevinc ahı çəkib deyək ki, çox şükürlər olsun Sənə, İlahi, alnımız qeyrətlə açıldı. Çox sağ olun.

* * *

**Xalq artisti Mehriban ZƏKİ dedi:**

-Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Mən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Hər zaman mədəniyyətimizə, incəsənətimizə qayğınız olub və bugünkü görüşümüz bunun bariz nümunəsidir.

Mədəniyyət, bədii yaradıcılıq nümunələri hər zaman arxetiplərimizdən qaynaqlanmalı, tariximizə, köklərimizə söykənməli və bu günümüzlə aktuallaşmalıdır. Mənim uşaq vaxtı gördüyüm ilk filmlərdən biri "Nəsimi" filmi idi. Bəlkə də həmin film, - altı-yeddi yaşım olardı, - məni sənətə bağladı, Nəsimi poeziyasına sevgimi artırdı. O vaxtdan mən - altı-yeddi yaşlı uşaq Nəsiminin qəzəllərini əzbərləməyə başlamışdım. Həmin o sevgim illər boyu daha da artdı, artıq yarım əsr keçib. Keçən ilin sentyabr ayında Heydər Əliyev Fondunun və şəxsən Leyla xanımın təşəbbüsü ilə Nəsimi festivalı keçirildi. Bakıda, Moskvada bu tədbirdə fəal şəkildə iştirak etdim. Cənab Prezident, bu il Sizin Sərəncamınızla elan edilən "Nəsimi ili" ilə bağlı təşkil olunan bütün tədbirlərdə fəal şəkildə iştirak edəcəyəm. Həm Bakıda, həm bölgələrdə öz təşəbbüsümlə tədbirlər təşkil edəcəyəm, xaricdə də tədbirlərdə iştirak edəcəyəm. Mən niyə Nəsimidən danışdım? Çünki mədəniyyətdə və dövlətçilikdə kino çox böyük bir rol oynayır, çox böyük bir maarifləndirmə vasitəsidir. Mən bu gün teatr-kino aktrisasıyam. İki universitetdə müəllim işləyirəm və tələbələrim var ki, çox istedadlıdırlar. Çox istedadlı gənc nəslimiz yetişir.



Teatr barədə danışdılar. Mən daha çox diqqətinizi kinoya yönəltmək istəyirəm. Mənim gəncliyimdə kinostudiyanın həyatında, onun divarları arasında çox fəal yaradıcı proseslər baş verirdi. Son illərə qədər bu proses davam edirdi. Müasir dövrdə, müstəqillik dövrümüzdə artıq çəkilmiş filmlər, mənim də çəkildiyim "Nabat", "Yarımçıq xatirələr", "Dolu", "Axınla aşağı" filmləri və adlarını unutduğum bir çox filmlər var. Bir çox filmlər A kateqoriyalı festivallarda iştirak edib, müəyyən nailiyyətlər qazanıb. Amma təəssüf edirəm ki, son iki ildə dövlət sektorunda filmlərimizin inkişafı, çəkilməsi nədənsə avazıyıb. Kinostudiyamızın divarları soyuyub. Ona görə, cənab Prezident, mənim o uşaqlıq arzum olan kinostudiyada coşqun həyat, sənət eşqi davam etsin, diqqətinizi bir daha oraya yönəltmək istərdim. Sizə təşəkkür edirəm.

* * *

**Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Şəfiqə MƏMMƏDOVA dedi:**

-Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Vaxtınızı almaq istəmirəm. Mən bəlkə də protokoldan kənar danışacağam, ona görə çox qısa sözüm olacaq. Çox həyəcan keçirirəm, çünki, ilk növbədə, dərin təşəkkürümü bildirirəm ki, bu görüşümüzü təşkil etmisiniz, bizə diqqət yetirmisiniz. Hər şeyə görə minnətdaram. Amma mən xahiş edirəm, burada bir neçə ittifaqların sədri çıxış etdi, çox gözəl təkliflər, çox gözəl xahişlər oldu. Amma mən istərdim ki, bu Kinematoqrafçılar İttifaqının aqibətini bu gün Sizə çatdırım. Artıq 6 ildir ki, təsis olunmuş Respublika Kinematoqrafçılar İttifaqı binasızdır. Azacıq da olsa bizə dəstək verilən o büdcədən il boyu biz kirayə pulu veririk. Fəaliyyətimizə uyğun olmayan yerdə yerləşirik. Düzdür, ağlamırıq. Məktublar yazmışam, lakin bəlkə çatmayıb. Bunu mən dəqiq deyirəm. Görürsünüz, burada nə qədər kinematoqrafçılar əyləşiblər, mən buna görə çox sevinirəm. Bu ittifaq 6 ildir fəaliyyət göstərməsinə baxmayaraq, çox böyük işlər görüb, onun artıq 400-ə yaxın üzvü var. Ümumiyyətlə, ittifaqın aqibəti elə olub, həmişə binasız olub. Bilirsiniz, Rəssamlar, Bəstəkarlar, Teatr Xadimləri, Yazıçılar ittifaqları Xəqani küçəsində düzülüb. Amma kinematoqrafçıların ordusu çox böyükdür. Onların içində operatorlar, istehsalın bütün növünə aid istər rəssamlar, istər sexlərin işçiləri, istər operatorlar, rejissorlar, ssenaristlər var. Kinematoqrafiya elə böyük sahədir ki, mən say naminə çox xahişlər edə bilərdim. Çünki İttifaq, doğrudan da cavan olmasına baxmayaraq, çox işlər görüb. Amma çox istərdim, bilirsiniz artıq bu, mümkünsüzdür, il boyu mənim büdcədən verilən vəsaitimin çox hissəsi kirayəyə gedir. Ona görə mən Sizdən xahiş edirəm, bizə elə bir məkan verilsin ki, artıq bu, Kinematoqrafçılar İttifaqına layiq olsun. Doğrudan da Kinematoqrafçılar İttifaqının istər İdarə Heyəti, istər çoxsaylı üzvləri Sizə çox əmindirlər. Təşəkkür edirəm.

* * *

**Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru, Xalq artisti Aleksandr ŞAROVSKİ dedi:**

-On-on bir əvvəlin gözəl may günü mənim və Rus Dram Teatrının bütün kollektivinin yaddaşında həmişəlik qalıb. O vaxt Siz və Mehriban xanım gəldiniz və bütün aparatlarla, əsl teatra xas olan hər şeylə təchiz olunmuş yeni binanın açılışını etdiniz. Sizə deməliyəm ki, həmin vaxtdan teatrın yeni həyatı başladı. Dövlət sifarişi ilə biz bu günədək hər mövsümdə 7-8 tamaşa hazırlayırdıq və indi də hazırlayırıq. Biz çoxlu qastrollara gedirik, kollektivləri qəbul edirik, Moskva teatrları bizdə qastrolda olublar. Biz də xarici ölkələrə və şəhərlərə qastrollara gedirik. Sizin şəxsən gördüyünüz xeyirxah işlərin sayı-hesabı yoxdur. Bunlar həm mükafatlar, həm məvaciblərin daim artırılması, həm sosial layihələr və qanunlar, həm də nəhayətsiz və çox gözəl, daim davam edən tikinti işləridir. Bütün qonaqlarımız şəhərimizin gözəlliyinə valeh olurlar və heç bir yerdə bunun şahidi olmadıqlarını deyirlər.



Yeganə olaraq, burada böyük müğənnimiz də söylədi ki, xahişlə müraciət etmək olmaz. Lakin icazə verin, hər halda kiçik bir xahişlə Sizə müraciət edim. Məsələ bundadır ki, teatr 100 illik yubileyi ərəfəsindədir və o vaxt bizim teatrın açılışı zamanı Siz də dediniz ki, Azərbaycanda rus teatrı həmişəlikdir. Siz keçmiş ittifaq respublikalarında rus teatrlarının əksəriyyətinin necə acınacaqlı vəziyyətdə olduğunu və bizim bu fonda özümüzü necə yaxşı hiss etdiyimizi bilməlisiniz. Lakin məsələ bundadır ki, həmin respublikalarda rus dram teatrları akademikdir, bizdə isə yox. Çox istərdik ki, biz də bu qürurverici adı daşıyaq və Sizinlə birlikdə sevinək. Çox sağ olun.

* * *

**Əməkdar artist Tahir İMANOV dedi:**

-Cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

İlk növbədə, təşəkkürümüzü bildiririk ki, bizi, KVN-çiləri bu gözəl tədbirə dəvət etmisiniz. Bir daha fürsətdən istifadə edib hamımızın adından təşəkkür bildiririk ki, KVN-nin ən çətin illərində bizə dəstək olmusunuz. Məhz Sizin sayənizdə "Parni iz Baku" KVN komandası ən yüksək zirvələrə qalxıb, əsrin çempionu adını qazanıb. Biz bu gün də KVN-i yaşadırıq, təbii ki, teatrımızın çərçivəsində. Mən heç vaxt özüm üçün xahiş etməmişəm. Bu gün də xahiş etməyəcəyəm. Ancaq nəzərinizə çatdırmaq istəyirəm ki, bu son illərdə bizə qoyulan qadağalara baxmayaraq, biz aktiv fəaliyyətimizi davam etdiririk. Bunun nəticəsi kimi, Leyla xanımın köməyi ilə biz Rusiyada çox böyük filmi təqdim etdik. Nəinki Rusiyada, MDB-nin 9 ölkəsində bu film yayım hüququ aldı. Hazırda ikinci film üzərində işləyirik. İkinci Dünya müharibəsi qəhrəmanı, milliyyətcə azərbaycanlı olan Əhmədiyyə Cəbrayılov haqqında film üzərində işləyirik. Daha dəqiq desəm, Rusiya Prodüserlər Gildiyasının prezidenti Renat Davletyarovun, həmçinin Rusiya Kino Fondu adlı bir qurum var, onların razılığını almışıq. Hörmətli səfirimiz Polad Bülbüloğlu bu barədə Rusiya Mədəniyyət Nazirliyinə də məktub yazıb, onlardan da müsbət cavab almışıq. Hətta Rusiyanın "Rossiya 1" kanalı bu filmin 4 seriyasında maraqlıdır ki, film orada da işıq üzü görsün. Bildiyiniz kimi, 2020-ci ildə bütün bəşəriyyət faşizm üzərində Qələbənin 75 illik yubileyini qeyd edəcək. O cümlədən də biz - Azərbaycan Respublikası. Ona görə Sizdən xahiş edirəm ki, bizə bu işdə yardımçı olasınız. Bir neçə biznesmenə, tanınmış iş adamlarına müraciət etmişik, amma hamı bir nəfər kimi deyir ki, qadağalarınız olmasaydı kömək edərdik. Sizdən xahiş edirik ki, bizə bu işdə yardımçı olasınız. Əgər imkan olarsa, başqa bir görüşdə biz bu barədə daha ətraflı məlumat verə bilərik. O cümlədən Sizdən teatrımızın aparıcı aktyorları Bəhram Bağırzadə və Cabir İmanov üçün fəxri ad xahiş edirəm. Çünki biz heç bir dövlət qurumunun balansında deyilik. Ona görə bu sistemi bilmirik, bu sistem necə həyata keçirilir, məktublar necə yazılır. Fürsətdən istifadə edib, Sizdən xahiş edirəm.



Sonuncu xahişim də odur ki, bu il mənim babam bəstəkar Süleyman Ələsgərovun 95 illiyi qeyd olundu. Doxsan illikdə də ailəmiz adından cəhd göstərib Sizə məktub yazdıq, amma bilirik ki, o məktublar çatmadı. Sağ olun ki, 80 illik yubileyində Siz onun adını əbədiləşdirdiniz, məktəbə ad verildi. İmkan varsa, Süleyman Ələsgərovun adına bir küçə də versəniz, biz çox şad olarıq. Bir daha fürsətdən istifadə edib cənab Prezident, Sizə, hörmətli Mehriban xanım, Sizə təşəkkürümüzü bildiririk.

* * *

⇨ Davamı 8-ci səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər



⇨ Əvvəli 7-ci səhifədə

**Əməkdar artist Bəhram BAĞIRZADƏ dedi:**

-Cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən üzr istəyirəm, bu gün səmimi çıxışıma görə. Heç vaxt Sizin qarşınızda çıxış etməmişəm.

Prezident İlham Əliyev: Biz çoxdan görüşməmişik KVN-çilərlə, ona görə siz nə qədər istəyirsiniz danışın.

Bəhram Bağırzadə: Ürəyimi boşaltmaq istəyirəm. Bu fürsət olmayacaq.

Prezident İlham Əliyev: Olacaq. Bundan sonra da olacaq.

Bəhram Bağırzadə: İnşallah. İlk növbədə, mən ağsaqqallarımızdan və ağbirçəklərimizdən üzr istəyirəm. Rəhmətlik atam mənə deyərdi ki, həmişə ağsaqqallar, ağbirçəklər olan yerdə danışma, sus, qulaq as, söz verilsə, onda danışarsan. Ona görə hamınızdan dəfələrlə üzr istəyirəm. Hətta zalın 60 faizi mənim müəllimlərimdir. Hansılar ki, mənə vaxtilə dərs deyiblər. Hamınıza minnətdaram. Sizə də, cənab Prezident, öz minnətdarlığımı bildirirəm. Siz də, Mehriban xanım da mənə efir vasitəsilə hər zaman dərs demisiniz. Bu gün mən problemlər haqqında danışmaq istəmirəm. O demək deyil ki, mənim problemlərim olmayıb. Müəyyən həyat məqamlarında problemlər olub, onları, şükür Allaha, Siz həll etmisiniz, istər 1995-ci ildə, istərsə də 2000-ci ildə. Özünüzün də xəbəriniz olmayıb, amma ətrafınızda olan insanlar mənim bütün problemlərimi həll ediblər. Ona görə mən Sizə dərin təşəkkürümü bildirirəm. Fürsət olmamışdı, bu gün xalqımın qarşısında bunu edirəm.



Bir tərəfdən də, bilirsiniz, mənim “Instagram” və “Facebook” səhifələrimdə yarım milyona qədər izləyicim var. Bu günləri mən onlara çıxış etməliyəm, sözümü deməliyəm. Onlar mənə sual verəcəklər ki, Allah-Təala sənə fürsət yaratdı, cənab Prezidentə bu xahişi, Elbay müəllim demişkən, xahiş yox, bir təklif kimi, Azərbaycan Respublikasının vətəndaşı kimi, Bakı şəhərinin sakini kimi çox istəyərdim ki, Bakı şəhərində Hacı Zeynalabdin Tağıyevin heykəli ucaldılsın. Bunu nəinki mən, bunu milyonlarla insan istəyir. Çünki onun çox böyük işləri olub Azərbaycanda, Bakıda. İnanın mənə ki, 10 milyonluq xalq həmişə dua edəcək Sizə, əgər bu yaxınlarda Hacı Zeynalabdin Tağıyevin heykəli ucalsa. Kukla Teatrının önündə bir bağ var, mən onu orada faytonda görürəm, Hacı Zeynalabdin Tağıyev faytonda oturub və Siz hər dəfə səhərlər işə gedəndə görəcəksiniz və sevinəcəksiniz ki, məhz Sizin vaxtınızda o heykəl ucaldı. Çox sağ olun, təşəkkür edirəm Sizə.

* * *

**Azərbaycanın və SSRİ-nin Xalq rəssamı Tahir SALAHOV dedi:**

-Möhtərəm Prezident.

Çox hörmətli Birinci vitse-prezident.

Əziz İlham Heydər oğlu.

Əziz Mehriban xanım.

Bu gün Azərbaycanın yüksək mədəniyyət ulduzları arasında olduğuma görə çox həyəcanlıyam. Sizin bu gün bizi toplamağınız mənim üçün tarixi gündür. Odur ki, çox xoşbəxtəm. Şadam ki, noyabrın 29-da Moskvada məni telefon zəngi yuxudan oyatdı və mən İlham Heydər oğlunun səsini eşitdim. İlham Heydər oğlu məni yubiley münasibətilə təbrik etdi. Mən dedim: “Bəs nə üçün belə erkən, məgər işdəsiniz?”. O isə mənə cavab verdi: “Tahir, mən birinci olmaq istədim”. Mən bu təbrikə görə Sizə çox minnətdaram. Bu, bizə - yaradıcı mədəniyyət xadimlərinə böyük stimul verir. Odur ki, Sizin mükafat barədə xəbəriniz, - Siz ilk dəfə 1-ci dərəcəli “Əmək” ordeni ilə təltifetmə barədə Sərəncam verdiniz, - böyük xoşbəxtlikdir və mənim yaradıcı əməyimə böyük hörmətdir. Mehriban xanım, təbrikinizə və aldığım hədiyyələrə görə çox sağ olun, çox minnətdaram.

Mən demək istəyirəm ki, Sizin Ekspo Mərkəzində sərgimə gəlməyiniz də məni xoşbəxt etdi. Mən bəlkə də ilk dəfə hansısa qanunları pozdum. Hər halda Ekspo Mərkəzində öz işlərimi göstərmək istəyirdim.

Tamaşaçılar ilə ünsiyyətin yeni formalarını tapmaq lazımdır, öz yaradıcılığını nümayiş etdirmək üçün hansısa yeni cəhətlər tapmaq lazımdır.

Siz ailəvi gəldiniz. Leyla xanım da valideynləri ilə birlikdə gəldi. O da yaradıcılıqla məşğul olur və Azərbaycan mədəniyyətinin, təsviri sənətinin inkişafında müəyyən yer tutur. Bu da böyük xoşbəxtlikdir. Düşünürəm ki, bu gün və qarşıdan gələn görüşdə biz mədəniyyətimizin, bütün növlərin və janrların məqsəd və vəzifələrini uzun illər irəlicədən müəyyən etməli, planlaşdırmalıyıq.

Çünki əsrin ərsəyə gəlməsi vaxt tələb edir. Siz də bilirsiniz ki, vaxt sürətlə ötüb keçir. Odur ki, əgər prezident seçkiləri gedirsə, mədəniyyətimizin inkişafını da dərhal Prezidentlə birlikdə uzun illər üçün planlaşdırmalıyıq. Gələcəkdə mədəniyyətimizin simasını müəyyən edəcək möhtəşəm əsərləri bu illər ərzində, 5-6 ildə yaratmaq üçün bizi hansı tarixlər, hansı hadisələr, hansı işlər narahat edir.

Mən demək istəyirəm ki, Heydər Əlirza oğlu mədəni həyatımızda fəal iştirak edirdi, özü də təkcə bizim deyil, bütün Sovet İttifaqının mədəni həyatında da. O, bununla çox məqsədyönlü şəkildə məşğul olurdu. O dövrdə o, Sovet İttifaqında 19 istiqaməti idarə edirdi və bütün Sovet İttifaqının mədəniyyətinin simasını müəyyənləşdirirdi. Yaradıcılıq ittifaqlarına və yaradıcılıq növlərinə dair bir çox qərarlar verilmişdi. Tretyakov Qalereyasının və keçmiş Sovet İttifaqının bir çox müəssisələrinin təmirinə külli miqdarda vəsait xərclənmişdi. O, burada, Azərbaycanda da bunu edirdi və bu işlər yüksək səviyyədə görülürdü.

Bizim İncəsənət Universitetimiz, Rəssamlıq Akademiyamız var. Bu illər ərzində həmin təhsil ocaqlarını çoxlu sayda gənc rəssam bitirib. İncəsənət Universiteti ildə 60 məzun, Rəssamlıq Akademiyası isə 150 məzun buraxır.

Onlar istedadlı, bacarıqlı gənclərdir, çox böyük təşəbbüsləri var. Mən nə arzu edə bilərəm? Qoy, onların əməyindən bütün Azərbaycan faydalansın. Baş memar vəzifələri ilə bərabər, baş rəssam vəzifələrini də təsis etmək lazımdır. Təkcə mərkəzdə - Bakıda və böyük şəhərlərdə deyil, regionlarda da. Bu, çox gözəl olardı. Heydər Əlirza oğlu həmişə arxitektura ilə təsviri sənətin sintezindən danışırdı. Məncə, təkcə eksteryerdə deyil, interyerdə də arxitektura ilə təsviri sənətin vəhdəti çox gözəl olardı və rəssamın əməyini qiymətləndirməyə imkan verərdi. Bu, çox gözəl olardı. Mən təklif və xahiş edirəm ki, hər il, yaxud iki ildən bir respublika sərgiləri keçirilsin. Təkcə Bakıda deyil, həm də Azərbaycanın bütün regionlarında da təsviri sənət və memarlıq festivalları və baxışları, fərdi sərgilər, bir çox digər sərgilər təşkil olunsun. Mən beynəlxalq səviyyəli rəssamların və münsiflər heyətinin iştirakı ilə beynəlxalq biennale keçirilməsini də təklif edirəm. Bilirsiniz, bu, musiqi mədəniyyətində olduğu kimi - Qəbələdə keçirilən festivallar kimi, təsviri sənətimizin, mədəniyyətimizin nüfuzunu yüksəldərdi. Bu, çox gözəl olardı.

Mən dəvətə görə təşəkkür edirəm. Mən bu gün dostlar arasındayam. Burada oturan hər bir şəxs mənim üçün respublikanın mədəniyyəti ilə ürəkdən məşğul olan və tarixi töhfə vermək istəyən insanlardır. Sizin vaxtınız - bizik. Çox sağ olun.

* * *



**Xalq artisti Xuraman QASIMOVA dedi:**

- Cənab Prezident, çox üzr istəyirəm, mən özüm çıxış etmək istədim. Çünki mən bilirəm, möhtərəm Prezidentimiz, sevimli Mehriban xanım, burada əyləşən insanların ürəyi o qədər doludur, hər kəs Sizin olduğunuz məclisdə iki kəlmə də olsa çıxış etmək istəyir. Çünki Siz bizim hər birimiz üçün o qədər gözəl işlər görmüsünüz, daşıdığımız fəxri adlar, aldığımız təzə mənzillər, bunları sadalamaq çox vaxt alar.

Amma mənim çoxdankı arzum var. Siz Fidan xanımı bu yaxınlarda ən yüksək mükafatla - “İstiqlal” ordeni ilə təltif etdiniz. Cənab Prezident, bu ordeni ona şəxsən Siz verdiniz. Biz çox fəxr edirik, çünki Sizin ailəniz, başda Ulu Öndərimiz olmaqla bizim ailəmizin həyatında böyük rol oynamısınız. Biz bunu heç zaman unutmuruq.

Bu gün susmaq olmazdı. Bircə arzumuz var. Vaxt elə keçir ki, mən bilmirəm Siz bizim ikimizi bir də səhnədə nə vaxtsa görəcəksiniz ya yox. Çünki özünüz demisiniz ki, çox nadir hallarda teatra gedirsiniz. Görürsünüz, burada neçə nəfər istəyir ki, Siz teatra tez-tez gedəsiniz. Amma çox təəssüf ki, biz artıq teatrda çalışmırıq, yalnız Konservatoriyada çalışırıq və bununla da fəxr edirik. Mən yalnız demək istəyirəm ki, möhtəşəm Heydər Əliyev Fondu var. Onu demək istəyirəm ki, bizim evimizdə də Sizin ailənizə həsr olunan kiçik fondumuz var. Mən Sizdən bütün xahişlərdən bir az qeyri-adi bir xahiş etmək istəyirəm. Mən istəyirəm ki, Siz nə vaxtsa ailənizlə birgə bizim qonağımız olasınız. Bağışlayın, çünki bunu möhtərəm Prezidentimiz Heydər Əliyev demişdi. O demişdi ki, Allah qoysa, təzə mənzilinizi alın, təmirinizi edin və mən sizə qonaq gələcəyəm. Odur ki, biz Sizi hər zaman gözləyirik, bizim Sizə həsr olunan, Sizə göstərəcəyimiz xüsusi arxivimiz var. Dinlədiyinizə görə çox sağ olun.

* * *

*Qaldırılan vacib məsələlərin həlli ilə bağlı tapşırıqlarını verən dövlətimizin başçısı görüşün yekununda çıxış etdi.*

⇨ Davamı 9-cu səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər

⇨ Əvvəli 8-ci səhifədə

### Prezident İlham Əliyevin yekun çıxışı

-Əziz dostlar, bilirəm ki, söz almaq istəyənlər kifayət qədər çoxdur. Mən təklif edərdim belə görüşlər müntəzəm olaraq keçirilsin ki, biz bütün məsələləri əhatə edə bilək.

Bugünkü görüş bir daha onu göstərir ki, bunun çox böyük faydası var. Çünki burada qaldırılan məsələlər doğrudan da vacibdir və hesab edirəm ki, bu məsələlərin həlli bir çox mətləblərə aydınlıq gətirə bilər. Mən artıq mədəniyyət nazirinə göstəriş verməmişəm, eyni zamanda, Prezident Administrasiyasına da göstəriş verirəm ki, burada səslənən bütün təkliflər təhlil olunsun, bir proqram halına salınsın və biz bu məsələləri ardıcıl olaraq həll edə bilək.

Bəzi məsələlərlə bağlı mən elə bu gün öz fikrimi xronoloji ardıcıllıqla bildirmək istərdim. Yazıçılar üçün Yaradıcılıq Evinin bərpası prosesinə start verildi. Anar müəllim bu barədə öz fikrini söylədi və bildirdi ki, biz görüş əsnasında bu məsələni həll etdik. Orada məskunlaşan köçkünlərə yeni evlər, yeni mənzillər verilir. Həmin bina əsaslı şəkildə təmir olunacaq və yazıçıların ixtiyarına veriləcəkdir. Eyni zamanda, Şabran rayonunda da Müasir Yaradıcılıq Mərkəzi yaradılır.

Digər təkliflərə, abidələrlə bağlı olan təkliflərə də mütləq baxılacaq. Cəlil Məmmədquluzadənin abidəsi ilə bağlı təklifləri mən qəbul edirəm, dəstəkləyirəm. Yazıçılar üçün tikiləcək evlə bağlı müvafiq göstəriş verildi, torpaq sahəsi ayrıldı və bu ev tikiləcək. Bununla bərabər, hesab edirəm ki, dövlət tərəfindən görkəmli mədəniyyət xadimləri, gənc istedadlar üçün yeni yaşayış binası tikilməlidir. Bakı Şəhər İcra Hakimiyyətinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Dövlət Əmlak Komitəsinə müvafiq göstərişlər veriləcək. Onlar indi mənim göstərişlərimi eşidirlər. Qısa müddət ərzində torpaq sahəsi ayrılsın və biz görkəmli xadimlərə gözəl ev tikək, onları mənzillərlə təmin edək.



Mən Bəstəkarlar İttifaqı tərəfindən qaldırılmış təklifləri də qəbul edirəm. Yaşar İmanovun mənzil probleminin həlli ilə bağlı bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş veriləcək. Əgər mən bunu əvvəldən bilsəydim, çoxdan bu məsələ həll olunardı. Siz bilirsiniz ki, son illər ərzində yüzlərlə görkəmli mədəniyyət xadimi dövlət tərəfindən mənzillərlə təmin olunub. Deyə bilərəm ki, bu məsələ ilə bağlı mənə daxil olan müraciətlərin mütləq əksəriyyəti öz həllini tapıb və bundan sonra da biz bunu edəcəyik. Çünki mən hesab edirəm ki, dövlət bu məsuliyyəti öz üzərinə götürməlidir. Mən bilmirəm başqa ölkələrdə bu məsələ necə həll olunur. Amma bildiyimə görə, Azərbaycan bu sahədə də liderlik nümunəsi göstərir. Xalq qarşısında, dövlət qarşısında xidmətlər göstərmiş, xalqın sevgisini qazanmış mədəniyyət xadimləri dövlət tərəfindən mütləq dəstəklənməlidir. Bu görüşün məqsədlərindən biri də məhz ondan ibarətdir ki, mən sizdən təkliflər eşidim və bu təkliflər nəticəsində biz düzgün qərar qəbul edək.

Televiziya kanallarında bədii şuraların yaradılması çoxdan gündəmdə olan məsələdir, ancaq əfsuslar olsun ki, öz həllini tapmır. Mən hesab edirəm ki, Azərbaycan Dövlət Televiziyası - AzTV bu sahədə birinci olmalıdır. Digər telekanallara da tövsiyə olunur ki, bədii şuralar yaradılsın. Ancaq Firəngiz xanım tamamilə haqlıdır deyəndə ki, baxır o bədii şuralarda kim təmsil olunacaq. Ona görə yəqin ki, burada yaradıcı insanların təklifləri nəzərə alınmalıdır. Mədəniyyət Nazirliyi, Prezident Administrasiyası, ittifaqlar təkliflər versinlər. Çünki televiziyalarda gedən proqramlarla bağlı müxtəlif fikirlər, müxtəlif yanaşmalar var, bəzilərinin xoşuna gəlir, bəzilərinin xoşuna gəlmir. Bir çox hallarda özəl telekanallar reklam uğrunda mübarizə aparırlar. Ona görə daha baxımlı verilişləri təqdim etməyə çalışırlar və bəzi hallarda orada səviyyə də bir qədər aşağı düşür. Biz bu məsələyə kompleks şəkildə yanaşmalıyıq. Ancaq mütləq bu sahədə vahid bir yanaşma olmalıdır.

Festivallara gəldikdə deməliyəm ki, Şəki festivalının dövlət tərəfindən dəstəklənməsi ilə bağlı hesab edirəm heç bir problem ola bilməz. Yenə də bu, elə məsələdir ki, çox asanlıqla öz həllini tapa bilər. İndi mədəniyyət naziri bunu qeyd edir və biz bunu da həll edə bilərik.

Muğam mərkəzlərinin yaradılması, - Arif müəllim qeyd etdi, - geniş vüsət alıb. Sonuncu mərkəz Ağdam şəhərində yaradılıb. Biz onun açılışını birlikdə qeyd etmişik. Ondan əvvəl digər şəhərlərdə açılıbdır. Muğam musiqələrinin çox böyük əhəmiyyəti var. Muğam bizim milli sərvətimizdir.





⇨ Davamı 10-cu səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər

⇨ Əvvəli 9-cu səhifədə

Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bizim musiqi mədəniyyətimizin xüsusi çəkisi var. Təsadüfi deyil ki, canlı yayımda göstərilən muğam müsabiqələri çox böyük auditoriya yığır. Yəni, biz də baxırıq, bilirəm ki, vətəndaşların mütləq əksəriyyəti baxır. Muğam sənətinin həm ölkə daxilində, həm də xaricdə inkişafında Heydər Əliyev Fondunun, Mehriban xanımın rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan muğamının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınması tarixi nailiyyətdir. Biz, eyni zamanda, beynəlxalq muğam müsabiqələri, festivalları keçirmişik. Bu sənət bir neçə ölkədə yaşayır, ancaq Azərbaycan muğamının UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsi kimi qəbul edilməsi əlbəttə ki, böyük nailiyyətdir.

Onu da bildirməliyəm ki, UNESCO-nun müxtəlif siyahılarına Azərbaycan xalqının 13 qeyri-maddi mədəni irs nümunəsi salınıbdır.

Zeynəb xanımın həmişə olduğu kimi parlaq çıxışını mən alqışlayıram. Zeynəb xanım xalqımızın sevimli insanıdır, böyük şəxsiyyətdir, böyük sənətkardır, böyük ictimai xadimdir. Azərbaycanda elə adam tapılmaz ki, Zeynəb xanımı sevməsin. Bizim ailəmiz Zeynəb xanımla sıx bağlıdır. Xatırlayıram ki, atamın ən ağır günlərində, - o vaxt ki, o, vəzifədən çıxmışdı, pensiyada idi, səhhətində problemlər var idi, müəyyən mənada təcrid vəziyyətində idi, - Zeynəb xanım bizim evimizə baş çəkdi, onda mən də orada idim, ona mənəvi dayaq oldu. O vaxt atam üçün bu, xüsusi əhəmiyyət daşıyırdı. Əlbəttə, Zeynəb xanım da başa düşürdü ki, o vaxt Heydər Əliyev sovet məkanında arzuolunmaz şəxs kimi qəbul olunurdu. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi də ədalətsizliyə yol vermişdi. Zeynəb xanımın bu cəsarətli və vicdanlı addımları həmişə bizim ürəyimizdədir, bizim xatirəmizdədir.





Burada teatrlarla bağlı bir neçə təklif səsləndi. Aparıcı teatrların adlarını mən çəkdim və giriş sözümdə dedim ki, ilk növbədə, teatrların təmiri ilə biz məşğul olduq - Akademik Dövlət Dram Teatrının, Rus Dram Teatrının, Musiqili Teatrın, Gənc Tamaşaçılar Teatrının, Kukla Teatrının. Ona görə, əlbəttə, mən hesab edirəm ki, burada fərq qoymaq olmaz. Teatr işçilərinin əməkhaqları ilə bağlı təkliflər hazırlansın və əməkhaqları əhəmiyyətli dərəcədə artırılsın. Biz bunu mütləq etməliyik. Əlbəttə ki, dəvətə görə, Hacı müəllim, təşəkkür edirəm. Mən məmnuniyyətlə gələrəm və sizinlə birlikdə gözəl tamaşalara baxmağa məmnun olaram.

Vergilərlə bağlı burada bir fikir səsləndi. Bu, gərək araşdırılsın və baxılsın ki, nə etmək olar. Bununla paralel olaraq, hesab edirəm ki, bizim aparıcı teatrlarımıza dövlət tərəfindən maddi dəstək də göstərilməlidir. Göstəriş veriləcək. Düşünürəm ki, özəl sektor da teatrlara sponsorluq etməlidir. Mən bu gün özəl sektora da çağırış edirəm ki, bu məsələ ilə bağlı onlar da öz dəstəyini göstərsinlər. Amma ilk olaraq dövlət bu məsələni öz üzərinə götürəcək. Görüşümüzün yekunu olaraq qəbul ediləcək qərarlarda bu, öz əksini tapmalıdır.

Musiqi alətləri ilə bağlı səslənən fikirləri də mən dəstəkləyirəm. Biz son illər ərzində musiqi alətlərinin alınması ilə bağlı bəzi işləri görmüşük, o cümlədən Fərhad müəllimin təklifləri əsasında. Ancaq, eyni zamanda, biz böyük dəyər kəsb edən, o cümlədən tanınmış ustaların əsəri olan musiqi alətlərinin alınmasına mütləq baxmalıyıq. Bu sahəyə qoyulan investisiyalar həm sərmayə kimi qalacaq, həm də bizim musiqi sənətimizin inkişafında mühüm rol oynayacaq.

Mən memarlıqla bağlı səslənən təklifləri də bəyənirəm. Hesab edirəm ki, Bakı Şəhər İcra Hakimiyyəti və Memarlar İttifaqı birlikdə Elbəy müəllimin səsləndirdiyi təklifi təhlil etsin, çünki siz tamamilə haqlısınız. Elə bil ki, Bakının mərkəzi bir neçə rayonda cəmləşir. Mən bilmirəm bu, nə üçün belə olub, tarixən belə olubdur. Burada çox böyük məntiq var. Əgər şəhərin mərkəzinin hüdudları dəqiq müəyyən olunarsa, əlbəttə ki, vahid idarəetmə sistemi də yaradıla bilər. Necə ki, misal üçün, mənim qərarımla Bulvarı, İçərişəhəri ayrı-ayrı inzibati vahid kimi yaratdıq. Məhz buna görə həm Bulvarda, həm də İçərişəhərdə indi səliqə-sahman, qayda-qanun və gözəl ab-hava var. Ona görə mən Bakının mərkəzi rayonunun yaradılması təklifini prinsipcə dəstəkləyirəm. Gərək biz bunu təhlil edək, incələyək ki, hansı addımlar atılmalıdır. Ona görə bu göstəriş də verilir.

Əlbəttə ki, biz Bakının tarixi binalarının bərpası ilə bağlı çox həssas iş aparmalıyıq. Mən həmişə demişəm ki, təmir zamanı binaların tarixi görkəmi saxlanmalıdır. Bu, əsas prinsip olmalıdır. Son illərdə şəhərimizin əsas tarixi binaları əsaslı şəkildə bərpa olunub və onların tarixi siması qorunub.

Görkəmli memarların şərəfinə abidələrin ucaldılması məsələsinə də Mədəniyyət Nazirliyi ilə birlikdə baxın və təklif verin. Aktyorların maaşları və teatrların kateqoriyalara bölünməsi məsələsini Afaq xanım səsləndirdi, mən də öz fikrimi bildirdim.

Kinofilmlərin çəkilişi ilə bağlı təkliflər səsləndi. Mən hesab edirəm ki, son bir-iki il ərzində buna kifayət qədər fikir verilməmişdir. Biz gərək bu boşluğu dolduraq. Yəni, dövlət xətti ilə, dövlət sifarişi ilə kinofilmlərin çəkilişi prosesi bərpa olunmalıdır. Düzdür, bu ilin dövlət büdcəsində bu, nəzərdə tutulmayıb. Mən bilirəm ki, Əbülfəs Qarayev çox çalışırdı ki, bu, nəzərə alınsın, ancaq hansısa səbəblər üzündən nəzərdə tutulmayıb. Ona görə bunun yolu odur ki, bu il üçün Prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılsın, indi siz təklif verin. Gələn ilin və ondan sonrakı illərin dövlət büdcəsində dövlət xətti ilə kinofilmlərin çəkilişi mütləq bərpa edilməlidir.

Kinematoqrafçılar İttifaqının binası ilə bağlı. Əbülfəs Qarayev mənə dedi ki, sizin binanız var.

Əbülfəs Qarayev: Kirayədir.

Prezident İlham Əliyev: Onda təklif olunur ki, Bakı şəhərinin mərkəzində gözəl bina seçilsin. Bakı Şəhər İcra Hakimiyyətinə, Əmlak Məsələləri Komitəsinə, Mədəniyyət Nazirliyinə göstəriş verilir. Şəfiqə xanım, siz özünüz də bu məsələ ilə bağlı təkliflər verin. Əlbəttə ki, biz bunu etməliyik. Çünki Kinematoqrafçılar İttifaqının müstəqil binası olmalıdır və şərait yaxşı olmalıdır.

Rus Dram Teatrının akademik teatra çevrilməsi məsələsində mən heç bir problem görmürəm. Bu gün tapşırıq verirəm ki, bu məsələ həll olunsun və digər teatrların da səviyyəsini qaldırmaq üçün mütləq addımlar atılmalıdır. Prinsipcə, həm maaşlar, həm də status artacaq. Mən dedim ki, teatr işçilərinin maaşlarının qaldırılması məsələsi tezliklə öz həllini tapmalıdır. Siz qeyd etdiniz ki, 11 il keçməsinə baxmayaraq, sanki bu, lap yaxınlarda olub. Yəqin ki, təmirə ehtiyac var. Əgər zərurət yaranarsa, deyərsiniz. Prinsipcə, bizim teatrlarımızda təmir işləri artıq on il bundan əvvəl görülmüşdü. Əgər təmirə ehtiyac varsa, mənə məlumat verin, biz bu məsələni həll edə bilək.

Mən Tahir İmanovun sözlərini də şərh etmək istərdim. Mən bilmirəm, mən Əbülfəs Qarayevdən soruşdum, kim qadağa qoyub sizə? Sizə heç kim qadağa qoya bilməz. Əgər qadağanı kim qoyub, de, biz bu qadağanı aradan götürək.

Tahir İmanov: Özəl telekanallar qoyub qadağanı.

Prezident İlham Əliyev: Özəl telekanallar? Hesab edirəm ki, onlar səhv ediblər. Onlara da məsləhət görürəm, tövsiyə edirəm ki, əgər doğrudan da bu qadağa varsa, tamamilə götürülməlidir. Hesab edirəm ki, bütün televiziya kanalları sizin kimi istedadlı insanlar üçün açıq olmalıdır.

Tahir İmanov: Təşəkkür edirik.

Prezident İlham Əliyev: Mən şadam ki, bu məsələni sən qaldırmısan. Çünki görünür ki, burada hansısa anlaşılmazlıq olub. Yəni, dövlət xətti ilə sizə heç bir qadağa qoyula bilməz. Mən sizi artıq 20 ildən çoxdur ki, tanıyıram. Əvvəlki illərdə yaxşı təmaslarımız olubdur. Bu gün də sizin fəaliyyətinizi izləyirəm. Gördüyünüz işlərlə bağlı mənə müntəzəm olaraq məlumat verilir. Şadam ki, siz öz fəaliyyət dairənizi genişləndirirsiniz. Siz çox istedadlı insanlarsınız və Azərbaycan xalqı sizi çox sevir.

Tahir İmanov: Çox sağ olun.

⇨ Davamı 11-ci səhifədə

# Prezident İlham Əliyev: 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər**



⇨ Əvvəli 10-cu səhifədə

Prezident İlham Əliyev: Qaldı Süleyman Ələsgərovun adının əbədiləşdirilməsi ilə bağlı məsələyə, bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş verirəm ki, Süleyman Ələsgərovun adına küçə verilsin. Siz də şəhər icra hakimiyyətinin başçısı ilə əlaqə saxlayın, küçənin seçilməsində sizin ailəniz mütləq iştirak etməlidir.

Tahir İmanov: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Mən Bəhramın təklifini də bəyənirəm. Hacı Zeynalabdin Tağıyev böyük insan, böyük xeyriyyəçi olub. Azərbaycan xalqı qarşısında çox böyük əməyi olan bir şəxsiyyətdir. Təqribən 20 il bundan əvvəl Pir Həsən ziyarətgahı mənim tapşırığımla abadlaşdırılmışdır. Hacı Zeynalabdin Tağıyevin xeyirxah fəaliyyəti bizim ailəmizdə də özünü göstərmişdir. O vaxt mənim babam Əziz Əliyev ona məktub yazaraq xahiş etmişdi ki, ona pul versin, getsin həkim peşəsinə yiyələnsin. Hacı Zeynalabdin, əlbəttə ki, onu tanımırdı, tanıya da bilməzdi. Tək o məktuba görə ona pul göndərdi. O pulla da Əziz Əliyev getdi Sankt-Peterburqda Hərbi-Tibbi Akademiyaya daxil oldu, həkim oldu, ondan sonra da onun həyatında yeni dövr başladı. Hacı Zeynalabdin Tağıyevin minlərlə, bəlkə də on minlərlə insana köməyi dəyib və mənim Prezident kimi addımlarımdan biri də o idi ki, onun evi əsaslı şəkildə təmir olunsun. Orada Tarix Muzeyi yerləşir. Amma mən o binaya məhz onun evi kimi baxırdım və biz bunu etdik. Onun şərəfinə abidənin ucaldılması düzgün qərardır. Bəhram, əgər sən də burada fəal iştirak etsən, çox yaxşı olar. Təkliflər hazırlayın. Ümumiyyətlə, mən sənin fəaliyyətini izləyirəm. Sən şəhərimizin inkişafı, tarixi mirasımızın qorunması ilə bağlı çox fədakar, çox böyük iş aparırsan. Mən izləyirəm, təqdir edirəm və sənə bu işdə yeni uğurlar arzulayıram.

Mən Tahir müəllimin həm baş rəssam vəzifəsinin təsis edilməsi, həm də Bakıda biennallenin keçirilməsi təkliflərini də dəstəkləyirəm. Mənə məlumat verildi ki, bu il bienalle keçiriləcək. Bu da çox gözəl bir təklifdir.

Xuraman xanımın da dəvətini məmnuniyyətlə qəbul edirəm. Demək olar ki, burada qaldırılan əsas məsələlərə mən öz münasibətimi bildirdim.

Əziz dostlar, bir daha demək istəyirəm ki, belə səmimi və açıq söhbət bir çox məsələlərin həlli üçün gözəl imkanlar yaradır. Mən təklif edirəm, belə görüşlər bu və ya digər formatda müntəzəm olaraq keçirilsin ki, bizim bu sahədə görəcəyimiz işlər daha düzgün aparılsın, daha sistemli xarakter alsın, bu gün bizim yaradıcı ictimaiyyətimizi narahat edən problemlərin hamısı həll olunsun. Sizə təşəkkür edirəm, yeni uğurlar arzulayıram və Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Xalq yazıçısı Anar: Cənab Prezident, bağışlayın. Mən birinci danışdığım üçün bu cəsarəti üzərimə götürüb son sözü də demək istəyirəm, hamının adından Sizə təşəkkür edirəm. Bizi çox diqqətlə dinlədiniz, təklifləri qəbul edirsiniz və operativ cavab verirsiniz. Çox sağ olun. Sizə də, Mehriban xanıma da təşəkkür edirəm.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı Marafonu-2019" başlayır

**Mayın 5-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Bakı Marafonu-2019" keçiriləcək. Layihənin məqsədi idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirməkdir.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, "Küləyə qalib gəl" şüarı altında artıq dördüncü ildir təşkil olunan Bakı marafonu Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək.

Yarışda iştirak etmək istəyən 16 yaşdan yuxarı şəxslər martın 4-dən mayın 1-dək Bakı şəhərinin ticarət mərkəzlərindəki ("28 Mall", "Gənclik Mall", "Port Baku Mall") qeydiyyat məntəqələrinə və ya "Bakı Marafonu-2019"un saytına (www.baku.marathon.az) müraciət edə bilərlər.

Qeydiyyat zamanı müvafiq anket formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr, eyni zamanda, tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunmuş vəsaiti ödəmək lazımdır.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə info@marathon.az




elektron poçt ünvanına yazaraq müraciət edə bilər. Yarımarafonda tələbələrin iştirakı ilə bağlı vəsaitlər Heydər Əliyev Fondu tərəfindən qarşılandığından, onlar qeydiyyat zamanı ödəniş etməyəcəklər.

"Bakı Marafonu-2019"un eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsi, Bakı Olimpiya Stadionu, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyaları Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyi, eləcə də AFFA və SOCAR-ın dəstəyi ilə təşkil olunacaq. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirəcək.

"Bakı Marafonu-2019"un mükafatlandırılması iki kateqoriyada olacaq. Belə ki, marafonun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 000 AZN, 2-ci yerin qalibi 2 000 AZN, 3-cü yerin qalibi isə 1 000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq.

O cümlədən bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunacaq. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə "Bakı Marafonu-2019"un xüsusi medalları ilə təltif ediləcək.

Bundan əlavə, marşrut boyunca bir sıra əyləncəli proqramlar təşkil ediləcək.

Qeyd edək ki, ötən il keçirilən sonuncu Bakı marafonunda 18 min iştirakçı qeydiyyatdan keçmişdi.

Keçən yarışlara Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb-çalışan əcnəbilər, ABŞ, Braziliya, Çex Respublikası, Fransa, Hindistan, İran, İsveçrə, İspaniya, Qazaxıstan, Malayziya, Meksika, Özbəkistan, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkmənistan, Ukrayna və digər ölkələrin Azərbaycandakı səfirliklərinin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, "BP Azərbaycan" şirkətinin, Böyük Britaniyanın Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının təmsilçiləri də qoşulmuşdu. Yarımarafonlarda ABŞ, Almaniya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Fransa, Gürcüstan, İraq, İspaniya, Keniya, Kolumbiya, Polşa, Rusiya, Türkiyə, Ukrayna, Yaponiya və digər ölkələrdən turistlər də iştirak etmişdi. Layihə region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci il sentyabrın 17-də Gəncə şəhərində də yarımarafon təşkil olunmuşdu.

"Bakı Marafonu-2019" ilə bağlı yeniliklər, yarış ərəfəsində keçiriləcək məşqlər barədə ətraflı məlumatlar layihənin rəsmi feysbuk səhifəsi - www.facebook.com/bakumarathon və www.baku.marathon.az saytında təqdim ediləcək.

Əlavə məlumat üçün telefon nömrəsi: 012 310 13 31

# AZƏRBAYCAN-GÜRCÜSTAN: uğurlu əməkdaşlıq formatı



Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında, Gürcüstanın Prezidenti Salome Zurabişvilinin ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərdə mətbuat konfransında respublikamızla bağlı səslənən sözlər bir daha təsdiqlədi ki, Azərbaycan regional güc mərkəzinə çevrilməklə beynəlxalq aləmdə nüfuzu möhkəmlənən iqtisadi, siyasi imkanları artan qüdrətli ölkədir.

Toplantıda "Cənub Qaz Dəhlizi enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir" söyləyən cənab İlham Əliyev neft-qaz kəmərlərinin reallaşmasında, nəqliyyat dəhlizlərinin çəkilməsində yaranan qarşılıqlı əməkdaşlığa əsaslanan formatların iştirakçıları olan Azərbaycan-Türkiyə-Gürcüstan həmrəyliyini yüksək dəyərləndirdi. Tərəfdaş ölkələrin iqtisadi inkişafında, enerji təhlükəsizliyinin təminatında başlıca amil olan bu layihələrin reallaşması bütünlükdə Avropa ölkələri üçün önəmli hadisə adlandırıldı.

Cənub Qaz Dəhlinin açılış mərasimində "Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən, ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur" söyləyən Prezident İlham Əliyev eyni fikirlərini dövlət başçısı kimi regionda ilk səfərini ölkəmizə planlaşdıran Gürcüstanın Prezidenti Salome Zurabişvili ilə görüşündə də vurğuladı.

Eyni regionda, mürəkkəb coğrafi ərazidə yerləşən hər iki ölkənin əsrlərə söykənən qonşuluq, dostluq əlaqələri müstəqillik illərində daha da genişlənmiş, iştirak etdikləri qlobal infrastruktur layihələrin həlli ilə dünyanın enerji xəritəsinin dəyişməsinə təsir göstərmişdir. Bu baxımdan tam əminliklə söyləmək olar ki, möhkəm iradə, təməl üzərində formalaşan münasibətlər artıq dövlətlərarası tərəfdaşlığı gücləndirən amil kimi diqqəti cəlb edir. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir, siyasi, iqtisadi münasibətlər, hər iki xalq arasında əsrlərdən bəri davam edən mehriban qonşuluq əlaqələri getdikcə möhkəmlənir.

Ötən illərdə Gürcüstanda enerji sahəsində yaranan mürəkkəb vəziyyətin aradan qaldırılmasına qardaş dəstəyini göstərən Azərbaycanın yardımını dost köməyi adlandıran gürcü xalqı bu diqqəti yüksək dəyərləndirir.

Sosial, iqtisadi əməkdaşlığın hər iki ölkəyə qazandırdığı uğurlardan qarşılıqlı bəhrələnən Azərbaycan-Gürcüstan əlaqələrinin yeni mərhələsi olan enerji və nəqliyyat layihələri tərəfdaşlığın daha mühüm istiqamət üzrə inkişafını şərtləndirdi. Hər ki dövlət başçısının bəyanatlarında qeyd olunduğu kimi, əməkdaşlığın əsas hissəsinin energetika sektoruna aid olması birgə səyin bəhrəsi, ölkələrimizin iqtisadi inkişafını yüksəldən başlıca amildir.

Xəzər, Qara və Aralıq dənizlərini neft-qaz kəmərləri ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşmasında birgə səy göstərən Azərbaycan, Gürcüstan və Türkiyə beynəlxalq ictimaiyyətə qarşılıqlı əməkdaşlıq təcrübəsini nümunə kimi göstərdilər.

XXI əsrin tarixi hadisəsi adlandırılan, əhəmiyyəti, coğrafi mahiyyəti, dünya enerji bazarına verdiyi dəyəri ilə seçilən Cənub Qaz Dəhlizinin, onun seqmenti olan TANAP-ın uğurlu icrasının təkcə bölgənin deyil, dünyanın ən böyük infrastruktur layihəsi kimi adlandırılması qarşılıqlı əməkdaşlığın tərəfdaşlara qazandırdığı nailiyyətdir.

"Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir" söyləyən cənab İlham Əliyevin vurğuladığı kimi, Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Bu layihədə Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanın birgə iştirakı ilə yaradılan geniş beynəlxalq əməkdaşlıq formatına Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun qoşulmaq istəyi ixrac imkanlarını genişləndirməklə Azərbaycanın bölgədə nüfuzunu daha da artıracaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, qonşular və Xəzər sahili ölkələrlə möhkəmlənən əməkdaşlıq daha sərfəli yolla yük daşımaların həcmini artırmaqla bir çox dövlətlərə əlavə mənfəət qazandıracaq. İqtisadi böhranın davam etdiyi bir zamanda isə bu gəlirlər ölkələrin iqtisadi inkişafını daha da sürətləndirəcək.

Qarşılıqlı görüşlərdə çoxmillətli və çoxkonfessiyalı ölkələr olan Azərbaycan və gürcü xalqları arasında əlaqələrin möhkəmlənməsini multikulturalizmin nümunəsi adlandıran hər iki Prezident bu istiqamətdə münasibətlərin daha da möhkəmlənməsini bütün sahələrin inkişafına təsir edən amil kimi dəyərləndirdilər.

Prezident Salome Zurabişvilinin Azərbaycanın şimal-qərb bölgəsinə səfəri, orada yaşayan yerli vətəndaşlarla görüşləri, aparılan söhbətlər də göstərdi ki, xalqlararası münasibətlər tolerantlıq prinsipləri əsasında möhkəmlənir, dini ayrı-seçkilik hallarına yol verilmir.

Azərbaycan-Gürcüstan münasibətlərinin əsasını təşkil edən enerji və nəqliyyat layihələrini əməkdaşlığın təməl daşı adlandıran xanım Salome Zurabişvili infrastruktur layihələrinin bütün dünya xalqları üçün önəmini vurğulamaqla bildirdi ki, Asiyanı, Çini və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun reallaşmasında iştirak edən hər üç ölkənin əməkdaşlıq formatı sabitlik nümunəsidir. O da qeyd olundu ki, enerji və nəqliyyat layihələri nəinki perspektivdir, ölkələrimiz və xalqlarımız, sabahımız üçün əhəmiyyətlidir.

"Lakin əlaqələrimiz bununla məhdudlaşmır. Biz insan əlaqələrinə, mədəniyyətə, təhsilə böyük əhəmiyyət veririk və bu sahələr inkişaf etdirilməlidir. Bu sahələrdə əlaqələr hələ tam lazımi səviyyədə deyildir. Hər iki tərəf bu məsələlərdə öz səylərini daha da fəallaşdırmalıdır" söyləyən xanım Salome Zurabişvili ümumi dəyərlərimizi Qafqaz xarakteri, regionumuzdan dünyaya mühüm mesaj adlandırdı.

**Xuraman İsmayılqızı, "İki sahil"**

## Moldova Prezidenti VII Qlobal Bakı Forumunda iştirak edəcək



Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VII Qlobal Bakı Forumunda Moldova Respublikasının Prezidenti İqor Dodon da iştirak edəcək. Bu məqsədlə o, mart ayında Bakıya gələcək. Moldova Prezidenti ötən il keçirilən VI Qlobal Bakı Forumunda da iştirak edib. O, Foruma xanımı ilə birlikdə qatılıb.

Qeyd edək ki, Moldova Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ən sıx əməkdaşlıq etdiyi ölkələrdən biridir. Ötən il Mərkəzin Nümayəndə heyətinin Moldovaya səfəri çərçivəsində Prezident İqor Dodonla mərkəzin baş katibinin görüşündə qurumun Moldovada fəaliyyətinin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər də müzakirə edilmişdi.

VII Qlobal Bakı Forumunda 70-dən çox ölkə təmsil olunacaq. Forumda dünyanı narahat edən qlobal siyasi və iqtisadi problemlər, müasir beynəlxalq münasibətlərin müxtəlif aspektləri ilə bağlı müzakirələr aparılacaq. Azərbaycan artıq 7-ci ildir ki, Foruma ev sahibliyi edir. Tədbirdə bir sıra ölkələrin hazırkı dövlət və hökumət başçılarının, nüfuzlu siyasi və ictimai xadimlərin, tanınmış media nümayəndələrinin də iştirakı gözlənilir.

## UEFA Avropa Liqasının kubokunun Bakıya gətiriləcəyi tarix açıqlanıb




Bakı Olimpiya Stadionunda keçiriləcək futbol üzrə UEFA Avropa Liqasının kubokunun Azərbaycana gətiriləcəyi tarix açıqlanıb.

Kubok mayın 16-da Bakıya gətiriləcək. Kubok səyahətinə martın 9-da Cenevrədə start veriləcək. Martın 22-23-də Sevilya, ayın 29-30-da Berlin, aprelin 5-6-da London, 12-də Milan, səkkiz gün sonra Moskva, mayın 10-da Parisdə olacaq kubok daha sonra paytaxtımıza göndəriləcək.

Səyahət çərçivəsində azarkeşlər kuboku görmək imkanı əldə edəcəklər. Həmçinin mükafat yerli həvəskar klublar və məktəblərdə də nümayiş olunacaq. Eləcə də kampaniya çərçivəsində futbolçu və azarkeşlər istifadə olunmuş idman geyimlərini UEFA-nın Fonduna bağışlamağa təşviq ediləcəklər. Bu geyimlər İordaniyadakı Zaatari qaçqın düşərgəsindəki suriyalı uşaqlara bağışlanacaq. UEFA Avropa Liqasının final oyunu mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edilib.

## *Hikmət Babaoğlu:* Prezident problemli kreditlər məsələsini həll etməklə xalqa xidmətin ən yüksək nümunəsini göstərdi



Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial məsələlərinin həlli istiqamətində qəbul etdiyi qərarlar bütün dünya üçün sosial inqilab nümunəsidir. Dövlətimizin başçısının Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı ilə vətəndaşların kredit problemi də həll olundu. Prezident İlham Əliyev problemli kreditlər məsələsini həll etməklə xalqa xidmətin ən yüksək nümunəsini göstərdi.

**"İki sahil" xəbər verir ki, bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.**

Deputat qeyd edib ki, dövlətimizin başçısının iqtisadi və sosial məsələlərlə bağlı müşavirədəki anonsundan sonra belə bir qərarın qəbul ediləcəyi gözlənilən idi. Azərbaycan cəmiyyəti bu qərarı gözləyirdi. Şübhəsiz ki, bu, mürəkkəb yanaşma tələb edən ciddi bir məsələ idi. Problemli kreditlər bir milyard dollardan çox məbləği əhatə edirdi. Onun həll olunması üçün optimal variant tapmaq lazım idi. İmzalanan Fərmandan aydın olur ki, vətəndaşlara dəyən az qala bütün zərərin ödənilməsi ilə bağlı qərar qəbul edilib. Dövlət problemin həlli ilə bağlı məsuliyyətin və maliyyə vəsaitinin böyük hissəsini öz üzərinə götürüb. İki dövr və mərhələdə alınan kreditləri əhatə edən qərar bütövlükdə problemli kreditlərin hamısının həllinə töhfə verəcək. Birinci dövr 2015-ci ilin fevralın 21-nə qədər olan müddətdə götürülən kreditlərin həlli ilə bağlıdır. İkinci dövr isə 2015-ci ilin fevralın 22-dən dekabrın 21-nə qədər olan dövrdə vətəndaşların götürdüyü kreditlərlə bağlıdır. Maksimal hədd 10 min dollar, 17 min manat səviyyəsində müəyyənləşdirilib ki, bu da əslində vətəndaşların gözləntilərindən də çoxdur. Çünki 3-5 min dolları əhatə edəcək məbləğə bağlı belə bir Fərmanın veriləcəyi gözləntisi var idi. Amma Prezident İlham Əliyevin Fərmanı ilə 10 min dollara qədər olan problemli kreditlərin həllinə dair qərar qəbul edildi. Birinci mərhələdə götürülən hər 1 dollara görə, 0,25 manat ödənişin müəyyənləşdirilməsi əslində devalvasiya nəticəsində olan artımın tamam silinməsi deməkdir. Fevralın 22-dən dekabrın 21-nə qədər götürülən hər dollar kreditə görə isə 0,6 manat ödənişin müəyyənləşməsi ilə də analoji situasiyanın şahidi oluruq. Bu, təkcə problemli kreditlərin həlli məsələsinə dövlətin verdiyi töhfə deyil, eyni zamanda, ölkənin bank sistemi və vətəndaşların kreditlərlə bağlı bundan sonrakı fəaliyyətlərinə də stimul yaradan bir qərardır. Bu prosesdən həm vətəndaş, həm də banklar qazanır. Atılan bu addımı banklarla vətəndaşlar arasında qarşılıqlı etimadın bərpa olunması kimi də qiymətləndirmək olar. Vətəndaşlarımız bir daha hiss etdilər ki, Azərbaycan dövləti və Prezidenti daim onların yanındadır. Hər hansı bir forsmajor situasiya yaranarsa, dövlət onların problemlərini həll etməyə qadirdir. Bunun üçün Azərbaycan Prezidentinin siyasi iradəsi var.

# Cənab Prezident milli mədəni inkişafın prioritetlərini müəyyənləşdirdi





**Son günlərdə imzaladığı sərəncamlar və fərmanlarla vətəndaşların sosial müdafiəsinin daha etibarlı təminatı üçün uğurlu islahatları, sakinlərlə görüşləri ilə Azərbaycanın iqtisadi qüdrətini təsdiqləyən Prezident İlham Əliyev tədbirlərin davamlı keçiriləcəyini də bəyan edir.**

Fevralın 2-də gənclərlə keçirdiyi görüşdə müstəqillik illərində Azərbaycanın qazandığı iqtisadi uğurlardan, həyata keçirilən islahatlardan ətraflı bəhs edən cənab İlham Əliyev vurğulamışdır ki, sosial problemlərin həlli daim diqqət mərkəzində olmalıdır.

Ölkəmizdə mədəniyyət və incəsənətin inkişafını daim diqqətdə saxlayan, bu sahədə çalışanların əməyini layiqincə qiymətləndirən Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bir qrup mədəniyyət və incəsənət xadimi ilə görüşü də insan amilinə diqqətin təzahürüdür.

Görüşdə son günlərdə ölkə əhalisi tərəfindən rəğbətlə qarşılanan islahatları insan amilinə diqqətin ifadəsi adlandıran cənab İlham Əliyev bildirmişdir ki, Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə ciddi dönüş yaranır.

Bu islahatların müsbət nəticələri təbii ki, mədəniyyət və incəsənət sahəsində də hiss olunur. 2019-cu ildə daha önəmli islahatların aparılacağını diqqətə çatdıran dövlət başçımız iqtisadi müstəqilliyimiz sayəsində əldə olunan nailiyyətlərdə hər bir vətəndaşın, o cümlədən mədəniyyət və incəsənət xadimlərinin də xüsusi əməyinin olduğunu bildirmişdir.

2015-ci ildən sonra dünya ölkələrində davam edən tənəzzüldən iqtisadi müstəqillik nəticəsində daha az itki ilə çıxan Azərbaycanın maliyyə imkanlarının möhkəmlənməsi sosial islahatların sürətlənməsini də şərtləndirdi.

Respublikanın hər yerində tətbiq olunan iqtisadi islahatlar sosial sahədə ciddi addımların atılması üçün möhkəm təməl formalaşdırdı.

Son günlərdə həyata keçirilən islahatların məntiqi nəticəsi budur ki, dövlət daim öz vətəndaşının yanındadır. Biri-birindən önəmli islahatlar təsdiqlədi ki, heç bir ölkədə bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını ifadə edən addım atılmamışdır. 3 milyona yaxın insanı əhatə edən sosial paketlərə daxil olan islahatlar nəticəsində əhalinin minimum əməkhaqqı və pensiyalar, təqaüdlər, müavinətlər artırılmış, güzəştlərə əlavələr olunmuşdur. Əhalinin illərdən bəri gözlədiyi problemli kreditlərin vətəndaşların xeyrinə həlli, çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqındakı sərəncamlar əhali tərəfindən xüsusi rəğbətlə qarşılanmışdır.

Görüşdə təhsil, milli mənəvi dəyərlərdən söz açan, məhkəmə-hüquq sistemində aparılan islahatlardan danışan dövlət başçımız bildirmişdir ki, mədəniyyət sahəsində həllini gözləyən işlər də sistemli şəkildə həyata keçiriləcəkdir.

"Mədəniyyət sahəsinin inkişafı ilə bağlı əvvəlki illərdə bir çox işlər görülüb. Mən Prezident kimi çalışırdım ki, həmişə bu sahəyə öz diqqətimi göstərim. Hesab edirəm ki, görülmüş işlər qiymətləndirilməlidir. Bizim əsas teatrlarımız - Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Musiqili Teatr əsaslı təmir olundu. Bölgələrdə teatrlar tikildi və əsaslı təmir edildi, yeni teatrlar yaradıldı. Muzeylərimiz, Bakı şəhərinin muzeyləri demək olar ki, tam şəkildə əsaslı təmir edildi - Tarix Muzeyi, Nizami adına Muzey, Muzey Mərkəzi. İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikildi. Müasir İncəsənət Muzeyi fəaliyyətə başladı, digər muzeylər, mən indi hamısını xatırlaya bilmərəm. Hər bir şəhərdə Tarix-Diyarşünaslıq muzeyləri fəaliyyətə başladı" söyləyən cənab İlham Əliyev bir çox mədəniyyət obyektlərinin təmir və bərpasını da xalqa xidmətin nümunəsi adlandırmışdır.

Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digər görkəmli mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsini mədəni irsimizə diqqətin ifadəsi adlandıran Prezident İlham Əliyev bundan sonra görüləcək işlərdə vətəndaş təkliflərinə diqqətlə yanaşılacağını bildirmişdir. "Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq. Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz" söyləyən cənab İlham Əliyev onu da vurğulamışdır ki, gənc nəslimiz milli ruhda tərbiyə olunmalı, mədəni irsimizi yaşatmalı, qorumalı və təbliğ etməlidir.

Görüşdə çıxış edən mədəniyyət və incəsənət xadimləri bu sahəyə göstərdiyi qayğıya görə dövlət başçısına minnətdarlıq edərək bildirmişlər ki, qarşıdakı illərdə daha məsuliyyət ilə çalışacaq, Azərbaycanın milli mənəvi dəyərlərinin qorunması üçün səylərini artıracaqlar.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## FHN-in Qarabağ Regional Mərkəzi Mülki Müdafiə Günü ilə əlaqədar tədbirlər keçirib

Martın 1-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Qarabağ Regional Mərkəzinin xidməti ərazilərində fəaliyyət göstərən məktəb və qəsəbələrdə "1 Mart - Ümumdünya Mülki Müdafiə Günü" ilə əlaqədar "Uşaqların təhlükəsizliyi - Bizim məsuliyyətimiz!" mövzusunda tədbirlər keçirilib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə Mülki Müdafiə Gününün keçirilmə tarixi haqqında danışılıb, "1 mart - Ümumdünya Mülki Müdafiə Günüdür", "Azərbaycan Respublikasının mülki müdafiə sistemi", "Uşaqların təhlükəsizliyi-bizim məsuliyyətimiz!" mövzularında məruzələr edilib.

Çıxışlarda Beynəlxalq Mülki Müdafiə Təşkilatının yaranma tarixi və fəaliyyət istiqamətləri, 1 mart - Ümumdünya Mülki Müdafiə Gününün qeyd edilməsinin məqsədi, Azərbaycan Respublikasının Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzvlüyü, habelə mülki müdafiə sahəsində təbliğat və əhalinin fəlakət riskinin qarşısının alınmasına hazırlanması haqqında ətraflı məlumat verilib.

Həmçinin maarifləndirici və təbliğat xarakterli tədbirlərin məqsədinin əhalinin yarana biləcək fövqəladə hallara hazırlanması, fövqəladə hallar zamanı davranış qaydalarına, özünə və digərlərinə ilkin tibbi yardımın göstərilməsi və mülki müdafiə sahəsində mükəmməl vərdiş və biliklərə yiyələnməsinə kömək göstərilməsi kimi məsələlərdən bəhs olunub. İştirakçılara mülki müdafiənin mühafizə vasitələrindən istifadə qaydaları, ilkin tibbi yardım, kimyəvi zəhərlənmə zonasının lokallaşdırılması, kimyəvi kəşfiyyatın təşkili ilə bağlı görülməli olan işlər haqqında ətraflı məlumat verilib. Qəza-xilasetmə və digər təxirəsalınmaz işlər zamanı tətbiq olunan texnika və avadanlıqların funksiyaları izah edilib.

Tədbirlərdə rayon icra hakimiyyətlərinin məsul işçiləri, əlaqədar rəhbər şəxslər, rayonlarda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat nümayəndələri, habelə məktəblilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

## ÖZBƏKİSTAN PORTALINDA XOCALI SOYQIRIMI İLƏ BAĞLI MƏQALƏ VERİLİB



Özbəkistanın qalampir.uz portalında Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı "Müdhiş gecə: Qarabağın qanlı tarixi" sərlövhəli məqalə yerləşdirilib.

AZƏRTAC verir ki, məqalədə o gecə Xocalıda və Ağdam istiqamətindəki çöllükdə vəhşicəsinə öldürülən, yaralanan və itkin düşənlərin sayı haqqında məlumat verilib.

Yazıda qeyd edilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xankəndində yerləşən 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə ermənilər qədim Xocalı şəhərini yerlə yeksan edib. Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir və Xatın, Xerosima, Naqasaki, Sonqmi faciələri ilə eyni sırada durur.

Bildirilib ki, BMT Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin qeyd-şərtsiz boşaldılmasının tələb edən dörd qətnamə qəbul etsə də işğalçı dövlət buna əhəmiyyət vermir və dünya birliyinə meydan oxuyur.

"Xocalı soyqırımı XX əsrin sonlarında ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayət kimi tarixə düşüb. Bu soyqırımı yalnız azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı törədilən cinayətdir. İndiyədək dünyanın 13 dövləti və ABŞ-nın 22 ştatı Xocalı soyqırımını tanıyıb və bu istiqamətdə fəaliyyət davam edir", - yazıda belə qeyd edilib.

Yazı, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə hazırlanıb.

# Məcburi köçkünlərə qayğı dövlət siyasətinin əsas tərkib hissəsidir



“Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq” söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri daim dövlətin diqqət mərkəzindədir. Keçən il 5800-dən çox köçkün ailəsinə, bununla yanaşı şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib. Cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında 2019-cu ildə görüləcək işlərə də diqqət yönəltmişdir: “Bu il daha da çox mənzil veriləcək, o cümlədən məcburi köçkünlər üçün yeni şəhərciklər tikiləcək. Yəni, bu məsələ daim diqqət mərkəzindədir. Biz hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin problemlərinin həlli üçün bu il də böyük vəsait nəzərdə tutmuşuq. Biz bu məsələləri həll edəcəyik.” Bu diqqət və qayğı fonunda ölkə Prezidenti, eyni zamanda, daim bildirir ki, bu kimi addımlar müvəqqəti xarakter daşıyır. Tezliklə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar.

Dövlətimizin xarici siyasətinin əsasında dayanan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlar göz önündədir. Rəsmi Bakı problemin həllini şərtləndirən amillərdən bəhs edərkən beynəlxalq dəstəyin önəmini xüsusi önə çəkir. Ən yüksək tribunalardan bəyan edilir ki, Azərbaycan dövlətinin münaqişənin həlli ilə bağlı mövqeyi dəyişməzdir. İşğal altında olan torpaqlarımız azad edilməli, soydaşlarımız öz doğma yurd-yuvalarına qayıtmalıdır. Cənab İlham Əliyevin Davos İqtisadi Forumu çərçivəsində “Rossiya 1” televiziya kanalına müsahibəsində “Bu gün dünyada əsas qayda ölkələr arasında münasibətlərdə, beynəlxalq ticarətdə heç bir qaydanın olmamasıdır. Bunun təhlükəsi nədədir” sualına cavabını yada salmaq istərdik. Dövlətimizin başçısı bu reallığı diqqətə çatdırmışdır ki, beynəlxalq təşkilatların qərarları yerinə yetirilməyəndə, yaxud qərəzli seçimlə yerinə yetiriləndə, BMT Təhlükəsizlik Şurasının qətnamələri də seçim əsasında, bəzi hallarda bir neçə gün ərzində yerinə yetiriləndə, bəzi hallarda isə 20 ildən çox müddətdə kağız üzərində qalanda, əlbəttə ki, bütün bunlar dünya nizamının pozulmasına gətirib çıxarır. Qaydaların olmaması, yaxud onların pozulması da əlbəttə ki, fəsadlara gətirib çıxarır, yəni etimad pozulur, ölkələr arasında qarşılıqlı fəaliyyətin səviyyəsi azalır. Bu da müəyyən münaqişələrə, bir çox ölkələr arasında müəyyən çətinliklərə, gərginliyə gətirib çıxarır. Buna görə də yaxşı, yaxud pis olmasından asılı olmayaraq, artıq hazırlanmış mexanizm mövcuddur. Bu, həm beynəlxalq münasibətlərə, həm iqtisadi, həm də sərmayə ilə bağlı olan məsələlərə aiddir. Biz, Azərbaycan o ölkəyik ki, həmişə qanunun aliliyinə, beynəlxalq hüququn normalarına əməl edilməsinə, o cümlədən aparıcı beynəlxalq təşkilatların bütün qərar və qətnamələrinin qeyd-şərtsiz yerinə yetirilməsinə çalışırıq. Odur ki, əlbəttə, bugünkü mənzərəni müşahidə etmək kədərlidir.

İşğalçı Ermənistanan himayədarlarının dəstəyinə arxalanaraq, qonşu dövlətlərə ərazi iddiaları ilə çıxış etməsi və dünyanın bu günə qədər bu işğala göz yumması problemin həlli prosesinin uzanmasına, soydaşlarımızın qaçqın və köçkün vəziyyətində yaşamasına səbəb olur. Azərbaycanın bugünkü iqtisadi uğurlarından bəhs edilərkən daim bu reallıq diqqətə çatdırılır ki, müharibə şəraitində yaşamasıdıq bu gün daha böyük iqtisadi göstəricilərlə diqqət mərkəzində olardıq. Əhalinin sosial müdafiəsinin gücləndirilməsindən bəhs edərkən daim öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın sosial problemlərinin həllinin diqqət mərkəzində olduğu xüsusi qeyd edilir. Cənab İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində “Bir dənə də olsun çadır şəhərciyi qalmayacaq” bəyan etmişdi. Son illərin statistikasına diqqət yetirmək kifayətdir. Dövlətimizin başçısı İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Prezident Sarayında şəhid ailələri ilə görüşündə də ölkə Prezidenti bu kimi məqamları xüsusi diqqətə çatdırmışdır.

“Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir”, eyni zamanda, “Torpaq, Vətən uğrunda canlarından keçən oğul və qızlarımız şəhidlik zirvəsinə ucalırlar” kimi fikirlərlə Azərbaycan xalqının Vətən sevgisini, vətənpərvərlik hissinin böyüklüyünü ifadə etmiş oluruq. Cənab İlham Əliyev qeyd olunan görüşdə bu mühüm tezisləri vurğulayaraq qeyd etmişdir ki, 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində xalqımız minlərlə şəhid vermiş, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Cənab İlham Əliyev müstəqilliyimizin ilk illərində müşahidə olunan hakimiyyətsizlik nəticəsində torpaqlarımızın bir hissəsinin işğal olunduğunu diqqətə çatdırmışdır.

Bu mühüm məqamı da xüsusi vurğulamaq lazımdır ki, münaqişədən əziyyət çəkən insanlara diqqət və qaygı dövlət siyasətinin əsas tərkib hissəsidir. Dövlətimizin başçısı bu satistikanı da açıqlayır ki, son illərdə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə tikilib. Bu kateqoriyadan olan insanlara yeni mənzillərin verildiyini və bu prosesin bu il də davam etdiriləcəyini bildirən Prezident İlham Əliyev şəhid ailələrinin də ev və avtomobillərlə təmin edildiyini diqqətə çatdırır. Keçən il Prezident seçildikdən sonra ilk Fərman şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olmuşdur. Bu sənədə əsasən 10 minə yaxın şəhid ailəsinə 11 min manat məbləğində birdəfəlik ödəmələr edilmişdir. Dövlətimizin başçısı xalqa xidmət etməyin onun üçün böyük fərəh olduğunu önə çəkərək bildirir ki, əsas məqsəd vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Ölkə Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında Sərəncamı da bu qayğının bariz nümunələrindəndir. Sənədə əsasən müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılacaq.

Sosial müdafiənin gücləndirilməsi ilə bağlı imzalanan hər bir sənəd Azərbaycanın malik olduğu iqtisadi imkanların göstəricisidir. Cənab İlham Əliyev Azərbaycanın uğurları fonunda yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz ədalətli həllini tapacağına, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdacaqlarına əminliyini ifadə etməklə, gələcək uğurlarımızın daha aydın mənzərəsini yaradır.

✍ **Yeganə Əliyeva,**
***“İki sahil”***

# Fəxrəddin Abbasov kimi nankorlar haqlı cəzalarını alacaqlar

## Bu, Azərbaycanın ərazi bütövlüyünə, onun suverenliyinə, atributlarına qarşı çıxanlara bir dərs olmalıdır



Azərbaycan dövlətinin və xalqının şərəf və ləyaqətini alçaltmağa çalışanlar, o cümlədən ölkəmizin milli atributlarına qarşı hörmətsizlik göstərən, ən başlıcası isə Azərbaycan dövlətinin unitarlığına qarşı davamlı çıxışlar edərək separatçılığı təbliğ edənlər həmişə layiqli cəzalarını alıblar.

Bunun üçün Azərbaycanın hüquq mühafizə orqanları beynəlxalq hüquqa və Azərbaycan Cinayət -Prosessual Məcəlləsinə istinad edərək ölkəmizin mill mənafelərinə qarşı çıxanları harada olmasından asılı olmayaraq ədalət mühakiməsinə cəlb etməyi bacarırlar.

Ötən gün ölkəmizin xüsusi xidmət orqanları Azərbaycan dövlətini və onun konstitusion əsaslarını açıq şəkildə təhdid edən Azərbaycan vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlunu həbs ediblər. Qeyd edək ki, Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) istintaqı aparılan cinayət işi üzrə Fəxrəddin Abbasov Azərbaycan Cinayət Məcəlləsinin 281.2 (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinir. Məhz bu əməllərinə görə onun təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb edilməsinə dair qərar qəbul edilib.

DTX-nin mətbuat xidmətinin mətbuat üçün açıqlamasında bildirilir ki, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 14 iyul 2018-ci il tarixli qərarı ilə Abbasov Fəxrəddin Fərman oğlunun barəsində həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, Fəxrəddin Abbasov Rusiya Federasiyasında müvəqqəti yaşamaq hüququ müddətinin bitməsi ilə əlaqədar Moskva vilayəti Lyuberetsk Şəhər Məhkəməsinin deportasiya haqqında qərarı icra olunarkən 28 fevral 2019-cu ildə Bakı şəhəri Beynəlxalq Hava Limanında Azərbaycan hüquq mühafizə orqanları tərəfindən saxlanılıb və istintaqa cəlb edilib.

Bu həmin nankor Fəxrəddin Abbasovdur ki, o bir neçə ildir Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlığa cəlb edilib və məhz onların vasitəsi ilə Azərbaycan dövlətinə, xalqına, həmçinin ölkəmizdəki milli azlıqlara qarşı təhqirlər səsləndirir açıq təxribat hərəkətləri ilə məşğuldur. Bir müddət Fəxrəddin Abbasov hətta Yerevanda yaşayıb. Lakin Rusiya Federasiyasında yaşadığı dövrdə də fasiləsiz olaraq Azərbaycana qarşı təbliğat aparıb və onun ərazi bütövlüyünü, bu azmış kimi, suveren dövlət olaraq mövcud olmasını belə şübhə altına alıb. Bununla yanaşı, Fəxrəddin Abbasov təkbaşına fəaliyyət göstərməyib, Azərbaycandan çıxan, separatçılıq ideyalarını təbliğ edən, Azərbaycan dövlətçiliyi əleyhinə çıxışlar edən şəxsləri təşkil etməyə və birləşdirməyə çalışıb.

Çoxsaylı tədbirlərdə onu və “məsləkdaşları”nı tez-tez tanınmamış qondarma “DQR”-in “nümayəndələri” ilə yanaşı da görmək olardı. Hətta onu o vaxt “Rusiya ermənilər ittifaqı”na da cəlb etmişdilər.

Məhz xalqımızın Xocalı faciəsini andığı ərəfələrdə onun həbs edilməsi Xocalıda soyqırımı təşkil edənlərlə könüllü və düşüncəli şəkildə əməkdaşlıq edən Fəxrəddin Abbasova bir sarsıdıcı zərbə oldu.

F.Abbasovun etiraflarına görə, o, dəfələrlə Ermənistanda olub və burada antiazərbaycan tədbirlərində iştirak edib. Sosial şəbəkələrdə yayılan kadrlarda açıq-aydın görünür ki, o, bu tədbirlərdə separatçılığa, milli və irqi ayrı-seçkiliyə dair, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünə qarşı çıxışlar edib. Məhz bütün bunlara görə, o, qanunla layiq olduğu cəzasını alacaqdır.

Burada bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan dövlətinin beynəlxalq nüfuzu, o cümlədən regiondakı gücü ona imkan verir ki, ölkəmiz və xalqımız əleyhinə çıxışlar edənlər, dövlətimizin unitarlığına, konstitusion əsaslarına qarşı çıxanları ədalət mühakiməsinə cəlb edib cəzalandırsın.

Bu, Məhz Fəxrəddin Abbasov kimilərə bir dərs olmalıdır. Bu nankor insanın cinayət məsuliyyətinə cəlb edilməsi bir daha göstərir ki, gec-tez Azərbaycanın atributlarına, onun rəhbərinə, ərazi bütövlüyünə qarşı çıxanlara, separatçılığa, milli, irqi, dini ayrı-seçkiliyə yol verənlərə qarşı xalqımız və dövlətimiz kəskin mövqe bildirəcək.

✍ **Elçin Zaman, *“İki sahil”***

# Silahlı Qüvvələrə Yardım Fonduna 98 milyon manatdan çox vəsait daxil olub



Martın 1-dək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 97 milyon 647 min 955,09 manat, 213 min 577,88 ABŞ dolları, 15 min 736 avro və 5 min rubl vəsait daxil olub.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Prezidentin 800 mindən çox vətəndaşa hədiyyəsi

Respublikamızda həyata keçirilən sosial siyasət insanların sosial xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yönəldilməklə təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, digər sosial-mədəni tədbirlərin inkişaf etdirilməsi və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədlərinə dövlət büdcəsindən hər il böyük məbləğdə vəsait ayrılır. Bu baxımdan 2019-cu ilin dövlət büdcəsinin layihəsində büdcənin sosialyönümlülüyü təmin edilib və bütün sosial proqramların icrası ilə bağlı qarşıya qoyulan vəzifələr öz həllini tapıb.



Son 15 ildə əhalinin həyat səviyyəsinin yüksəldilməsi, əməkhaqlarının və aztəminatlı ailələrə verilən müavinətlərin artırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilib, vətəndaşların pensiya təminatının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılıb. Minimum əməkhaqqının, pensiya və müavinətlərin, büdcədən maliyyələşən təşkilatlarda əməkhaqlarının artırılması, eyni zamanda, ünvanlı sosial yardım mexanizminin tətbiqi nəticəsində əhalinin adambaşına düşən orta aylıq gəlirləri davamlı olaraq artmaqdadır. Ölkəmizdə reallaşan sosial siyasət nəticəsində cəmiyyətin əmək qabiliyyətini itirmiş üzvləri üçün etibarlı sosial təminatlar sistemi yaradılıb, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi təmin olunub. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı mütərəqqi proqram hazırlanaraq həyata keçirilib.

Prezident İlham Əliyevin Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı Fərmanı bir daha göstərdi ki, əhalinin sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir. Sosial əhəmiyyəti kifayət qədər yüksək olan bu Fərman 800 mindən çox insanı əhatə edir. Məsələnin həlli üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək.

Ölkə başçısının problemli kreditlərin həlli ilə bağlı Fərmanı cəmiyyətin iqtisadi sifarişlərini özündə əks etdirir, xalqın sosial qayğılarının təmin olunmasına əhatəli şəkildə baza yaradır.

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə ölkə başçısı qeyd etmişdi ki, vətəndaşları narahat edən məsələlərdən biri kimi problemli kreditlərlə bağlı keçən ildən başlayaraq çox fəal iş aparılır, təkliflər paketi hazırlanır: "Deyə bilərəm ki, bir neçə ay ərzində aparılan çox ciddi müzakirələr artıq nəticəyə gəlməyə şərait yaradır. Ümid edirəm ki, biz bu təhlilin son mərhələsindəyik. Ümid edirəm ki, yaxın gələcəkdə bu məsələ də öz həllini tapacaq və Azərbaycan bu məsələnin həlli ilə bağlı da öz liderliyini göstərəcək və çox ciddi nümunə göstərəcək. Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Yəni burada xoş niyyətin olması əsas şərt deyil. Burada, əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir".

Əslində problemli kreditlər məsələsi özəl banklar ilə vətəndaşlar arasında olan bir məsələ olduğundan vətəndaşların özəl banklar qarşısında öhdəlikləri var idi. Ölkə başçısı məsələyə müdaxilə etdikdən sonra problemli kreditlərin həlli ilə bağlı mükəmməl bir mexanizm hazırlandı və dövlət bu öhdəlikləri də öz üzərinə götürdü ki, vətəndaşlarımızın çətinlikləri öz həllini tapsın, əhalinin rifah halı da yaxşılaşsın.

Respublikamızın sosial-iqtisadi həyatında görülən işlər iqtisadi islahatların dərinləşməsini, xalqın həyat səviyyəsinin dinamik olaraq yaxşılaşmasını bir daha sübut edir. Bu baxımdan qətiyyətlə demək olar ki, ölkə başçısının imzaladığı inqilabi Fərman cəmiyyətin iqtisadi sifarişlərini özündə əks etdirir, xalqın sosial qayğılarının təmin olunmasına əhatəli şəkildə baza yaradır. Bütün bunlara görə respublikamızın ictimaiyyəti tərəfindən ölkə başçısının bu Fərmanı böyük razılıq və fərəh hissi ilə qarşılanır.

**Zahid Rza,**
**"İki sahil"**

# Cənab Prezident növbəti dəfə göstərdi ki, dövlət xalq üçündür

**Prezident İlham Əliyevin sosialyönümlü fərman və sərəncamlarının davamlılığı birmənalı olaraq ölkə əhalisinin rifahını yüksəltməyə hesablanıb. Artıq bu Fərman və sərəncamların sosial əhəmiyyəti o qədər yüksəkdir ki, iqtisadçılar bu addımları inqilabi proses kimi dəyərləndirirlər.**

Yəni son bir ay ərzində minimum əməkhaqqının, minimum pensiyanın, tələbə təqaüdlərinin, məcburi köçkünlərin müavinətlərinin artırılması bir daha göstərdi ki, Azərbaycan dövləti öz əhalisinin sosial yükünü azaltmağa qadirdir. Xüsusilə bu sosialyönümlü addımlar Prezident İlham Əliyevin ortaya qoyduğu siyasi iradədən və ölkə vətəndaşlarına göstərdiyi diqqət və qayğıdan qaynaqlanır.



Fevralın 28-də isə Prezident İlham Əliyev "Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalamaqla bir daha sübut etdi ki, Azərbaycanda əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir. Fərman 800 min vətəndaşı narahat edən problemin onların xeyrinə tam həll olunmasına kömək edəcək. Bunun üçün dövlət büdcəsindən 700 milyon manat vəsait ayrılıb.

Fərmana əsasən fiziki şəxs kimi banka 10 min dolларadək borcu olan vətəndaşlar xarici valyuta ilə götürülmüş kredit məbləğinin devalvasiya yükündən azad ediliblər. Eləcə də vətəndaşların milli valyutada 17 min manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının geri qaytarılması istiqamətində ciddi güzəştlər paketi hazırlanıb və martın 1-dən icrasına başlanılıb.

Qeyd edək ki, ilk növbədə güzəştdən fiziki şəxs olan vətəndaşlarımız faydalanacaqlar. Bu zaman birinci devalvasiyayadək olan dövr, birinci və ikinci devalvasiya arasındakı müddət əsas götürüləcək. 2012-ci il yanvarın 1-dən 2015-ci il dekabrın 21-dək, yəni birinci devalvasiyayadək olan dövr üçün hər 1 dollara 0.25 manat güzəşt hesablanacaq. Bu o deməkdir ki, birinci devalvasiyayadək 10 min dollar kredit götürmüş vətəndaşın manatla krediti 7800 manat idisə, devalvasiyadan sonra bu rəqəm 10500 manatadək yüksəldi.

Fərmanla birinci devalvasiyayadək 10 min dollar kredit götürən vətəndaş əsas məbləğə 2500 manat güzəşt əldə edə bilər. Bununla da onun əsas borcu 10500 manatdan 8000 manatadək azaldılır. Həmçinin birinci devalvasiya və ikinci devalvasiya arasındakı dövr ərzində götürülən kreditlər üçün isə hər dollara 60 qəpik güzəşt tətbiq olunacaq ki, bu da 10 min dollara 6 min manat güzəşt deməkdir.

Burada xüsusi diqqət yetirilən məqamlardan biri də Fərmanla fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar tərəfindən bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını təmin edən tədbirlər görülməsi tövsiyə olunur.



Fərmanda birmənalı olaraq göstərilir ki, fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə kreditlər veriləcək. Bu o deməkdir ki, vətəndaşlar banklardan illik 1 faizlə manatla kredit götürməklə digər öhdəliklərini ödəyə biləcəklər. Digər önəmli məqam isə sənəddə, həmçinin dövr ərzində xarici valyuta ilə kredit borcunu artıq bağlayan vətəndaşların ödədiyi əlavə vəsaitin geri qaytarılması nəzərdə tutulmasıdır.

**Mərkəzi Bankın baş direktoru Rəşad Orucov Real televiziyasına müsahibəsində bildirib ki,** məzənnə dəyişməsi nəticəsində təsirə məruz qalan, xarici valyutada krediti olan təqribən 450 minə yaxın insan bu Fərmanın birinci hissəsindən faydalanacaq. O qeyd edib ki, Fərmanın ikinci hissəsi isə vaxtı keçmiş kreditlərə görə 400 min nəfər borc alana şamil olunacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı imzaladığı Sərəncam ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb. Ekspertlər bildirirlər ki, Azərbaycan dövləti əhalinin rifah halını yüksəltmək məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirir, iqtisadi və institusional islahatları davam etdirir. Bununla da vətəndaşların yaşayış səviyyəsi yaxşılaşdırılır, yeni iş yerləri açılır, əhalinin məşğulluğunun və gəlirlərinin artması təmin edilir, yoxsulluq səviyyəsinin daha da azalması üçün işlər görülür.

Bu bir reallıqdır ki, vaxtilə bir çox ölkələrdə bu kimi sosial təşəbbüslər irəli sürülüb. Ancaq bu, həmin ölkələrdə təşəbbüs olaraq qalıb. Ona görə ki, problemli kreditlərin həlli dövlətlərin bir çoxunun maliyyə imkanlarına təhlükə yaratdığına görə ya təxirə salınıb, ya da ki, müəyyən bir dövrə qədər dondurulub.

Təbii ki, ölkəmizin iqtisadi potensialı artdıqca, onun uğurlu nəticələrini əhalinin rifah halını yüksəltməyə yönəltmək kimi müsbət ənənə mövcuddur. Qürurla demək olar ki, bu gün Azərbaycan o dövlətlərdəndir ki, burada bütün problemlər yalnız ölkə vətəndaşının rifahının yüksəldilməsi prinsipi ilə həll edilir.

**Elçin Zaman,**
**"İki sahil"**

# “AZƏRİKİMYA” İSTEHSALAT BİRLİYİ:
# dünənin və bu günün güzgüsündə

**Azərbaycan kimya sənayesi deyiləndə, hələ də təbii olaraq, göz önündə “Azərikimya” İstehsalat Birliyi (İB) və onun müəssisələri canlanır. Bu müəssisələri həmişə diqqət mərkəzində saxlayan ulu öndər Heydər Əliyev kimya sənayesinin normal və davamlı fəaliyyəti üçün bütün imkanlardan istifadə etmiş, yeni müəssisələrin yaradılmasına, yeni qurğuların tikintisinə, sonrakı mərhələlərdə bu müəssisələrin yenidənqurma və modernizasiya işlərinə lazımi dəstəyini göstərmişdir. Görülmüş genişmiqyaslı işlərin, qısa müddətdə reallığa çevrilmiş layihə və ideyaların nəticəsi idi ki, hələ ötən əsrin 70-80-ci illərində Sumqayıt öz iqtisadi potensialına görə keçmiş Sovet İttifaqında güclü sənaye şəhəri kimi daha geniş tanınmağa başlamışdı. İstehsal edilən məhsullar SSRİ-nin və xarici ölkələrin 100-dən artıq şəhərinə ixrac olunurdu.**




### 2010-cu ildən başlanan yeni dövr

Bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində kimya sənayesi özünün yeni inkişaf dövrünü yaşayır. Ölkə rəhbərinin 2010-cu il aprelin 2-də “Azərikimya”nın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) tərkibinə verilməsi barədə imzaladığı Sərəncam neft və neft-kimya sahələrinin vahid bir struktur daxilində daha səmərəli fəaliyyət göstərməsi və yüksək nailiyyətlər qazanmaları üçün yeni perspektivlər açdı. “Azərikimya” İB-nin istehsalat sahələrində canlanma yarandı. Aparılan araşdırmalardan və təhlillərdən sonra ekoloji cəhətdən zərərli, mənəvi və fiziki cəhətdən



aşınmaya məruz qalmış, müasir standartlara cavab verməyən, iqtisadi baxımdan səmərəsiz zavodlar ləğv edildi. Torpaqlar tullantılardan təmizləndi, yararlı hala salınaraq İqtisadiyyat Nazirliyinə təhvil verildi və bu ərazilərdə möhtərəm Prezidentimiz İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradıldı.

### SOCAR-ın tərkibində

SOCAR-ın tərkibində olan dövrdə “Azərikimya” İB-də səmərəli işləyə bilən istehsalat sahələri yenidən quruldu, bir sıra yeni qurğu və komplekslər tikilərək istifadəyə verildi. Bunlara misal olaraq Etilen-polietilen zavodunda Azot-oksigen kompleksinin və Susoyutma qurğusunun tikilib istifadəyə verilməsini, istehsalata və keyfiyyətə nəzarət, həmçinin sənaye-sanitar sahələrini özündə birləşdirən yeni laboratoriyanın əsaslı təmir və yenidənqurma işlərindən sonra istismara verilməsini, Mütləqləşdirilmiş izopropil spirti sahəsinin yenidən qurulmasını, möhtərəm Prezidentimiz İlham Əliyevin də açılış mərasimində iştirak etdiyi propan-propilen fraksiyasının kükürdlü birləşmələrdən təmizlənməsi və butan-butilen fraksiyasının hidrogenləşməsi qurğularının istifadəyə verilməsini göstərmək olar. Diqqətçəkən layihələrdən biri də gündəlik gücü 2600 m3 olan yeni istehsalat tullantı sularının təmizlənməsi qurğusunun istismara verilməsidir. Bu da o deməkdir ki, ətraf mühitin qorunması məsələsi SOCAR-ın ekoloji siyasətinin əsas tərkib hissəsini təşkil etməklə, sənaye zonasında insan əməyinin təhlükəsizliyi qaydalarının müasir standartlar səviyyəsində mühafizə olunmasına böyük önəm verilir. Nəticə etibarilə ötən müddətdə bu istiqamətlərdə ciddi irəliləyişə nail olunmuş, ilk dəfə etilen istehsalatının layihə gücü səviyyəsində işləməsi təmin edilmiş, məhsulların çıxım səviyyəsi və keyfiyyəti yüksəldilmiş, xammalların səmərəli emalı təmin edilmiş, balans itkiləri minimuma endirilmiş, beləliklə, məhsulun maya dəyəri aşağı salınaraq rentabellik artırılmışdır. Bu layihələrin həyata keçirilməsində ən önəmli faktorlardan biri də yuxarıda sadalanan qurğuların bir çoxunun “Azərikimya” İB-nin mühəndis-texniki heyəti tərəfindən layihələndirilməsi və Birliyin Təmir-Tikinti İdarəsi tərəfindən tikilməsidir.

### Bu günün güzgüsündə

Hazırda “Azərikimya” İB-də yeni layihələrin icrası davam etdirilir. 2020-ci ilin ortalarına qədərki hədəf bir sıra yeni qurğuların tikilməsi ilə “EP-300” qurğusunda istehsalatının effektliyinin artırılması və ömrünün daha 35 il müddətinə uzadılmasıdır. Bununla da SOCAR-Polymer layihəsi çərçivəsində inşa olunan polipropilen və yüksək sıxlıqlı polietilen zavodları tələb olunan keyfiyyətdə və miqdarda xammalla təmin ediləcəkdir. Qeyd edək ki, SOCAR qeyri-neft sektorunun inkişafı istiqamətində son illərdə əməliyyatların dayanıqlığını təmin etmək və bir əmtəə növündən asılılığını azaltmaq məqsədilə neft-kimya və qaz-kimya sektorunun genişləndirilməsi xəttini götürüb. Bu sahədə həyata keçirilən “SOCAR Polymer” layihəsi ölkəmizdə ilk dəfə layihə maliyyələşdirilməsi çərçivəsində həyata keçirilmişdir. Kompleksin tərkibinə ildə 120 000 ton yüksək sıxlıqlı polietilen və 184 000 ton polipropilen istehsal edəcək iki zavod daxildir ki, bu zavodların da xammal təminatçısı “Azərikimya” İstehsalat Birliyidir. Qeyd edək ki, “Azərikimya” İB-nin Etilen-polietilen zavodunun “EP-300” qurğusunda modernizasiya və yenidənqurma layihələrinin icrasının əsas qolunu da məhz “SOCAR Polymer” MMC-nin Polipropilen (PP) və Yüksək sıxlıqlı polietilen (HDPE) qurğularının polimer markalı etilen, propilen və hidrogen xammalı ilə təmin edilməsi təşkil edir. Qeyd edilən məhsulların əsas xammal mənbəyi isə Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan geniş miqyaslı rekonstruksiya işlərindən sonra prosesdə alınan yan qaz məhsulları (quru qaz, propan-propilen fraksiyası (PPF) və doymuş C4 fraksiyası) olacaqdır. Burada xüsusilə vurğulamaq lazımdır ki, SOCAR-ın emal zavodları vahid iqtisadi dəyər zəncirində birbiri ilə sıx bağlıdır. Heydər Əliyev adına Neft Emalı zavodu, “Azərikimya” İstehsalat Birliyinin Etilen-polietilen zavodu və “SOCAR Polymer” layihəsinə daxil olan zavodların bu istehsal prosesində inteqrasiyası nəzərdə tutulmuşdur. Bu layihə çərçivəsində istismara verilən zavodlar SOCAR-ın planlı və mərhələli şəkildə ərsəyə gətirdiyi böyük dəyər zəncirinin hissələridir. Məhz SOCAR-ın





dəyər zənciri çərçivəsində müəssisələrin bir-birinə xammal təchizatçısı kimi bağlanması sayəsində onların yüksək əməliyyat effektivliyi təmin olunur.

### Kimya sənayesinin sabahına hesablanmış layihələr

“Azərikimya” İB-nin Etilen-polietilen zavodunda həyata keçirilən layihələr aşağıdakı işlərin görülməsini hədəfləyir: “EP-300” qurğusunun propilen istehsalı üzrə gücünün 135 min ton/ildən 187 min ton/ilə-dək artırılması, texnoloji avadanlıqların və texnoloji prosesin idarə edilməsi sisteminin yenilənməsi, qurğunun istehsal səmərəliliyinin və təhlükəsiz istismar etibarlılığının artırılması məqsədilə yeni qurğuların və istehsal obyektlərinin tikintisi. Bura Quru qazın təmizlənməsi qurğusu, PPF-nin təmizlənməsi qurğusu, Etilen və propilen anbarı, Hidrogenin zənginləşdirilməsi qurğusu, Hidrogenin istehsalı qurğusu (elktroliz qurğusu) və Yeni tipli 4 ədəd piroliz sobasının quraşdırılması daxildir. Həmçinin “EP-300” qurğusunda mövcud istehsal bölmələrinin, avadanlıqların modernizasiyası, yenilənməsi və dəyişdirilməsi; texnoloji prosesin mövcud köhnə sistemdən tam olaraq AİS-ə keçilməsi; mövcud elektrik təchizatı sisteminin və köməkçi qurğuların təkmilləşdirilməsi nəzərdə tutulur.

2020-ci ilin ortalarına qədər davam edəcək layihəyə İtaliyanın “Technip” şirkətinin Niderland və Fransa ofisləri mühəndislik, satınalma və tikinti işlərinin aparılması üzrə (EPC), SOCAR-KBR isə rekonstruksiya layihəsində məsləhətçi (PMC) qismində cəlb olunmuşdur. Qeyd edək ki, bu məqsədlə hələ 5 noyabr 2016-cı il Etilen-polietilen zavodunun yenidən qurulması layihəsi çərçivəsində “Azərikimya” və “TECHNİP İTALY S.p.A.” şirkəti, eləcə də “SOCAR-KBR” Birgə Müəssisəsi arasında imzalanma mərasimi keçirilmiş, bundan sonra müvafiq işlərə start verilmişdir.

Layihənin əsas qrafikinə uyğun aktiv tikinti işləri 2017-ci ildə başlanılmış və layihənin tam olaraq yekunlaşdırılması 2020-ci ilin birinci rübünə planlaşdırılmışdır. Layihə çərçivəsində aparılan tikinti və montaj işlərinin pik dövründə hər il Sumqayıt şəhərindən və ətraf regionlardan 1800-2000 nəfər yerli işçilər işə cəlb olunur. Ümumilikdə bu günə layihələndirmə işlərinin 98,5%-i, satınalma işlərinin 91,5%-i, tikinti işlərinin isə 35%-i tamamlanmışdır.

“Azərikimya” İB-də aparılan digər iri layihə Etilen-polietilen zavodunda Buxar Generator Kompleksinin (BGK) enerji effektivliyinin artırılması və əlavə enerji istehsal edilməsi məqsədi daşıyan yeni Buxar Turbogenerator qurğusunun tikintisidir. Bunun üçün 2016-cı ildə SOCAR ilə Almaniyanın “UNİPER” (EON) şirkətləri arasında saziş imzalanaraq, “SOCAR-UNİPER” Birgə müəssisəsi yaradılmışdır.

Layihənin məqsədi Etilen-polietilen zavodunun Buxar Generator Kompleksinin (BGK) mövcud 32 Mvt.s layihə gücünün 65 Mvt.s layihə gücünə çatdırılmasıdır. Bunun üçün əlavə turbogenerator quraşdırılaraq mövcud texnoloji sistem təkmilləşdiriləcəkdir.

İşlərin 2019-cu ilin sonuna yekunlaşması nəzərdə tutulmuşdur. Qeyd edək ki, artıq layihə işləri 85%, əsas avadanlıqların sifarişi və hazırlanması 100%, tikinti işləri isə 10% həcmində görülmüşdür. Layihə başa çatdıqdan sonra yeni BGK 65 mvt.s gücündə çalışacaqdır. Bu qurğu “Azərikimya” İB-nin Sumqayıt Elektrik Şəbəkəsindən aldığı elektrik enerjisinə olan tələbatını tam ödəyəcək, qurğunun istehsal edəcəyi izafi 35 mvt.s elektrik enerjisi şəbəkə vasitəsilə SOCAR-ın digər müəssisələrinə, eləcə də Sumqayıt şəhərinin digər elektrik enerjisi tələbatçılarına ötürülməsi imkanını yaradacaqdır.

### SOCAR-ın dəyər zəncirinin ayrılmaz hissəsi

Bu gün ötən 9 ilə və hazırda görülən işlərə nəzər salınarkən gəlinən nəticə odur ki, ölkə başçısının strateji kursunu rəhbər tutaraq, SOCAR ötən dövr ərzində öz əməliyyatlarını və əmtəə növlərini önəmli dərəcədə şaxələndirmiş və bu məqsədlə “Azərikimya”nın texniki bazasının gücləndirilməsinə və dayanıqlı istehsalatın təşkil olunmasına sərmayələr qoymuşdur. Məhsul istehsalının artımına, xammal və yan məhsulların itkisinin qarşısının alınmasına yönəldilmiş yenidənqurma, əsaslı təmir və modernləşmə işləri, bu işlərin ən ciddi reqlamentlər əsasında aparılması, kimyaçıların əməyinin layiqincə qiymətləndirilərək əməkhaqlarının artırılması, iş və məişət şəraitinin yaxşılaşdırılması, tibbi sığorta ilə təminat bir canlanmaya və yüksəlişə səbəb olmusdur. Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi tərəfindən Sumqayıtda Təlim-Tədris Mərkəzinin yaradılması sayəsində yüzlərlə ixtisaslı gəncin “Azərikimya”nın müəssisələrində işlə təmin olunaraq kimyaçılar ailəsinin bərabərhüquqlu üzvü kimi uğurla çalışması və s. tədbirlər “Azərikimya” İB-də həm istehsalat, həm insan amili, həm də gəncləşmə siyasəti baxımından yeni bir mərhələnin başlanmasından xəbər verir. Bu həm də o deməkdir ki, Sumqayıt həm gözəl, həm ekoloji cəhətdən təmiz şəhər kimi, həm də regionun nəhəng sənaye mərkəzi kimi bir daha özünü təsdiqləməkdədir.

**Rafiq Oday,**
Əməkdar jurnalist

# İqtisadi cəhətdən effektiv və strateji Fərman

*Xəbər verildiyi kimi, fevralın 28-də dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Fərmana əsasən, kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla), habelə Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun ləğvedici kimi təyin edildiyi banklarla fiziki şəxslər arasında bağlanmış müqaviləyə əsasən, fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 ABŞ dollarına qədər olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək. Bu Fərmanın imzalanması ölkə rəhbərinin növbəti dəfə əhalinin sosial probleminə həssas yanaşmaqla, hər bir azərbaycanlının Prezidenti olduğunu əməli ilə yenidən nümayiş etdirib. Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı Fərmanı 800 min nəfəri əhatə edəcək.*



**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili Fərmanı şərh edərkən bildirdi ki,** ölkəmizin sosial-iqtisadi sahəsində aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 2017-ci ildə sabitləşib, 2018-ci ildə isə dinamik artım mərhələsinə qədəm qoyub: "Bunun da ən mühüm göstəriciləri 2019-cu ilin yanvar ayında özünü göstərdi. Yəni ümumi daxili məhsulun artması, qeyri-neft sənayesinin rekord həddə, yəni 14 faiz artması, bütün makroiqtisadi göstəricilərin sürətlə artması onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə yeni gəlir mənbələri əldə edir. Əldə olunan yeni gəlirlər dövlət büdcəsinin gəlirlərini də artırır. Belə ki, yanvar ayında dövlət büdcəsinin gəlirləri 50 faizə yaxın atıb. Dövlət büdcəsində yaranan yeni gəlirlərin böyük bir hissəsinin ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsi bir daha sübut edir ki, Azərbaycan Prezidenti hər zaman vətəndaşların yanındadır və onların sosial qayğılarına qalmaq üçün iqtisadiyyatın bütün imkanlarından istifadə edir."

T.Mirkişili xatırlatdı ki, 2015-ci ildə baş verən iki devalvasiya nəticəsində əhalinin bəlli bir təbəqəsi xarici valyutalarla götürdükləri kreditlərin ödənilməsi ilə bağlı çətinliklərlə üzləşmişdilər: "Ötən dövr ərzində problemli kreditlər məsələsi Milli Məclisdə dəfələrlə müzakirə olunmuşdu. Bu məsələnin həlli ilə bağlı müxtəlif təkliflər də olmuşdu. Problemli kreditlər kifayət qədər mürəkkəb məsələdir. Problemli kreditlər məsələsi iqtisadiyyatda hər zaman mövcud olub. Dünya iqtisadiyyatında problemli kreditlər ümumi kreditlərin 5 faizini təşkil edir. Devalvasiyaya qədər də Azərbaycanda problemli kreditlərin həcmi ümumi kredit portfelinin 5 faizə qədərini təşkil edirdi."

Milli Məclisin deputatı qeyd etdi ki, son zamanlar əhalinin problemli kreditlərinin ödənilməsində çətinlik yaranması, son nəticədə gecikmiş kreditlərin ümumi kredit portfelində həcminin 12 faizə qədər gəlib çatmasına səbəb oldu ki, bu, bir tərəfdən vətəndaşlar üçün, digər tərəfdən bank sektoru üçün də müəyyən dərəcədə çətinliklər yaratmışdı: "Cənab Prezidentin son müşavirədə də diqqət yetirdiyi məsələlərdən biri də vətəndaşları narahat edən problemli kreditlərlə bağlı idi. Bununla bağlı dövlətimizin başçısı Fərman imzaladı. Bu Fərman əhatəlilik baxımından və həcm baxımından unikal və tarixi bir sənəddir. Çətin problemin həll olunması üçün əhatəli, iqtisadi cəhətdən effektiv və strateji bir sənəddir. Fərmana əsasən, iki kateqoriyadan olan vətəndaşların problemlərinin həlli nəzərdə tutulur. Birinci kateqoriya 10 min dollara qədər krediti olan vətəndaşlara konpensasiyanın ödənilməsi ilə bağlı mexanizm nəzərdə tutulur. Qeyd edim ki, Azərbaycanda birinci devalvasiyaya, yəni 21 fevral 2015-ci ilədək 10 min dollara qədər krediti olan vətəndaşlar bütövlükdə xarici valyuta ilə krediti olanların ümumi sayının 92 faizini təşkil edirdi. Bu, kifayət qədər böyük rəqəmdir. Demək olar ki, Fərmanın bu qədər vətəndaşı, bütövlükdə 450 minə yaxın insanı əhatə etməsi və devalvasiya nəticəsində manatın dollara məzənnəsinin artması fərqinin geri ödənilməsi kimi mexanizmin olması çox mühüm hadisədir. Fərmana görə, iki mühüm hesablama nöqtəsi var. Biri 21 fevral, digəri 21 dekabrdır. Çünki məhz 2015-ci ilin həmin tarixlərində devalvasiyalar olmuşdu. Əgər 21 fevrala qədər vətəndaşın 10 minə qədər dollar kredit borcu varsa bu zaman vətəndaşa hər bir dollara görə 0.25 manat, əgər bu borcun bir hissəsi və ya tamamı 21 dekabrdan sonraya qalıbsa onda əlavə olaraq hər bir dollara görə 0.60 manat ödənilir. Bütövlükdə bu ödənmənin sadə dildə desək, məğzi ondan ibarətdir ki, vətəndaş götürdüyü krediti hansı kursla götürübsə həmin kursla da ödəyəcək. Bu kompensasiya dövlətin vətəndaşa göstərdiyi böyük bir dəstəkdir.

Fərmanın ikinci hissəsi 2012-ci il yanvarın 1-dən bu günə qədər 17 min Azərbaycan manatı həcmində götürdükləri krediti, və ya 10 min dollar ekvivalenti həcmində götürdükləri krediti ödəyə bilmədikləri üçün vaxtı keçmiş kredit borclarına görə yaranan problemlə bağlıdır. Bu günə qədər 17 000 manata qədər vaxtı keçmiş kredit borcu olan vətəndaşlar milli valyuta vaxtı keçmiş kredit borcları olan vətəndaşların ümumi sayının 99%-ni təşkil edir. Bu günə qədər 10 000 dollara qədər vaxtı keçmiş kredit borcu olan vətəndaşlar dollarda vaxtı keçmiş kredit borcları olan vətəndaşların ümumi sayının 95%-ni təşkil edir. Bu da kifayət qədər böyük sayda vətəndaşların bu Fərmandan yararlanması deməkdir. Vaxtı keçmiş kredit borcu olan vətəndaşlar üçün yeni mexanizmlər tətbiq olunacaq. Bu mexanizmin məğzi ondan ibarətdir ki, indiyə qədər vaxtı keçmiş kredit borcuna əlavə olunan dəbbə pulu və cərimələr hamısı silinir, kreditin əsas borc məbləğinin qalan hissəsini ödəmək üçün bu gündən sonra 5 il müddətində vətəndaşa yeni 1 faiz ödəməklə kredit veriləcək ki, bu da kifayət qədər böyük güzəştdir. Bu məqsədlə banklara Mərkəzi Bank tərəfindən 682 milyon manat vəsait ödəniləcək ki, bu da vətəndaşlara veriləcək yeni güzəştli kreditlərin maliyyələşdirilməsinə yönələcək. Eyni zamanda, məhkəmələrdə təxminən banklar tərəfindən 311 minə yaxın vətəndaşa iddialar qaldırılıb. Bu iddiaların geri çəkilməsi və icrada olan proseslərin dayandırılması ilə bağlı banklara tövsiyələr var. Düşünürəm ki, bu tövsiyələr də böyük bir sayda vətəndaşları məhkəmə yükündən və digər proseslərdən azad olmasına şərait yaradacaq. Bütövlükdə Fərman sosial və iqtisadi cəhətdən kifayət qədər əhəmiyyətlidir və böyük bir tarixi hadisədir. Fərmanın icrası nəticəsində ümumilikdə 830 minə yaxın insanın problemli kredit məsələsi həll olunacaq, bu qədər vətəndaş bu yükdən azad olacaq, eyni zamanda, bank sektoru bu vəsaitləri əldə etməklə yeni mexanizmlərlə kredit vermələrinə və ən əsası iqtisadiyyatın inkişafına səbəb olacaqdır."



**Sumqayıt Dövlət Universitetinin Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent Loğman Abdullayev də mövzu ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirib ki,** Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il tarixli Fərmanı bu sahədə problemin həllinə yönəldilmiş mühüm addımdır: "Fərmana əsasən, fiziki şəxslərin 10 min ABŞ dollarınadək olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsi hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək. Əhalinin mövcud kreditlərlə bağlı üzləşdikləri problemin həllində cənab Prezidentin imzaladığı Fərman onların sosial həyat şəraitində mühüm üstünlüklər yaratmış olacaq. Eyni zamanda, Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında banklara 682 milyon manat məbləğində dövlət zəmanətinin təmin edilməsi üçün güzəştli kredit veriləcək. Yəni, manatla qalan məbləğin ödənilməsi üçün banklar vətəndaşlara 5 il müddətinə illik 1 faiz olan kreditlər təklif edəcək. Devalvasiya nəticəsində yaranan fərq dövlət tərəfindən praktiki olaraq qarşılanır, qalan hissəni isə vətəndaş 5 illik 1 faizlik kreditlə ödəyəcək. Yəni problemli kreditlərin həlli ilə əhalinin maraqlarının təmin olunması ilə bu müstəvidə həm də banklar qazanacaq. Çünki problemli kreditlərin həlli ilə daha çox banklara yardım olunması gözlənilir. Tam olaraq Fərmanın icrası bütövlükdə dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir. Problemin həlli iqtisadiyyatın canlanmasına, əhalinin kreditlərə yönəlməsinin asanlaşmasına, iqtisadiyyata kreditlər vasitəsilə daha çox vəsaitlərin daxil olmasına gətirib çıxaracaq."

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Mətbuat Şurasının komissiyalarının birgə iclası




Dünən Azərbaycan Mətbuat Şurasının "Reket jurnalistika"ya qarşı mübarizə və Apellyasiya Komissiyalarının birgə iclası keçirilib.

İclasda Şuranın Şikayətlər üzrə Komissiyasının "Təzadlar" qəzeti ilə bağlı "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasına ünvanladığı təqdimat ətrafında müzakirə aparılıb. Müzakirə zamanı bildirilib ki, "Təzadlar"ın fəaliyyətində "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın prinsiplərinin pozulması halları davamlı hal almaqdadır. Qəzetin adı vaxtilə Şuranın "qara siyahı"sında yer alıb. MŞ-nin "Reket nəşrlər"in müəyyənləşdirilməsinə dair Təlimatında göstərilir ki, adı "qara siyahı"dan çıxarılmış kütləvi informasiya vasitəsi bundan nəticə çıxarmadığı halda onun adı yenidən həmin siyahıya qaytarıla bilər. Sözügedən nəşr barədə Azərbaycan Mətbuat Şurasına son bir il ərzində intensiv müraciətlər daxil olub, həmçinin qəzet Şuranın Şikayətlər üzrə Komissiyasının tövsiyələrinə əhəmiyyətsiz yanaşıb. Buna görə də təklif edilib ki, "Təzadlar" qəzetinin adı yenidən Şuranın "qara siyahı"sına daxil edilsin.

Apellyasiya Komissiyası tərəfindən "Ailə", "Avrotayms", "Bakı press", "Güzgü", "Dünya kriminal" və "Obyektiv fikir" qəzetlərinin adlarının Şuranın "qara siyahı"sından çıxarılması təklif olunub. Nəzərə alınıb ki, sözügedən nəşrlər barədə uzun müddətdir, Şuraya şikayətlər daxil olmur, bəziləri artıq fəaliyyətini dayandırıb. Bununla bağlı qərar yekdilliklə qəbul edilib.

*Deputat:*

## Prezident İlham Əliyevin problemli kreditlərin həlli ilə bağlı Fərmanı inqilabi addımdır



Prezident İlham Əliyevin Azərbaycanda fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı Fərmanı bir daha göstərdi ki, əhalinin sosial müdafiəsini və və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir. **Bunu Trend-ə Milli Məclisin deputatı İlham Məmmədov deyib.**

Deputat bildirib ki, Prezident İlham Əliyev tərəfindən ardıcıl imzalanan fərman və sərəncamlar sosial həyatın bütün sahələrini əhatə edir: "Bu fərman isə inqilabi bir addımdır. Dünyanın heç bir yerində bu fərmanın analoqu yoxdur. Bu məsələ özəl banklar və vətəndaşlar arasında olan bir məsələ idi. Vətəndaşların özəl banklar qarşısında öhdəlikləri var idi, lakin dövlət bu öhdəlikləri də öz üzərinə götürdü ki, insanlarımız daha yaxşı yaşasın, bu problemlə qalmasın, öz ailəsinin yaxşı yaşamasına, dövlətinin inkişaf etməsinə xidmət etsin".

İ.Məmmədov vurğulayıb ki, problemli kreditlərin həlli ilə bağlı çox gözəl mexanizm işlənib hazırlanıb: "Bu fərman böyük bir kütləni əhatə edəcək. Bu, möhtərəm Prezidentimiz tərəfindən xalqa böyük bir hədiyyədir. İnsanlarımız bu fərmanı böyük sevinclə qarşıladı. Bu, dünyada bir nümunə ola biləcək bir addımdır".

Deputatın sözlərinə görə, Azərbaycanda bütün məsələlər - problemin ciddiliyi, ağırlıq yükü, onun həllinin büdcəyə, əhalinin rifah halının yüksəlməsinə təsiri, həll üçün maliyyə imkanları, səmərəli tətbiq mexanizminin işlənib hazırlanması, icrası və icraya nəzarət və s. - hərtərəfli araşdırıldıqdan sonra müvafiq qərar qəbul olunur: "Birmənalı demək olar ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır. Azərbaycan bütün bunlarla əhalinin sosial məsələlərinin həllində bütün dünyaya öz liderliyini nümayiş etdirdi".

## Atəşkəs 26 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 26 dəfə pozub. Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Xalqımız Prezident İlham Əliyevin apardığı siyasəti dəstəkləyir

## Milli Məclisin deputatı Nəsib Məhəmməliyevin www.yap.org.az saytına müsahibəsi

***-Nəsib müəllim, ölkəmizin keçdiyi uğurlu inkişaf yolu haqqında nə deyə bilərsiniz?***

- Həqiqətən də Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələr sırasındadır. Bu, artıq dünya birliyi, beynəlxalq maliyyə institutları tərəfindən təsdiq olunmuş faktdır. Bu inkişafın kökündə ulu öndər Heydər Əliyevin hərtərəfli düşünülmüş və əsasını qoyduğu dövlətçilik strategiyası dayanır. Ümummilli Liderin 1990-cı illərdə müəyyənləşdirdiyi bütün strateji hədəflər, cənab Prezidentin zamana uyğun olaraq atdığı taktiki addımlar nəticəsində bir çox ölkələrin yüzilliklər ərzində keçdiyi inkişaf yolunu Azərbaycan qısa bir zaman kəsiyində nail oldu. Gəlin faktlara müraciət edək.

İlk növbədə qeyd etmək yerinə düşər ki, həyata keçirilən BTC, Bakı-Ərzurum, Bakı-Supsa, TAP, TANAP kimi neft-qaz kəmərləri, Şərqlə Qərbi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, tarixi İpək Yolunun bərpası, Ələt ticarət və hava limanlarının tikintisi, Şimal-Cənub dəmir yolunun birləşdirilməsi təbii olaraq Azərbaycan iqtisadiyyatının əsasını təşkil etməklə yanaşı, ölkəmizi beynəlxalq nəqliyyat qovşağına çevirmişdir.

Son 15 ildə ÜMD 3,3 dəfə artmışdır, ölkəyə 250 milyard dollar sərmayə qoyulmuşdur, valyuta ehtiyatları artaraq 45 milyard dollara çatmışdır, sənaye istehsalı 2,6 dəfə, maaşlar 7 dəfə, pensiyalar 9 dəfə artmışdır. 2 milyon yeni iş yeri yaradılmışdır. Azərbaycan bir çox ölkələrə, ələlxüsus da qardaş Türkiyəyə sərmayələr qoymuşdur. Bu da gələcəkdə Azərbaycana iqtisadi dividentlər gətirəcəkdir.

Hər bir azərbaycanlının qürur hissinə çevrilmiş, dünyanın ən güclü orduları siyahısına düşmüş ordumuz formalaşmışdır. Ordumuzun saxlanılmasına, texniki təchizatına, yeni silahların alınmasına ayrılan vəsait bütövlükdə düşmən ölkənin dövlət büdcəsindən çoxdur. Bu da təbii olaraq zərurətdən doğur.

Son illər Azərbaycanda, paytaxt Bakıda elə bir gün yoxdur ki, beynəlxalq tədbirlər, simpoziumlar, forumlar, idman yarışları keçirilməsin.

2011-ci ildən üzvü olduğumuz Qoşulmama Hərəkatına 2019-2022-ci illərdə ölkəmiz sədrlik edəcəkdir. Bu təşkilat özündə 120 dövləti birləşdirərək BMT-dən sonra dünyanın ən böyük təşkilatı hesab olunur. İƏT, AŞ, Aİ-Şərq Tərəfdaşlığı proqramında MDB, GUAM və digər təşkilatlarla aparılan fəal siyasət Azərbaycanı nəinki regionda, eyni zamanda, bütün dünyada etibarlı tərəfdaş kimi tanıtmışdır.

Bütövlükdə cəmiyyətimizin elə bir sahəsi yoxdur ki, orada güclü inkişaf olmasın. Bütün bunların kökündə yalnız bir amil durur: Ölkə Prezidenti cənab İlham Əliyevin yaratdığı sabitlik və Onun apardığı hərtərəfli düşünülmüş dövlətçilik siyasəti.

***-Dövlət başçısı tərəfindən əhalinin sosial rifahının daha da yüksəldilməsi istiqamətində önəmli qərarlar qəbul edilir. Bütün bunların əhəmiyyəti nədən ibarətdir?***

-Mən artıq qeyd etdim ki, ölkəmizdə bütün sahələr üzrə islahatlar aparılır. Bu islahatlar daima aparılır və aparılacaqdır. Ötən il aprel ayında keçirilən prezident seçkilərindən sonra islahatlar daha da intensiv xarakter almışdır. Dövlət başçısı islahatların hansı istiqamətdə aparılacağı barədə sistemli şəkildə keçirdiyi Nazirlər Kabinetinin geniş iclaslarında bəyan edir və onların icrasına nail olur. Özünün də dəfələrlə qeyd etdiyi kimi, islahatlar islahat xatirinə deyil, ancaq və ancaq Azərbaycan vətəndaşının rifah halının yaxşılaşmasına xidmət etməlidir. Buna görə də cənab Prezidentin apardığı sosial siyasətin kökündə insan amili durur.



Cənab İlham Əliyev 2003-cü ildə Prezident seçiləndə ilk növbədə sosial siyasət proqramını elan etdi. O zamanlar mövcud olmuş çadır düşərgələrinin ləğvi, qaçqınların və məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılması, yeni məktəblərin, səhiyyə ocaqlarının, mədəniyyət müəssisələrinin tikilməsi və yaxud əsaslı təmir olunması, enerji, qaz, içməli və texniki su təminatı, əmək haqlarının, pensiya və təqaüdlərin artırılması, əlillərin müalicəsinin həm ölkə xaricində və daxilində təşkil olunması dövlət başçısının apardığı sosial siyasətin nəticəsidir.

Burada xüsusi olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərini qeyd etmək istərdim. Artıq iki ildir ki, birinci xanım ölkədə aparılan sosial siyasətdə çox böyük uğurlar əldə etmişdir. Təkcə keçən il 5800 məcburi köçkün, 600-ə yaxın Qarabağ əlili, şəhid ailəsi yeni mənzillərlə təmin olunmuşlar. Təhsil, səhiyyə, mədəniyyət sahəsində aparılan işlər, son vaxtlar pensiyaların, təqaüdlərin artması ilə bağlı verilən qərarlar dövlətin sosial siyasətə verdiyi önəmin nə qədər əhəmiyyətli olduğunu göstərir və bu da əhali tərəfindən çox yüksək qiymətləndirilir. Tam səmimi demək istəyirəm ki, cənab Prezidentin Mehriban xanımla birlikdə şəhid ailələri ilə, regionlarda əhali ilə görüşləri xalq tərəfindən necə də böyük sevinclə qarşılanır və bunu xalqa xidmətin ən böyük nümunəsi kimi qiymətləndirir. Əhəmiyyəti isə ondan ibarətdir ki, cəmiyyətdə sosial gərginlik yaranmır, xalq cənab Prezidentin apardığı siyasəti dəstəkləyir və öz gələcəyinə ümidlə baxır.

***-Regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının icrasını necə dəyərləndirirsiniz?***

- Hər bir işi nəticəsinə görə qiymətləndirmək lazımdır. 2004-cü ildən sonra regionların sosial-iqtisadi inkişafı ilə bağlı 3, eyni zamanda, Bakı şəhəri və qəsəbələrlə bağlı 2 dövlət proqramı artıq icra olunmuşdur. Proqramlarda əks olunan müddəaları saymaq saatlarla vaxt aparar. Çalışacağam konkretləşdirim və əsas məsələləri diqqətinizə çatdırım. İlk növbədə Azərbaycanın siyasi xəritəsində minimum 70 şəhər meydana gəlmişdir desəm yəqin ki, yanılmaram. Rayon mərkəzləri ilə yanaşı, kəndlər də abadlaşdırılmışdır. Respublika ərazisində bütün magistral və yerli əhəmiyyətli yollar müasir dünya standartlarına uyğun yenidən qurulmuşdur. Fantastik görünə bilən bir rəqəm olaraq son 15 ildə 15 min km-dən çox yol, 3272 məktəb, 640 səhiyyə müəssisəsi, 44 Olimpiya kompleksi, 31 elektrik stansiyası, xeyli sayda mədəniyyət müəssisəsi tikilib və yaxud yenidən qurulmuşdur. Qazlaşdırma 95%, elektrik enerjisi 100%, içməli su 70%-ə çatdırılmışdır.

Kənd təsərrüfatının inkişafı üçün meliorasiya tədbirləri həyata keçirilmişdir. Kənd təsərrüfatı ilə məşğul olan fermerlərə subsidiya, texnika verilmişdir.

Nəticədə Davos İqtisadi Forumunun hesablamalarına əsasən avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yer tutmuşdur. ÜDM artmışdır. Qeyri-neft sektoru inkişaf etmiş, qoyulan sərmayələr artmışdır, turizm inkişaf etmiş, qeyri-neft sektoru üzrə ixrac potensialı artmışdır.

Əhalinin pul gəlirləri artmış, təhsilin, səhiyyənin keyfiyyəti yaxşılaşmışdır. Taxıl, tərəvəz, pambıq, tütün, baramaçılıq, ət, süd məhsullarının istehsalı xeyli artmışdır. Əhalinin məşğulluq səviyyəsi yüksəlmiş, idman, bədən tərbiyəsi inkişaf etmişdir. Xeyli sayda infrastuktur layihələri icra olunmuşdur.

Artıq 34 rayon özünü maliyyələşdirmə sisteminə keçərək mərkəzdən maliyyə asılılığını azaltmışdır. Cənab Prezident tərəfindən 4-cü proqram təsdiq olunub və hesab edirəm ki, bu proqram da əvvəlkilər kimi tam şəkildə icra olunacaq və xalqımız onun bəhrəsini görəcəkdir.

***-Regionların sosial-iqtisadi inkişafından söz düşmüşkən, bu baxımdan, təmsil etdiyiniz bölgədə əldə edilən nailiyyətlər haqqında da fikirlərinizi bilmək istərdik...***

- Təmsil etdiyim Balakən rayonu respublikamizin ən ucqar rayonlarından olsa da icra olunmuş Dövlət proqramlarının nəticəsində 34 yeni məktəb, 5 uşaq bağçası, Heydər Əliyev Mərkəzi, Olimpiya kompleksi, rayon mərkəzi xəstəxanası, mədəniyyət mərkəzi, gənclər evi, incəsənət gimnaziyası, bayraq muzeyi, avtovağzal kompleksi, bir çox inzibati binalar, parklar, fərdi sahibkarlığın inkişafı ilə "ABAD" mərkəz, "Aqrolizinq" ASC rayon filialı, emal müəssisələri, soyuducu anbarlar, yeni mehmanxanalar, kanat yolu, elektrik stasiyası, 2011-ci ildə regionda baş vermiş zəlzələdən sonra minlərlə fərdi ev, əlil və şəhid ailələri üçün 2 çoxmənzilli bina, fərdi evlər, məcburi köçkünlər üçün 45 mənzilli yaşayış binası tikilmişdir. Balakən-Qazma-Darvazbinə, Balakən-Sarıbulaq-Qabaxçöl-Xalatala yolları istifadəyə verilmiş, Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun inşası aparılır. Rayon ərazisində qazlaşma 100% aparılmışdır, elektrik enerjisi üzrə çox böyük işlər aparılır, dağ çaylarının daşmasının qarşısının alınması üçün minlərlə paqonometr bənd işləri görülmüş, meliorasiya işləri və əhalinin içməli su ilə təmin olunması üçün xeyli sayda subartezian quyuları qazılmışdır və proses davam edir.

Bütün bu göstərilən dövlət qayğısına görə balakənlilər cənab Prezidentə oz minnətdarlığını bildirir və hər zaman Onun apardığı siyasəti dəstəklədiklərini ifadə edirlər.

***- Nəsib müəllim, ölkəmizin hərtərəfli inkişafına rəğmən Azərbaycana qarşı müəyyən qərəzli dairələr tərəfindən qarayaxma kampaniyası aparılır. Buna münasibətiniz necədir?***

- Təbii ki, münasibətim çox mənfidir. Mən bunu qətiyyətlə pisləyirəm və hesab edirəm ki, bu barmaqla sayılacaq qədər bir neçə adamın apardığı çirkin kampaniya heç bir məntiqə, sağlam düşüncəyə sığmır və Azərbaycanın bugünkü inkişafını gözü götürməyən, sabitliyi pozmaq istəyən hansısa şər qüvvələr tərəfindən idarə olunur. Heç kimə sirr deyil ki, hal-hazırda dünyada geosiyasi təsirlər uğrunda, ayrı-ayrı ölkələrə məxsus təbii sərvətlərin ələ keçirilməsi, sivilizasiyalararası artıq gizlədilməyən müharibə və bir çox neqativ proseslər gedir. Buna misal olaraq Yaxın ŞərqdəTunis, Liviya, İraq, Suriya, Yəmən, Fələstin eyni zamanda, bizə çox yaxın olan Ukraynada, Latın Amerikası ölkəsi olan Venesuelada gedən proseslərə nəzər salmaq kifayətdir.

Bütün bu dağıdıcı proseslərin kökündə sadaladığım məsələlər durur. Demokratiya adı altında həmin dövlətlərdə 3-cü bir qüvvələri ələ alaraq həmin dövlətlərin siyasi hakimiyyətinə qarşı itaətsizliyə çağırırlar, onları silahlandırırlar və nəticədə milyonlarla insan həlak olur, öz yurd-yuvalarından didərgin düşür, şəhərlər, kəndlər dağıdılır, infrastruktur məhv olur. Qədim tarixi olan ölkələr parçalanır, hətta parçalanmasa belə onların bərpasına yüzillər lazımdır ki, bu da bütöv xalqların faciəsinə səbəb olur. Bax budur reallıq. Azərbaycanın sərvətlərində maraqları olan ayrı-ayrı qüvvələr istədiklərini ala bilmədikləri zaman dərhal şərböhtan maşınını işə salır, xalqı aldatmağa çalışırlar. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycan xalqının mənafeyinə uyğun olmayan hər hansı bir layihəyə razılıq verməyəcəkdir. Məsələnin kökündə bu dayanır. Ancaq xalqımız müdrik xalqdır. 1990-cı illərin əvvəllərində bu hərc-mərcliyi, xaotik prosesləri yaşamışdır.

Artıq güclü lider ətrafında sıx birləşmiş güclü dövlət, güclü xalq vardır. Xalq artıq müxalifət adına populizm xatirinə, hətta bir birini qəbul etməyən üzdəniraq "liderlərin" sözlərinə inanmır, onları dəstəkləmir.

Hər bir dövlətdə problemlər mövcuddur, ən inkişaf etmiş ölkələrdə belə. Problemsiz ölkə yoxdur. Azərbaycanın fərqi ondadır ki, burada Azərbaycan xalqının rifahını düşünən və ölkəni inkişaf etdirən siyasi rəhbərlik vardır. Mövcud problemlər sistemli şəkildə zaman-zaman öz həllini tapır.

Xalqımızın isə əsas vəzifəsi odur ki, xalq-Prezident vəhdəti əsasında mövcud sabitliyi qorusun və Azərbaycanın xoşbəxt gələcəyinə öz töhfəsini versin.

## MİNİMUM ƏMƏK HAQQI 180, MİNİMUM PENSİYA İSƏ 160 MANAT MÜƏYYƏN OLUNUB




**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə martın 1-dən ölkəmizdə minimum əmək haqqı 38,4 faiz artırılaraq 180 manata və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında qəbul olunan qanunla əmək pensiyasının minimum məbləği 38,5 faiz artırılaraq 160 manata çatdırılır.**

**Nazirliyin İctimaiyyətlə əlaqələr və Kommunikasiya şöbəsindən "İki sahil"ə verilən məlumata görə, minimum əməkhaqqının artımı birbaşa olaraq 600 min insanı əhatə edir ki, onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əmək haqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əmək haqqında isə 25 faiz artım edilir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin 10 ay ərzində 335 milyon manat əlavə vəsait ayrılacaq.**

**Minimum pensiya məbləğinin artırılması isə 233 min pensiyaçını (o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan vətəndaşı) əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz, 26 min nəfərin pensiyasında 30 faiz, 74 min nəfərin pensiyasında 16 faiz və s. artımlar edilir. Artımın edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.**

# Son Fərman və sərəncamlar dövlətimizin güclü siyasi iradəsinə söykənir







2019-cu ilin əvvəllərindən başlayaraq Prezident İlham Əliyev tərəfindən xalqımızın sosial təminatının gücləndirilməsi, həyat şəraitinin daha da yaxşılaşdırılması istiqamətində imzalanan bir çox Fərman və sərəncamlar əhalinin hədsiz sevincinə səbəb olmuşdur. Bu günlərdə əhalinin aztəminatlı kateqoriyası hesab edilən qaçqın və məcburi köçkünlərin aylıq müavinətlərinin artırılması ilə bağlı imzalanan Prezidentin Sərəncamı da bu təbəqədən olan şəxslər üçün vahid aylıq müavinətin məbləğinin 2019-cu il aprelin 1-dən 50 faiz artırılması ilə yadda qaldı. Təbii ki, bütün bu addımlar cənab Prezident tərəfindən həyata keçirilən kompleks sosial islahatlar paketinin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

**"Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən məsələ ilə bağlı "İki sahil" qəzetinə açıqlamasında bildirdi ki,** Azərbaycan dövlətinin imkanları genişləndikcə daxili siyasətin əsas istiqamətlərindən olan sosial siyasət, eləcə də əhalinin rifah halının yaxşılaşdırılmasına yönələn tədbirlər özünü daha qabarıq şəkildə göstərməyə başlayıb: "Artıq 16 ildir Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial siyasət bu sahədə inqilabi dəyişikliklərə səbəb olub. İllərdir ki, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən sosial paket 2019-cu ildə yeni mərhələ formasında davam etdirilməkdədir. Qısa zaman kəsiyində əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, aztəminatlı ailələrə, şəhid ailələrinə, veteranlara dövlət qayğısının, pensiya və təqaüdlərin, maaşların, o cümlədən minimum əmək haqlarının artırılması istiqamətində atılan addımlar buna bariz nümunədir ".

Həmsöhbətimiz bildirdi ki, ölkə başçısı tərəfindən son dövrlərdə imzalanan Fərman və sərəncamlardan demək olar ki, bütün Azərbaycan vətəndaşları yararlanmaq imkanı əldə edib. Bu günlərdə məcburi köçkünlərlə bağlı atdığı növbəti humanist addımında Prezident sosial dövlət prinsiplərinə üstünlük verdiyini və islahatlar prosesinin dönməzliyini göstərmiş oldu.

Ekspert onu da qeyd etdi ki, bu sənəd Azərbaycan dövlətinin ümumilikdə hər bir vətəndaşına dəyər verdiyinin, məcburi köçkünlərin doğma yurdlarına qayıdanadək dövlət himayəsində saxlanacaqlarının əyani sübutudur: "Yeni sənədə əsasən, 2019-cu il aprel ayının 1-dən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləğində 50 faizlik artım olacaq. Təbii ki, atılan addımlar bununla məhdudlaşmır. Artıq illərdir ki, Azərbaycan dövləti həyatın sərt sınağı ilə üzləşərək qaçqınlıq və məcburi köçkünlük taleyi yaşayan soydaşlarımızın mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, onların sosial müdafiələrinin gücləndirilməsinə, məşğulluqlarının təmin edilməsinə davamlı qayğı göstərir. Atılan hər bir addım sübut edir ki, özünü dünyaya sosial dövlət kimi təqdim edən Azərbaycan öz vətəndaşlarının yüksək rifahının təminatçısıdır".

**Politoloq Zaur Məmmədov isə bildirdi ki,** son zamanlar Azərbaycanda bir çox sosial qrupların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyev tərəfindən mühüm addımlar atılır: "Təbii ki, bu istiqamətlərdən biri də məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların yeni yaşayış yerləri ilə təmin olunmasıdır. Bildiyimiz kimi Azərbaycan bəlkə də dünyada ən çox məcburi köçkünə sahib olan ölkədir. 1990-cı illərdən başlayaraq ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər nəticəsində xalqımız bir çox çətinliklərlə üzləşmişdir. Lakin dövlətin məqsədyönlü siyasəti və uğurlu addımları nəticəsində onların problemlərinin həlli lazımi səviyyədə öz həllini tapdı. Təbii ki, məcburi köçkünlərə dövlət qayğısı hər zaman Azərbaycanın daxili siyasətinin ən mühüm məsələlərindən biridir. Prezident İlham Əliyev siyasətinin ən böyük fəlsəfəsi ondan ibarətdir ki, o, Azərbaycanın hər bir vətəndaşının Prezidentidir. Biz hər zaman onun bütün sosial qruplara qarşı eyni qaydada qayğısını görür və müşahidə edirik".

**Politoloq Nəzakət Məmmədova da açıqlamasında bildirdi ki,** Prezidentin son dövrdə imzaladığı mühüm sənədlər əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək məqsədinə xidmət edir və dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir: "Bu cür genişmiqyaslı sosial proqramlar, nəhəng sosial paketlər dünya praktikasında adətən seçkiqabağı dövrə təsadüf edir və seçkilərdə səs qazanmaq üçün hakimiyyət tərəfindən manipulyasiya vasitəsi kimi istifadə edilir. Məsələn, bəzi qüvvələrin tez-tez istinad etdiyi Gürcüstanda bu kreditlərin əhaliyə güzəştə gedilməsi aşkar surətdə seçkiyə təsir vasitəsi idi. Azərbaycanda isə bu, sırf əhalinin sosial durumunu yaxşılaşdırmaq üçün Prezident İlham Əliyevin elan etdiyi kimi 2 milyon 200 min əhalinin dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanması planının mühüm tərkib hissəsidir və Azərbaycan dövlətinin güclü siyasi iradəsinə söykənir".

"Bu gün bir çox sahədə imzalanan Fərman və sərəncamlar da dövlətin xalqına diqqətini yenidən göstərmiş oldu. Bunlardan biri də qaçqın və məcburi köçkünlərin müavinətlərinin artırılması idi ki, bununla da bağlı mühüm addımlar atıldı. Beləliklə, Prezident İlham Əliyev 2011-ci il aprel seçkilərinə gedərkən genişmiqyaslı islahatlar paketi vəd etmişdi və biz bu gün 1993-cü ildən başlayaraq mərhələli şəkildə həyata keçirilən islahatların növbəti mərhələsinin şahidi oluruq. Ən təqdirəlayiq hal isə ondan ibarətdir ki, bu, davamlı, arasıkəsilməz prosesdir və gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur. Bu da ölkəmizdə vətəndaş-dövlət münasibətlərini keyfiyyətcə yeni mərhələyə yüksəldib", - deyə politoloq bildirdi.

✍ **Mənsumə Babayeva,**
***"İki sahil"***

# BSU-da Beynəlxalq Yunan Dili Günü qeyd edilib

**Martın 1-də Bakı Slavyan Universitetində Beynəlxalq Yunan Dili Gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellos da iştirak edib.**




Tələbələrlə görüşdən öncə səfiri BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edib. Görüşdə Yunanıstan və Azərbaycan arasında dostluq və əməkdaşlığın mühüm istiqamətləri barədə fikir mübadiləsi aparılıb. Yunanıstan səfirliyinin Bakı Slavyan Universiteti ilə əlaqələrindən danışan rektor Nikolaos Kanellosun dövründə münasibətlərin daha intensiv və səmimi şəkildə davam etdiyini bildirib. N.Əliyeva bunu həm də səfirin özünün şəxsi keyfiyyətləri, onun yaradıcı insan olması ilə əlaqələndirib.

Qeyd edək ki, Yunanıstanın respublikamızdakı səfiri siyasi-diplomatik fəaliyyətlə yanaşı, həm də şair, rəssam, müğənni kimi tanınır. 2017-ci ilin dekabrında səfirin Bakıda "Land Mark" biznes mərkəzində rəsm sərgisi keçirilmiş, bu ilin may ayında isə onun öz vətənində konserti planlaşdırılır.

Nikolaos Kanellos öz növbəsində BSU-nun rektoru, professor Nurlana Əliyevaya səmimi qəbula görə minnətdarlığını bildirərək universitetdə yunan tarixinə, dilinə, ədəbiyyatına, mədəniyyətinə xüsusi diqqət yetirildiyini vurğulayıb. Səfir universitetin rektoru başda olmaqla, bir qrup mütəxəssisi öz ölkəsinə dəvət edib.

Bundan sonra BSU-nun Yunan Dili və Mədəniyyəti Mərkəzində tələbə və müəllimlərlə görüş keçirilib. Görüşdə səfir Azərbaycanın mədəniyyəti, tarixi, ədəbiyyatı, azərbaycanlıların milli mental dəyərlərə üstünlük verməsi və s. məsələlərlə bağlı təəssüratlarını gənclərlə bölüşüb. O, Azəbaycanda ilk öyrəndiyi sözlərin sevgi, sülh, günəş olduğunu bildirib. Nikolaos Kallonas yunan dilinin tarixi barədə qısa məlumat verib və bu dilin dünyanın ən qədim dillərindən olduğunu, fransız, alman, ingilis dillərində kifayət qədər yunan sözlərinin olduğunu qeyd edib. O, BSU-nun yunanşünaslıq qrupunun tələbələrinin hazırlığından razılığını ifadə edib.

Sonra yunan dili müəllimi Səidə Mehdiyeva yunan natiqlik sənəti barədə çıxış edib.

Yunanıstandan gəlmiş müəllim Mariya Delaki çıxış edərək Yunanıstan-Azərbaycan münasibətlərindən və mədəniyyət sahəsində ölkələrimiz arasındakı əlaqələrdən danışıb.

Tədbir bədii hissə ilə davam edib. Bədii hissədə yunan dili ixtisası üzrə təhsil alan I kurs tələbələrindən Mətanət Cəfərova, Nərmin Quliyeva, II kurs tələbələrindən Vüsalə Quliyeva, Əziz Əsgərov, Əfşan Ayaz, Şükufə Abdullayeva, Aytac Həsənli, III kurs tələbələrindən Səadət Seyidova, Səbinə Qarayeva, Nuranə Qocayeva, Fərhad Hacıyev, Cavid Ağalı yunan klassiklərindən nümunələr səsləndiriblər.

# YAP-ın üzvü olmaq böyük məsuliyyət və şərəfdir



**Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı "Neft Daşları" NQÇİ ərazi ilk partiya təşkilatında partiya sıralarına yeni qəbul olunan üzvlərə üzvlük vəsiqəsinin təqdim olunması mərasimi keçirilib.**

Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, 1992-ci il noyabrın 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan Partiyası fəaliyyətdə olduğu müddətdə milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin başlıca təminatçısı qismində çıxış edib, ümummilli ideyaları özündə ehtiva edən səmərəli addımları ilə xalqın dərin inamını qazanıb: "YAP zamanın təxirəsalınmaz tələbindən irəli gələrək, Azərbaycan xalqının arzu və istəklərinin ifadəçisi kimi yaranan partiyadır. Yeni Azərbaycan Partiyasının yaranması müstəqil Azərbaycanın, xalqımızın həyatında tarixi bir dönüş, intibah dövrü kimi yadda qalıb."

H.Şikarov 25 ildən artıq dövrdə ölkəmizin əldə etdiyi uğurlardan, Yeni Azərbaycan Partiyasının bu inkişafa, tərəqqiyə töhfələrindən danışaraq bildirib ki, dövlətə, xalqa xidməti fəaliyyətinin önündə saxlayan partiyanın sıraları gündən-günə genişlənir: "Bugünkü tədbir də bunun bariz nümunəsidir. Ötən 25 ildən artıq dövr tərəqqi, inkişaf və yüksəliş ili, Azərbaycanın möhkəmlənməsi, dünyada öz rolunu artırması, eyni zamanda, Yeni Azərbaycan Partiyasının qüdrətlənməsi, möhtəşəm siyasi təşkilata çevrilməsi ili kimi xarakterizə olunur. Partiyanın keçdiyi inkişaf yolu onun yaradıcısı, ulu öndər Heydər Əliyevin ideyalarına sədaqət örnəyidir. Ötən müddət ərzində Yeni Azərbaycan Partiyası respublikada keçirilən bütün seçkilərdə daim qalib olub, hər bir sınaqdan, çətinliklərdən uğurla çıxıb və özünü Azərbaycan xalqına qaliblər partiyası kimi təqdim edib. Son 16 ildə YAP dövlət başçısının uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı nəticəsində ölkəmizin bütün sahələrdə yeni nailiyyətlər əldə etməsinə öz dəyərli töhfələrini verir."



Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim edilib. Yeni üzvlər birmənalı olaraq bildiriblər ki, bu gün onların həyatında çox əlamətdar bir hadisə kimi qalacaq. İnkişaf və müasirlik partiyası olan Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyət və şərəfdir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

## "AZƏRİQAZ" XƏBƏRDARLIQ EDİR

Son günlər Bakı şəhərinin müxtəlif ünvanlarında özünü "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşı kimi təqdim edən şəxs və ya şəxslər mənzillərdə quraşdırılmış Smart-kart tipli qaz sayğaclarının batareyasının dəyişdirilməsi və ya smart kartların "vaxtının keçməsi" kimi məsələləri bildirərək həmin "problemlərin" aradan qaldırılması üçün vətəndaşlardan müəyyən miqdarda pul tələb edirlər.

Bununla bağlı istehlakçıların nəzərinə çatdırırıq ki, Bakı şəhərində abonentlərə göstərilən bütün xidmətlər yalnız "ASAN xidmət" və "ASAN kommunal" mərkəzlərində həyata keçirildiyindən "Azəriqaz" İB-nin əməkdaşları öz xidməti vəsiqələrini göstərdikdən sonra ödənişsiz olaraq yalnız mənzillərdə yerləşən sayğaclara profilaktik baxış keçirə bilərlər. Sonda bir daha bildiririk ki, qeyd olunan hallarla rastlaşan vətəndaşlar yaşadıqları ərazi üzrə müvafiq polis bölməsinə müraciət etməlidirlər.

## ETİLEN-POLİETİLEN ZAVODUNDA MÜLKİ MÜDAFİƏ TƏLİMİ






1 mart - Ümumdünya Mülki Müdafiə Günü münasibətilə SOCAR-ın "Azərikimya" İB-nin Etilen-polietilen zavodunun ərazisindəki meydançada "Fövqəladə hallarda davranış qaydalarına düzgün əməl edilməsi və təhlükəsizliyin təmini hər bir işçinin məsuliyyətinin tərkib hissəsidir" mövzusunda obyekt mülki müdafiə təlimi keçirilib.

"Azərikimya" İB-nin Etilen-polietilen zavodunun və Təmir-tikinti idarəsinin hərbiləşdirilməmiş mülki müdafiə qüvvələrinin, "Etalon Security" MMC-nin mühafizəçilərinin, "Kimyaçı" poliklinikası və Təcili Tibbi Yardım Mərkəzinin təcili tibbi yardım briqadasının, Fövqəladə Hallar Nazirliyinin (FHN) Sumqayıt şəhər DYMİ-nin 24 saylı Yanğından Mühafizə Hissəsinin qüvvə və vasitələrinin iştirak etdikləri və müxtəlif təyinatlı maşın və mexanizmlərinin də cəlb edildiyi tədbirdə öncə mülki müdafiə qüvvələrinin düzülüşünə, sonra isə onların əmlak və avadanlıqlarının vəziyyətinə baxış keçirilib.

Baxış zamanı tədbirə cəlb olunmuş mülki müdafiə qüvvələrinin şəxsi heyətinin müsahibə və sual-cavab yolu ilə mülki müdafiə sisteminin əhəmiyyəti, təbii fəlakətlərin, istehsalat qəzalarının və digər fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması ilə bağlı nəzəri bilikləri yoxlanılıb.

Tədbirdə, həmçinin əhalinin mühafizəsi və fəlakətlərə qarşı mübarizə sahəsində mülki müdafiənin rolu, fövqəladə hallarda işçilər tərəfindən davranış qaydalarına düzgün əməl edilməsinin və təhlükəsizliyin təmin olunmasında onların hər birinin məsuliyyətinin əhəmiyyəti haqqında ətraflı məlumat verilib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Şəhər və rayon mərkəzlərində Novruz yarmarkaları fəaliyyətə başlayır



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Yarmarkalarda respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edəcəklər. Yarmarkalarda məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunacaqdır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əhalinin tələbatı nəzərə alınaraq kənd təsərrüfatı məhsullarının satış yarmarkaları paytaxt Bakıda 14 ünvanda - Yasamal rayonunda H.Cavid prospektində, AMEA-nın binasının qarşısındakı parkda, Nərimanov rayonunda F.X.Xoyski prospektindəki Qələbə meydanında (metronun Gənclik stansiyasının çıxışı), Nizami rayonunda iki yerdə - Qara Qarayev prospekti 55/57 ünvanının qarşısındakı "Orbita" ticarət mərkəzinin avtomobil dayanacağında və C.Naxçıvanski küçəsi 74-də 8-ci kilometr yarmarkasında, Səbail rayonunda iki yerdə - Seyran Məmmədov küçəsi 6 ünvanında və Nizami küçəsi 154-də "Landmark" mehmanxanasının yanında, Binəqədi rayonunda 7-ci mikrorayondakı Kunanbayev küçəsində, Xətai rayonunda Məzahir Rüstəmov küçəsinin Sarayevo və S.Ə.Şirvani küçələri ilə kəsişməsində, Qaradağ rayonunun Lökbatan qəsəbəsində, 28 May küçəsindəki Olimpiya İdman bazasının qarşısında, Nəsimi rayonunda Mərdanov Qardaşları küçəsi 59 ünvanında, Pirallahı rayonunda Pirallahı qəsəbəsindəki K.Rzayev küçəsi 14-də qeyri-yaşayış obyektində, Sabunçu rayonunun Bakıxanov qəsəbəsinin M.Fətəliyev küçəsi 72 ünvanında, Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinin Yeni Günəşli "V" yaşayış sahəsindəki "Günəş" ticarət mərkəzində və Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki S.Yesenin küçəsi, döngə 2 ünvanında təşkil olunacaq.

Bakı şəhərində təşkil olunacaq 14 yarmarkada satışa respublikanın 42 rayonundan 52 adda məhsul çıxarılacaq.

# Bakı Ali Neft Məktəbi “TT-Gate” şirkəti ilə əməkdaşlığa başlayır



Bakı Ali Neft Məktəbində (BANM) “TT- Gate” şirkətinin rəhbərliyi ilə görüş keçirilib. Görüşdə BANM-in rektoru Elmar Qasımov, “TT-Gate” şirkətinin direktoru Turqay Turhan və hər iki müəssisənin məsul əməkdaşları iştirak ediblər.

BANM-in rektoru Elmar Qasımov qonaqları salamlayaraq Bakı Ali Neft Məktəbi haqqında onlara ətraflı məlumat verib. Rektor bildirib ki, BANM-i digər universitetlərdən fərqləndirən başlıca səbəblərdən biri onun şirkətlərlə sıx əməkdaşlıq etməsi və daim istehsalatın içində olmasıdır. Məhz tanınmış transmilli şirkətlərlə olan partnyorluq əsasında bu gün BANM-də “ABB”, “Scneider Electric”, “Emerson” və s. kimi məhz həmin şirkətlər tərəfindən quraşdırılmış müasir laboratoriyalar fəaliyyət göstərir”, - deyə Elmar Qasımov bildirib.

“TT-Gate” şirkətinin direktoru Turqay Turhan rektoru ali məktəbin uğurlar və yüksək göstəriciləri münasibətilə təbrik edib. Ali məktəblə əməkdaşlıq etməyə maraqlı olduqlarını bildirən Turhan qeyd edib ki, rəhbərlik etdiyi şirkətin vasitəsilə BANM-in bir qrup müəllim heyəti Türkiyədə informasiya təhlükəsizliyi və avtomatlaşdırma sahəsində təlim və seminarlar keçə, öz bilik və bacarıqlarını təcrübi tətbiq edə bilərlər.

Görüşdə, həmçinin şirkətin Azərbaycanda işləyən, eləcə də mütəmadi olaraq xaricdən Azərbaycana gələn professional mütəxəssisləri tərəfindən ali məktəbin tələbələrinə praktiki seminarların keçirilməsi, həmçinin tələbələrin şirkətdə təcrübə keçməsi məsələləri müzakirə edilib. “TT-Gate” şirkəti, eyni zamanda, Ali Məktəbin tədris prosesində istifadə üçün proqram təminatı ilə təchiz edilməsinə də köməklik göstərəcək.

Qeyd edək ki, yüksək texnoloji avadanlıqların və xidmətlərin Azərbaycanda satışını həyata keçirməklə məşğul olan “TT-Gate” şirkəti Türkiyənin böyük şirkətlərindən biri olan və informasiya təhlükəsizliyi xidməti göstərən “İnnovera” şirkətinin bir qolu kimi fəaliyyət göstərir.

**Zamin Məmmədov,**
***“İki sahil”***

## BAKI ALİ NEFT MƏKTƏBİ YAPONİYANIN TV PROQRAMINDA

Yaponiyanın məşhur Fuji Telekanalı özünün ‘Naruhodo! The World’ adlı proqramında Bakı Ali Neft Məktəbini (BANM) öz geniş auditoriyasına təqdim edib.

Proqramda aparıcı qismində çıxış edən Yaponiyanın tanınmış aktrisası Hitomi Kuroki BANM-də olub və Ali Məktəbin Neft-qaz mühəndisliyi ixtisasında təhsil alan tələbələrinin laboratoriya dərslərinə qatılıb. Yaponiyada neft sənayesi böyük maraqla qarşılandığından aparıcı tələbələrə bu sahə ilə bağlı bir sıra maraqlı suallar ünvanlayıb.

O, eyni zamanda, BANM tələbələrinə niyə neft-qaz mühəndisliyini və bu sahədə niyə məhz BANM-i seçdiklərini sual verib. Cavabında isə tələbələr bu sahədə mütəxəssislərin daha çox maaş aldıqlarını, BANM-in isə ölkədə bu sahə üzrə ən güclü təhsil verən ali təhsil müəssisəsi olduğunu bildiriblər.

Proqramda BANM-in kampusunun ətrafında yerləşən neft buruqlarından görüntülər də yer alıb.

Yaponlar həmçinin Azərbaycanın turistik yerlərini, eləcə də Bakı, milli adət-ənənə və mətbəxlə bağlı maraqlı kadrları və faktları Fuji TV izləyicilərinə çatdırıblar.

Qeyd edək ki, ilk dəfə 1981-ci ildə yayımlanan proqram bu günə kimi 700-dən çox verilişlə ekrana çıxıb.

Proqramın Ali Məktəblə bağlı süjetindən qısa çıxarışı sizə təqdim edirik.

https://www.youtube.com/watch?v=rBCIl7dTKFM&feature=you-tu.be&fbclid=IwAR0jDOHpJpgpO8AaleZlD2ENgkgOFvmy392XZa-JEmJ2ZAvFT5EnG3lTGfcU

## “Total” Fransa Qvianasında əməliyyatları dayandırdı




Fransanın nəhəng “Total” neft şirkəti Fransa Qvianasında ofşor neft kəşfiyyatı layihəsi üzrə apardığı qazma əməliyyatlarını nəticəsiz olduğuna görə dayandırıb.

“İki sahil” “france24.com” saytına istinadən xəbər verir ki, qazma əməliyyatları ötən ilin dekabr ayından etibarən Cənubi Amerikanın şimal-şərqində yerləşən Fransa Qvianası sahilinin 150 kilometrliyində aparılırdı. Qazma işləri 2000 metr dərinlikdə aparılıb.

“Total” şirkətinin direktoru Olivier Vatez qazma işləri zamanı karbohidrogen ehtiyatı aşkar etmədiyindən bu həftənin ilk günündən qazma əməliyyatlarını dayandırdığını bildirib.

Qonşuluqda yerləşən Qayana isə dünyanın ən nəhəng ofşor neft ehtiyatının aşkar olunduğu ərazi hesab olunur və bu günə qədər “ExxonMobil”, BP və “Statoil” şirkətlərinin maraq dairəsində olub.

## Şirkət cərimələnib



Ətraf Mühitin Mühafizəsi Agentliyi ABŞ-ın Konnektikut ştatında yerləşən Nauqatuk çayının çirklənməsinə səbəb olan “Global Brass and Copper” şirkətini 6,100 dollar cərimələyib.

“Republican-American” agentliyinin verdiyi məlumata görə, şirkət cəriməni ödəmək üçün razılığa gəlib.

“İki sahil” “wtnh.com” saytına istinadən xəbər verir ki, sızma 2018-ci ilin yanvar ayında şirkətə məxsus “Somers Thin Strip” zavodundan axaraq Vaterbury əyalətinə tökülüb.

“Nauqatuck River Revival Group” departamentinin təhsisçisi Kevin Zak bu cərimənin biabırçı olduğunu bildirib.

# Rusiya səfiri BSU-nun tələbələrini qəbul edib



**Martın 1-də Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov Çelyabinskdə keçirilən III Beynəlxalq Diplomatik Oyunlarının final mərhələsində qalib gələn Bakı Slavyan Universitetinin (BSU) “Kaspi” komandasının üzvlərini qəbul edib. Görüşdə BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov, həmçinin “Kaspi” komandasının məşqçisi, Azərbaycan multikulturalizmi kafedrasının müəllimi Mayya Cəfərquliyeva da iştirak ediblər.**

Səfirlə söhbət zamanı əvvəlcə Mayya Cəfərquliyeva III Beynəlxalq Diplomatik Oyunlar barədə ətraflı məlumat verib. Bildirib ki, 2 nominasiyalı yarış Rusiya Federasiyası A.M. Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun qrant proqramı əsasında Çelyabinsk Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilib. Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin IV kurs tələbələri “Ən yaxşı tələbə işi” nominasiyasında hazırladıqları videoçarxla Azərbaycanı təmsil edən yeganə komanda kimi finala vəsiqə qazanıblar.

Səfir Mixail Boçarnikov Bakı Slavyan Universiteti tələbələrini qazandıqları uğura görə səfirliyin kollektivi adından təbrik edib. Bildirib ki, intellektual oyunların keçirilməsi gənclərin beynəlxalq münasibətlər və diplomatiya üzrə təcrübələrinin artmasında, o cümlədən onların gələcək diplomatlar kimi yetişməsində mühüm rol oynayır. Səfir gənclərin diplomatiya istiqamətində perspektivli inkişafı üçün çox dil bilmələrinin vacibliyini vurğulayıb. O, BSU-nun Azərbaycanla Rusiya arasında humanitar, mədəni əlaqələrin inkişafında körpü rolu oynadığını qeyd edərək universitet gənclərinin diplomatiya istiqamətində qazandıqları uğuru bunun bariz nümunəsi kimi dəyərləndirib.

Finalda 3-ü yeri qazanan “Kaspi” komandasının üzvləri - İlqar Aqamov, Şəbnəm Əkbərli, Leyla Əhmədova, Aytac Qurbanova, Elşən Məhərrəmov, Kristina Məmmədova, Mərcan Nağıyeva III Beynəlxalq Diplomatik Oyunlarla bağlı təəssüratlarını bölüşüblər. “Ən yaxşı tələbə işi” nominasiyasında hazırladıqları videoçarxla bağlı məlumat verən gənc diplomatlar bildiriblər ki, final yarışlarından sonra A.M. Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun təmsilçisi ilə həmin fond və BSU arasında yeni layihələrin icrası barədə bir sıra fikir mübadiləsi aparılıb. Nəzərdə tutulmuş layihə ilə bağlı Mixail Boçarnikovun tövsiyələrini alan tələbələr göstərdiyi diqqətə görə səfirə minnətdarlıqlarını bildiriblər.

BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov Bakı Slavyan Universiteti ilə Rusiyanın qabaqcıl ali təhsil ocaqları arasında münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini deyərək, həmin universitetlərlə nəzərdə tutulan beynəlxalq elmi konfranslardan söz açıb.

Sonunda səfir Mixail Boçarnikov ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Heydər Əliyev - şəxsiyyət, missiya, irs” Rusiya-Azərbaycan tarixi-sənədli sərgisini görüş iştirakçılarına hədiyyə edib, onlarla xatirə şəkli çəkdirib.

## Azərbaycanın dünya birliyinə inteqrasiyası:

# Aysberqin görünən və görünməyən tərəfləri

**"1994-cü il faktiki olaraq bizim tariximizdə, Azərbaycanda və dünyada neftin inkişafı tarixində dönüş nöqtəsi oldu. Bu, həmçinin Azərbaycanı dünya ictimaiyyətinə təqdim etdi, iqtisadiyyatımıza, xüsusilə də ilkin mərhələdə neft və qaz sektoruna nəhəng investisiyaların qoyulması üçün qapı açdı və Azərbaycanın etibarlı tərəfdaş olduğunu və investorlar üçün maksimum dərəcədə əlverişli investisiya mühiti yaratmaq iqtidarında olduğunu nümayiş etdirdi."**



Yazıma Prezident İlham Əliyevin bu günlərdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilmiş V toplantısının açılış mərasimində səsləndirdiyi bu fikirlə başlamağım təsadüfi deyil. Həqiqətən Azərbaycan özünün müstəqilliyini 1991-ci ilin oktyabrında bərpa etsə də, bir çox obyektiv və subyektiv səbəblər ucbatından ölkəmizin dünya birliyinə inteqrasiya prosesi məhz 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə dünyanın nəhəng transmilli neft şirkətləri ilə imzalanmış və "Əsrin müqaviləsi" adını almış neft kontraktları ilə başladı.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Aydın Mirzəzadə də mövzu ilə bağlı qəzetimizə açıqlamasında ötən 25 ildə Azərbaycanın iqtisadi, siyasi, sosial, mədəni həyatının bütün sahələrində dünya birliyinə inteqrasiya istiqamətində qazanılan böyük uğurların təməl daşını "Əsrin müqaviləsi" təşkil etdiyini xüsusi vurğuladı: "Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 11 şirkəti ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rol oynadı. Bu neft sazişi Azərbaycanın bir dövlət kimi beynəlxalq aləmdə tanınmasına, geosiyasi mövqeyinin möhkəmləndirilməsinə və dünya iqtisadi sisteminə qoşulmasına geniş şərait yaratdı."

### Faktlar və rəqəmlər nə deyir?

Ən əvvəl onu xüsusi vurğulamaq gərəkdir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində BMT-yə üzvlüyündən sonra ölkəmizin dünya birliyinə inteqrasiya sahəsində ilk ən böyük uğuru 2001-ci ildə Avropa dövlətləri ailəsi hesab edilən Avropa Şurasına qəbul edilməsi oldu. Sonrakı mərhələlərdə Azərbaycanın müstəqilliyinin 20-ci ilində 155 dövlətin dəstəyi ilə ən nüfuzlu beynəlxalq təşkilat olan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, hətta 2012-ci ildə dünyanın idarə olunmasında həlledici mövqeyə malik olan bu quruma böyük müvəffəqiyyətlə sədrlik etməsi, həmçinin Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik missiyasını həyata keçirməsi onun dünya birliyinə fəal inteqrasiyasına, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişafına, sivilizasiyalar, mədəniyyətlər və konfessiyalararası münasibətlərin inkişafına verdiyi əvəzsiz töhfələrdir. Biz hələ ölkəmizin uğurla ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsini, "Bakı-2015" Birinci Avropa Oyunlarını, "Azərbaycan Qran-Prisi" adını qazanan və 2023-cü ilədək davam edəcək 500 milyon tamaşaçı auditoriyasına malik Formula-1 yarışlarını, Dünya Şahmat Olimpiadasını, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarını, 6 dəfə ev sahibliyi etdiyimiz və artıq ənənə halını almış Bakı Beynəlxalq Humanitar forumlarını, 4 dəfə keçirdiyimiz Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarını, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu, Dünya Dini Liderlərinin Zirvə Toplantısını və digər mötəbər beynəlxalq tədbirləri demirik.

2017-ci ilin oktyabrında Azərbaycanın liderliyi ilə həyata vəsiqə alan, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu xətti, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi günündə istifadəyə verilən Cənub Qaz Dəhlizi, həmin il iyunun 12-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə təntənəli açılışı olan, Azərbaycan qazını Avropaya çatdıracaq TANAP, artıq istismara buraxılma mərhələsində olan TAP layihələri ölkəmizin dünya birliyinə iqtisadi interqasiyasına əvəzsiz töhfə kimi qiytmətləndirilir.

### Uğurlarımızın təməli: mükəmməl və praqmatik xarici siyasət kursu

Aydın Mirzəzadənin qənaətinə görə, bütün bu uğurların təməlində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 25 ildə həyata keçirilən mükəmməl və praqmatik xarici siyasət kursu dayanır. "Son 25 ildə birmənalı olaraq dünya birliyinə fəal inteqrasiya yolunu tutan Azərbaycanın iştirakı olmadan bu gün nəinki regionda, hətta deyərdim ki, dünya miqyasında heç bir strateji layihənin reallaşması mümkün deyil. Dövlət başçısı İlham Əliyevin məntiqli xarici və daxili siyasət kursu, uğurlu diplomatik fəaliyyəti deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də hərtərəfli inkişaf tempini saxlayacaqdır."

Tanınmış politoloq, Qərb Universitetinin professoru Fikrət Sadıqov da mövzu ilə bağlı qəzetimizə açıqlamasında təxminən eyni fikirləri söylədi. Onun qənaətinə görə, Azərbaycanın təşəbbüskarı və icraçısı olduğu meqalayihələr onu digər region ölkələri, nüfuzlu dövlətlər və beynəlxalq təşkilatlarla yaxınlaşdıran amilə çevrilib: "Əgər bu gün Azərbaycan digər dövlətlərlə birlikdə iri enerji layihələri həyata keçirirsə, istər-istəməz həmin ölkələrə inteqrasiya edir. Eyni zamanda, Azərbaycanın hazırda Avropanın enerji təhlükəsizliyinin təminatçısı rolunda çıxış etməsi də təkzibolunmaz faktdır. Avropada da bunu çox gözəl başa düşürlər. Nəzərə alsaq ki, müasir dünyada geniş vüsət alan geosiyasi qarşıdurma fonunda Avropa üçün enerji təhlükəsizliyi çox önəmlidir, bu zaman Azərbaycanın dünya birliyinə sürətlə inteqrasiyasının həm də Avropanın maraqları daxilində olması qənaətinə gəlmək olar."

F.Sadıqovun sözlərinə görə, eyni zamanda, Azərbaycanın regionda əhəmiyyətinin və təsir imkanlarının getdikcə genişlənməsi də reallıqdır: "Bizim region ölkələri - İran, Rusiya, Türkiyə və Gürcüstanla əməkdaşlığımız ilbəil genişlənməkdədir. Bu günlərdə Gürcüstanın yeni Prezidenti xanım Salome Zurabişvilinin Azərbaycana səfəri bunu bir daha sübut etdi. Səfər çərçivəsində aparılan danışıqlarda möhtərəm Prezidentimiz İlham Əliyevin də qeyd etdiyi kimi, məhz Azərbaycanın təşəbbüsçüsü və təşkilatçısı olduğu nəhəng layihələr Gürcüstan, Türkiyə və digər region ölkələrinin vasitəçiliyi ilə gerçəkliyə qovuşur."

### Uğurlarımız kimləri və niyə qıcıqlandırır?

Bu gün dünyada və regionda gedən proseslərin dinamikası da sübut edir ki, həmsöhbətlərimizin Azərbaycanın sivil dünyaya inteqrasiyasının, region ölkələri və digər dövlətlərlə əməkdaşlığının sürətləndirilməsi ilə bağlı mülahizələri reallığı tam əks etdirir. Elə isə bəs nədən Azərbaycanın xoşməramlı siyasəti fonunda son vaxtlar bəzi nüfuzlu dövlətlərin müəyyən dairələri, bir sıra beynəlxalq təşkilatlar ölkəmizə münasibətdə bu dərəcədə ədalətsiz mövqe tuturlar?

Milli Məclisin deputatı, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə məsələ ilə bağlı qəzetimizə açıqlamasında bu suala tam aydınlıq gətirdi. Söhbətinə Avropa Parlamentinin (AP) bu il yanvarın 17-də Azərbaycanın əleyhinə qəbul etdiyi qətnaməyə münasibət bildirməklə başlayan A. Mollazadə bildirdi ki, həmin sənəd AP-nin Azərbaycana qarşı sifarişlə qəbul etdiyi ilk qətnamə ilk deyil: "Bu qurumda erməni lobbisinin, Azərbaycana düşmən kəsilən müxtəlif fondların yardımı ilə sifarişli qətnamələr hazırlayan, qərarlar qəbul edən çoxsaylı deputat qrupları mövcuddur."

Müsahibimiz hesab edir ki, AP-nin belə sifarişli qətnamələr qəbul etməsi bu qurum tərəfindən müstəqil dövlətin daxili işlərinə qarışmaq cəhdidir: "Azərbaycanda kimsə qanunazidd hərəkət edibsə, bunun üçün həbs edilibsə, Avropanın hər hansı bir qurumunun onun azadlığa buraxılmasını tələb etməsi nə dərəcədə məntiqə uyğundur? Bəyəm Azərbaycan hansısa bir qurumun diktəsi ilə oturub-durmalıdır? Əgər Avropa Parlamenti insan hüquqlarının qorunmasını belə prioritet hesab edirsə niyə 30 ilə yaxındır ki, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünlərin bütün təməl hüquqlarının Ermənistan tərəfindən pozulması faktına görə işğalçı dövlətə qarşı sanksiya, qətnamə qəbul etmir?"

A.Mollazadə son vaxtlar AP və digər beynəlxalq təşkilatların timsalında erməni lobbisi tərəfindən idarə olunan anti-Azərbaycan dairələrin fəallaşmasının əsas səbəblərindən birini məhz Azərbaycanın apardığı məqsədyönlü siyasət nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həlli üçün münbit şəratin yaranması ilə əlaqələndirir. Onun qənaətinə görə, Azərbaycana qarşı qəbul edilmiş həmin qətnamələrin bir məqsədi də münaqişənin ədalətli həllinə mane olmaqdır. Həmsöhbətimiz bu baxımdan anti-Azərbaycan kampaniyasında daha çox canfəşanlıq göstərən "Freedom House" təşkilatının son addımlarını təsadüfi saymır: "Azərbaycanın uğurları tarix boyu ölkəmizə qarşı düşmən mövqeyində dayanan erməniləri və onlara havadarlıq edən "Freedom House" kimi təşkilatları da qıcıqlandırır. Bu təşkilat bir qayda olaraq müxtəlif vasitələrdən istifadə edərək Azərbaycanın beynəlxalq aləmdə formalaşmış müsbət imicinə zərbə vurmaq üçün dəridən-qabıqdan çıxır. "Freedom House" ölkəmizlə bağlı hər hansı qərəzli bəyanat hazırlanarkən heç bir araşdırma və təhlillər aparmır, yalnız Azərbaycandan ötürülən məlumatlara əsaslanır."

### Bəs ədalət kimin tərəfindədir?

Bəli, bu gün Azərbaycanın dünya birliyinə inteqrasiyasında, necə deyərlər, aysberqin həm görünən, həm də görünməyən tərəflərinin olması siyasi şərhçilərin yuxarıdakı təhlillərindən də aydın hiss edilir. Şübhəsiz, bu prosesdə aysberqin görünən tərəfi Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən, xüsusilə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra birmənalı olaraq dünyəvi, hüquqi və demokratik dövlət quruculuğu yolunu tutması, bu ali məqsədlərə nail olmaq üçün sivil dünya birliyinə inteqrasiya siyasətini tam şəffaf şəkildə, heç bir konyukturaya və populizmə yol vermədən həyata keçirməsidir. Aysberqin görünən üzündə, həmçinin Azərbaycanın bu xoş məramının dünya birliyinin əsas faktorları olan aparıcı dövlətlər və əksər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən real qiymətləndirilərək ölkəmizlə siyasi, iqtisadi və mədəni inteqrasiyaya üstünlük verilməsi aydın nəzərə çarpır.

Bununla belə, yuxarıda sadaladığımız faktlardan da göründüyü kimi, aysberqin görünməyən tərəfi isə erməni lobbisinin və antiazərbaycan şəbəkəsinin əlində alət olan bəzi beynəlxalq təşkilatların, hətta nüfuzlu dövlətlərin məsələyə ikili standartlar prizmasından yanaşaraq hər vəchlə Azərbaycanın dünya birliyinə inteqrasiyasının qarşısında sipərə çevrilməsi, bu prosesi əngəlləmək üçün çirkin oyunlara baş vurmasıdır. Söz yox ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin uğurlu hücum diplomatiyası sayəsində erməni lobbisinin və anti-Azərbaycan dairələrin ölkəmizin dünya birliyinə inteqrasiyasının qarşısını almaq cəhdləri tamamilə iflasa uğrayacaqdır.

✍ **Əhməd Məmmədov,**
***"İki sahil"***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.*

# "Azəriqaz"da Mülki Müdafiə Günü







**Azərbaycanın üzv olduğu Beynəlxalq Mülki Müdafiə Təşkilatının təşəbbüsü ilə 1 mart - Ümumdünya Mülki Müdafiə Günü ilə bağlı hər il üzv dövlətlərin ərazisindəki müvafiq idarə və müəssisələrdə tədbirlər keçirilir.**

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin (İB) Bakı Regional Qazın Satışı Departementi və Layihə Konstruktor Bürosunda 1 mart - Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar "Fövqəladə hallarda davranış qaydalarına düzgün əməl edilməsi və təhlükəsizliyin təmini hər bir işçinin məsuliyyətinin tərkib hissəsidir" mövzusunda tədbir keçirilib.

"Həyəcan siqnalı"nın verilməsi ilə başlanmış tədbirdə yanğın, qəza, fövqəladə hallar zamanı işçilərin binanı tərk etməsində funksional vəzifələrinin icrasına baxış keçirilib.

Birliyin Bakı Regional Qazın Satışı Departamentinin rəisi Zehin Rəsulov bildirib ki, fövqəladə hallardan mühafizə sahəsində əhalinin hazırlığını təmin etmək mülki müdafiə orqanları qarsında duran əsas vəzifələrdəndir və fövqəladə halların qarşısının alınması istiqamətində biliklər daim təkmilləşdirilməlidir. Birliyin Mülki müdafiə qərargahının rəisi Eltəkin Qurbanov mülki müdafiə sisteminin işindən, bu sahədə həyata keçirilən tədbirlərdən söz açaraq "Fövqəladə hallarda davranış qaydalarına düzgün əməl edilməsi və təhlükəsizliyin təmini hər bir işçinin məsuliyyətinin tərkib hissəsidir" mövzusunda geniş mühazirə oxuyub.

Tədbirdə Məxfi rejim və hərbi səfərbərlik şöbəsinin böyük mühəndisi Nizami Abışov müvafiq mövzuda çıxış etdikdən sonra, mövzuya uyğun maarifləndirici videomateriallar nümayiş etdirilib. Adı çəkilən Departamentin inzibati binasının I mərtəbəsinin foyesində fərdi mühafizə vasitələrinin və kimyəvi ölçü cihazlarının sərgisi təşkil edilib. Təxliyyə zamanı işçilərdən zədə və xəsarət alan olmayıb.

# *Polkovnik:* Tonoyan özünün sayıqladıqlarına özü inanırmı?



"Əvvəla onu deyim ki, Ermənistanın müdafiə naziri David Tonoyanın söylədikləri cəfəngiyatdan başqa bir şey deyil. O da Ermənistanın baş naziri Nikol Paşinyan kimi populist bəyanatlar verməklə erməni ictimaiyyətini aldatmaqla məşğuldur. Bu mənada deyərdim ki, hətta David Tonoyan dediklərinə heç özü də inanmır". **Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov Ermənistanın müdafiə naziri David Tonayanın yerli media vasitəsilə çıxış edərək ölkəsinin hərbi strategiyasının müdafiədən hücuma dəyişməsi ilə bağlı verdiyi bəyanatını şərh edərkən söylədi.**

Bildirdi ki, işğalçı ölkənin müdafiə nazirinin belə açıqlama verməsi təsadüfi deyil: "Son illər hərbi büdcəmizin artması ilə əlaqədar Azərbaycan Silahlı Qüvvələrinin silah-sursat təchizatında əsaslı dəyişikliklər olub. Yəni, ordumuz daha da modernləşib, öz qüdrətini daha da artırıb və bu istiqamətdə işlər davam etdirilir.

Üstəlik, gündən-günə inkişaf edən ölkəmizdə müasir silahlar istehsal olunur. Təbii ki, torpaqları erməni daşnaklarının işğalı altında olan ölkə üçün bu sahəyə belə diqqət ayırılması başadüşüləndir. Digər tərəfdən, Prezidentimiz İlham Əliyev Dağlıq Qarabağla bağlı mövqeyimizin dəyişmədiyini dəfələrlə bəyan edib. Amma işğalçılıq siyasəti nəticəsində iqtisadiyyatı çökmüş Ermənistanın öz ordusunu gücləndirməyə heç bir iqtisadi imkanı yoxdur. Qeyd edim ki, beynəlxalq nüfuzlu qurumların hesablamalarına görə hazırda güc baxımından müqayisədə Ermənistan ordusu Azərbaycan ordusundan 30 pillə geridədir. Bu isə o deməkdir ki, Azərbaycan Ordusu bütün istiqamətlərdə erməni ordusundan müqayisəedilməz dərəcədə üstündür. Təbii ki, David Tonoyan da bu həqiqəti yaxşı dərk edir. Odur ki, belə bəyanatlar verməklə sadə erməni xalqını sakitləşdirməyə çalışır".

Həmsöhbətimiz vurğuladı ki, həm Ali Baş Komandanın, həm də müdafiə naziri general-polkovnik Zakir Həsənovun əsgər və zabitlərimizlə mütəmadi olaraq görüşmələri, onların qayğısı ilə maraqlanmaları hərbçilərimizdə döyüş, vətənpərvərlik ruhunu daha da artırır: "Maddi-texniki bazası və döyüş qabiliyyəti yüksək olan ordunun qələbələri də çox olur. Amma Ermənistan ordusunda vəziyyət tamamilə başqadır. Erməni mətbuatına əsasən, təkcə bir faktı deyim ki, işğalçı ölkədə hər il 10 mindən çox gənc hərbi xidmətdən yayınır. Onların Müdafiə Nazirliyində rüşvət baş alıb gedir. Yaxud baş nazir Nikol Paşinyan özü əsgər və zabitlərə verilən ərzaqdan, geyimdən şikayətlənirsə, hansı hücumdan danışmaq olar? Olmaya Ermənistan ağlaya-ağlaya, əgər belə demək mümkünsə, ikinci əldən aldığı köhnə silahlarına arxalanır? Digər tərəfdən, David Tonoyan "Su-30"-lardan danışır. Halbuki ermənilər həmin qırıcı təyyarələrə sahib deyillər. Onları əldə edib-etməyəcəkləri hələ sual altındadır. Ermənistanda heç onları idarə edən kadrlar - pilotlar da yoxdur. Müdafiə naziri belə bəyanat verirsə, nəyə isə əsaslanmalıdır. Bu mənada, o, olmayan şeylərdən danışır. Hətta "Su-30"lar onlara veriləcək halda belə heç nə dəyişməyəcək. Çünki ölkəmizin aldığı yeni nəsil hava hücumundan müdafiə sistemləri hər hansı uçan obyekti zərərsizləşdirməyə qadirdir. Hətta bu gün Azərbaycan Ordusunun arsenalında yer alan döyüş vasitələri Ermənistanın ərazisində, cəbhənin dərinliklərindəki istənilən hədəfi dəqiqliklə məhv etməyə imkan verir. Yeri gəlmişkən, hərbinin belə bir strategiyası var: hücum edən tərəf müdafiə olunan tərəfdən bir neçə dəfə güclü olmalıdır. Ərz etdiyim kimi, onlar belə gücə malik deyillər. Bu mənada David Tonoyanın həmin açıqlaması həm də onun hərbi strategiyadan heç bir anlayışı olmadığını bir daha ortaya qoyur".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Erməni anaları nə istəyir?



**Sevinc Azadi**

İqtisadi problemlərlə yanaşı, diplomatik sahədə üzləşilən uğursuzluq rəsmi İrəvan üçün sözün həqiqi mənasında ciddi problemlərə yol açıb. Bütün bunların üzərinə orduda yeni-yeni problemlərin meydana gəlməsini də əlavə etsək baş Nazir Nikol Paşinyanın çox ciddi sınaq qarşısında qaldığını deyə bilərik. Məsələ ondadır ki, son vaxtlar Ermənistan ordusunda ölüm hallarının sayında ciddi şəkildə artım müşahidə edilir. 2016-cı ilin aprelindən sonra Qarabağ cəbhəsində heç bir genişmiqyaslı hərbi əməliyyatın, qoşunların qarşıdurması hadisəsinin baş verməsinə baxmayaraq, işğalçı ölkədə əsgər ölümlərinin sayında artım qeydə alınıb. Bu fakt isə öz-özlüyündə əsgər analarının Paşinyan hakimiyyətinə qarşı etirazları artırıb. Düzdür, rəsmi rəqəmlərdə Ermənistandakı əsgər ölümlərinin sayı mümkün qədər az göstərilməyə çalışılsa da, ölüm halları ört-basdır edilməyə cəhd göstərilsə də, bir sıra beynəlxalq təşkilatların apardıqları araşdırmalar bunun əksini söyləyir. İşğalçı ölkədəki əsgər ölümləri ilə bağlı açıqlanan statistik göstəricilər də deyilənləri təsdiqləyir. Belə ki, 2018-ci ildə Ermənistan ordusunun 63 hərbçisi müxtəlif şəraitlərdə ölüb. Onların 27-si əsgər, 23-ü müqavilə əsasında xidmət edən hərbçi, 2-si gizir, 11-i isə zabitdir. Ölüm hallarının 38-i xidmət zamanı, 25-i isə xidmətdənkənar baş verib. 11 əsgər isə ağır mənəvi-psixoloji təzyiqlərə dözməyərək intihar edib.

Bu səbəbdən də Ermənistan ordusunda dinc dövrdə ölən hərbçilərin anaları ötən gün təkrarən Ermənistan hökuməti binası qarşısında etiraz aksiyası keçiriblər. Onlar Ermənistanın baş naziri Nikol Paşinyanla görüş tələb ediblər. Yaxın gələcəkdə dinc dövrdə orduda ölən erməni hərbçilərlə bağlı 5 qalmaqallı cinayət işlərinə yenidən baxılacağına dair hökumətin açıqlama verməsinə baxmayaraq, ölən hərbi qulluqçuların anaları hesab edirlər ki, uzun illər keçən cinayət işlərinin istintaqı müstəntiqlər tərəfindən ədalətli həll edilə bilməyəcək.

Dinc dövrdə ölən hərbi qulluqçu Valerik Muradyanın anası Nana Muradyana İstintaq komitəsində müstəntiq bildirib ki, 9 il sonra sübutlar məhv edildiyindən cinayət işinin üstünün açılması çətindir. "9 il keçib. İlkin izlər itirilib, əşya sübutlar məhv edilib, iş qarışıq hala düşüb. 9 il sonra mən bu işi necə araşdırım?", - deyə o, müstəntiqin sözlərini xatırladaraq etiraz edib. Nana Muradyan təkid edir ki, cinayət işini araşdıran birinci müstəntiq Apresyan cinayəti gizlətməsinə görə cinayət məsuliyyətinə cəlb edilməlidir.

Qeyd edək ki, Ermənistanda əsgər anaları indiyədək dəfələrlə etiraz aksiyaları keçiriblər. Hərbçilərin ailə üzvləri bildirirlər ki, heç kim onların sosial durumu, ehtiyacları barədə maraqlanmır. Hökumət nümayəndələri həlak olmuş əsgərlərin valideynlərinin, ailə üzvlərinin taleyinə biganədir.

Xüsusi vurğulamaq yerinə düşər ki, Azərbaycan və Ermənistan arasında 1994-cü il mayın 12-də Bişkekdə qoşunların təmas xətti üzrə atəşkəs barədə imzalanmış ikitərəfli razılaşmaya baxmayaraq, erməni tərəfi anlaşmanı pozur və əsgərlər yenə də həlak olurlar. Əgər Azərbaycanın Müdafiə Nazirliyi öz itkilərini söyləyirsə, Ermənistanda həlak olanların sayı əsaslı surətdə aşağı salınır. Son 20 il ərzində özgə torpağı üçün ölmək istəməyən erməni gənc əsgərlər fəal şəkildə Ermənistan-Azərbaycan cəbhəsinin xəttini keçirlər. Erməni əsgərləri bu hərəkətlərini nizam-intizamın olmaması, öz ordularında hökm sürən aclıq və baxımsızlıqla izah edirlər. Bu vəziyyətdən çıxış yolunu onlar özlərini tam təhlükəsizliyin gözlədiyi Azərbaycana qaçışda görürlər. Azərbaycandan Beynəlxalq Qırmızı Xaç Komitəsinin köməyi ilə erməni əsgərləri öz istəkləri ilə Avropaya və ya ABŞ-a keçirlər. Nə qədər ki, Ermənistan Azərbaycana qarşı işğalçı siyasətini davam etdirir, Azərbaycan və erməni qoşunlarının təmas xəttində gərginlik azalmayacaq. Erməni tərəfi daim atəşkəs rejimini pozaraq, müxtəlif təxribatlar törədərək, bu hadisələrə görə məsuliyyəti Azərbaycan tərəfinin üzərinə atmağa çalışır. Atəşkəs rejiminin gündəlik pozulması və itkilərin olması status-kvonun qəbuledilməzliyinin göstəricisidir ki, bu da əbədi davam edə bilməz, baxmayaraq ki, Ermənistanın rəhbərliyi əsaslı surətdə status-kvonun qalmasına çalışır. 2016-cı ilin dörd günlük aprel döyüşləri bütün erməni təxribatlarına layiqli cavab oldu və ermənilər arasında "məğlubedilməz erməni ordusu" mifini puça çıxardı ki, bu da bir daha erməni analarını öz oğullarını "özgə torpaqları uğrunda vuruşmağa göndərməyə dəyərmi?!" deyə düşünməyə vadar edir.



# Başıpozuq dəstənin klassik taktikası

**Cavid Əkbərov**

Son günlərdə Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı bir sıra mühüm Fərman və sərəncamlar imzalayıb. Hər zaman düşmən dəyirmanına su tökən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, həmçinin bir qrup "siyasi mühacir" isə sosial şəbəkələrdə özlərinin ənənəvi amplualarında qalaraq nankorcasına bu addımların məhz müxalifətin 19 yanvar mitinqinin təsiri ilə atıldığını iddia edirlər.

Bu gün Azərbaycanda özünü müxalifət adlandıran bir sıra qruplaşmalar, birmənalı şəkildə xaricdə fəaliyyət göstərən, özünü mühacir siyasətçi hesab edən insanlar və eyni zamanda, anti-Azərbaycan qüvvələr var. Həmin nankorlar tərəfindən Azərbaycana qarşı böyük maxinasiyalar qurulub. Bunların hamısının strategiyası demək olar ki, bir-biri ilə eynidir. Yəni söhbət burada ondan gedir ki, bu insanlar əvvəla bir problemdən danışmağa başlayırlar. Sonra görürlər ki, dövlət həmin problemi həll etdi. Buna görə də deməyə söz qalmayanda nankorcasına bildirirlər ki, biz dediyimizə görə dövlət həll edir. Yəni bu, başıpozuq müxalif dəstənin klassik taktikasıdır. Ona görə də bu taktikanın heç bir əhəmiyyəti yoxdur. Necə deyərlər, suda boğulan saman çöpündən yapışar. Bunun başqa bir adı yoxdur.

Məsələnin daha vacib və strateji tərəfləri var. Ümumiyyətlə, qısa bir nümunə gətirək. Əli Kərimli və onun dəstəsi sosial şəbəkələrdə çıxışlar edərək qeyd edirlər ki, biz yanvarın 19-da mitinq keçirdik. Buna görə də Prezident İlham Əliyev şəhid ailələrini himayəsinə götürdü, onların problemlərini həll etdi. Həmçinin bildirirlər ki, mitinq keçirdiyimizə görə ölkə başçısı İlham Əliyev "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" Sərəncam, "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb. Heç şübhəsiz ki, cənab Prezident İlham Əliyevin şəhid ailələri və məcburi köçkünlərlə bağlı verdiyi Fərman və sərəncamlar, onlara göstərdiyi diqqət və qayğı hamıya yaxşı məlumdur. Dövlət başçısı İlham Əliyev artıq uzun illərdir ki, daimi olaraq əhalinin sosial müdafiəsi ilə bağlı müxtəlif qərarlar, fərmanlar və sərəncamlar verib.

Ölkə başçısı İlham Əliyev hər bir şəhid ailəsinə 11 min manat birdəfəlik sığortanın ödənilməsi ilə bağlı qərarını son prezident seçkilərindən dərhal sonra imzaladığı ilk Fərmanla bəyan etmişdi. Təbii ki, bütün bu vədləri icra etmək üçün müəyyən qədər vaxt lazım gəlir. Çünki bu qərarların icra olunması mexanizmləri, maliyyə tərəfləri var. Bu mənada vaxt lazımdır. O vaxt yetişəndən sonra artıq həmin qərarların əsasında proses həyata keçirilir və reallaşdırılmış olur.

Biz bu günlərdə bir neçə il bundan əvvəl cənab Prezident İlham Əliyevin verdiyi vədlərin icrasını görürük. Yəni belə olan təqdirdə müxalifətin hər hansı bir formada "biz dediyimizə görə elədilər" tipli bəyanatları sadəcə olaraq ürək bulandırmaqdan başqa bir niyyət daşımır.

# Dünyanın ən şirin sözü - Vətən!

**Qədim xalq rəvayətində deyilir ki, qəribliyə düşmüş bülbül hər gün bir gülün budağında oturub:- ay Vətən, ay Vətən!-deyə ah-zar eləyirdi. Uzaq yollar keçib Vətən torpağına yetişən kimi bir qaratikan kolunun üstünə qonub şaqraq səslə oxudu:-Can Vətən! Can Vətən!**





Ulu babalarımızın məşhur kəlamı var: "Vətənə gəldim, imana gəldim."

İndiyədək Vətənin, torpağın, yurdun müqəddəsliyi haqqında saysız-hesabsız əsərlər yazılıb. Vətən niyə şirindir? Bir cavabı var: çünki hamımız həmin torpaqdan yaranmışıq. Biz azərbaycanlılar bir çox xalqlardan fərqli olaraq öz torpağımıza möhkəm bağlıyıq. Torpağımız bizə o qədər əzizdir ki, hətta öləndə də yalnız öz torpağımızda uyumaq istəyirik. "Axırıncı aşırım" kinofilmində mənfi qəhrəman kimi təqdim edilən Qəmlo 1930-cu ildə Sovet rejiminin zülmlərindən yaxa qurtarmaq üçün Kərbəlayi İsmayılla birgə qardaş Türkiyəyə qaçıb. Orada bir müddət yaşayıb. Bir gün yığışıb Qərbi Azərbaycana-doğma kəndinə gedəcəyini deyəndə ona xatırladırlar ki, bolşeviklər səni öldürərlər, getmə. Qəmlo cavabında deyir ki, heç olmasa öz torpağımda ölərəm. O öz kəndinə gəlir, lakin günlərin birində onu tələyə salıb öldürürlər, Vətən torpağında dəfn edilir...

Vətən bizə nə qədər şirin olsa da, ancaq taleyin qisməti də var, yəni bəziləri müxtəlif səbəblərdən ondan ya müvəqqəti, ya da əbədilik ayrı düşməli olub. Bəziləri təhsil almaq, bəziləri işləmək, bəziləri yaşamaq üçün, bəziləri isə siyasi əqidəsinə görə xarici ölkələrə getməli olublar.

Pakistan prezidenti olmuş azərbaycanlı Ağa Məhəmməd Yəhya xan 1738-ci ildə Azərbaycandan Nadir şahla bu ölkəyə gələn xanlardan birinin nəslindəndir. Qızılbaş tayfasından olan Yəhya xan 1917-ci ildə Pəncab vilayətinin Qasur şəhərində anadan olub. Yəhya xan ali hərbi təhsil aldıqdan sonra orduda yüksək vəzifələr tutub. General-leytenant rütbəsinə irəli çəkilib. İstedadlı sərkərdə kimi tanınıb və 1958-1962-ci illərdə Pakistan Silahlı Qüvvələri Baş Qərargahının rəisi, quru qoşunlarının komandanı vəzifələrinə yüksəlib. 1969-cu ilin martında dövlət başçısı Əyyub xan istefa verdikdən sonra isə Pakistan prezidenti vəzifəsini icra edib. Lakin 1971-ci ilin dekabr ayında müxalif qüvvələrin təzyiqi altında vəzifəsindən uzaqlaşıb. Yeni dövlət başçısı Ağa Məhəmməd Yəhya xanın xalq arasındakı nüfuzundan çəkinərək onu həbs etdirib. Həbsxanada olarkən infarkt keçirərək iflic olan Ağa Məhəmməd Yəhya xan yalnız bundan sonra sərbəst buraxılıb. Ancaq çox keçmədən Yəhya xan 1980-ci il avqustun 10-da Ravalpindi şəhərində vəfat edib.

Sovet hakimiyyətini qəbul etməyən bir çoxları da xaricdə yaşamağa qərar veriblər. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından və qurucularından olan Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Parlamentin ilk sədri Əlimərdan bəy Topçubaşov, müavini Həsən bəy Ağayev, Ceyhun Hacıbəyli, Əli bəy Hüseynzadə və bir çox başqaları siyasi əqidələrinə görə Vətəndən didərgin düşüblər. Onların demək olar ki, hamısı Vətəndən uzaqlarda son nəfəslərində "Azərbaycan, Azərbaycan!" söyləyərək əbədiyyətə qovuşublar.

Kəlbəcər rayonunun Zar kəndindən II Dünya müharibəsinə aparılan İsmayıl Hacıyev faşistlərlə döyüşlərdən birində əsir alınır. Onu ölkədən-ölkəyə aparıb ABŞ-a çıxarırlar və bir nəfər zəngin fabrikanta satırlar. Pəhləvan cüssəli İsmayıl tapşırılan bütün işləri o qədər dəqiq yerinə yetirir ki, fabrikantın ondan xoşu gəlir. Bir gün kabinetinə çağırtdırıb ona deyir ki, SSRİ-yə qayıtmaq barədə düşünmə. Ora qayıtsan bolşeviklər səni vətən xaini kimi güllələyəcəklər. Yaxşısı budur ki, gəl mənim qızımla evlən, gördüyün bu varidatı da sizə verim, xoşbəxt yaşayın. İsmayıl görür ki, kişi ona ağıllı yol göstərir. Razılaşıb onun yeganə övladı ilə ailə qurur.

1970-ci ildə İsmayıl Hacıyev turist kimi Azərbaycana gəlmişdi. Mən onu Kəlbəcər rayonunun "Tunel" deyilən bir obasında gördüm. Özü Şamil Dəlidağlıya söhbət eləyirdi ki, varım-dövlətim başımdan aşır, ancaq Kəlbəcərin bir qara daşını heç bir qızıla-brilyanta dəyişmərəm. Mənim yeganə arzum doğma kəndimə qayıtmaq və burada ölməkdir.

Azərbaycan ikinci dəfə müstəqillik qazanandan sonra İsmayıl Hacıyev həmişəlik Azərbaycana-doğulduğu Zar kəndinə gəldi. Ancaq çox yaşamadı, Kəlbəcər işğal edilməzdən bir neçə ay əvvəl vəfat etdi və canından da artıq sevdiyi torpağa tapşırıldı.

SSRİ dağılandan sonra bir çox azərbaycanlılar bizneslərini qurmaq məqsədilə dünyanın müxtəlif ölkələrinə səpələniblər. Təhsilini artırmağa və daimi yaşamağa gedənlərin sayı daha da artıb. Fərəhli faktdır ki, indi ABŞ-da, Rusiyada, Fransada, Ukraynada, Litvada, Türkiyədə, Almaniyada, Norveçdə və dünyanın bir çox ölkələrində, nüfuzlu beynəlxalq təşkilatlarda çalışan həmvətənlərimiz yüksək vəzifələrə irəli çəkilirlər.

Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazanandan sonra xaricdə yaşayan həmvətənlərimizin təşkilatlanması, diaspora cəlb olunması, ölkəmizi ləyaqətlə təmsil etmələri, Azərbaycanın mənafelərinin müdafiə olunması qarşıda vacib məsələ kimi durdu. Ümummilli liderimiz Heydər Əliyev diaspor quruculuğuna böyük əhəmiyyət verir, azərbaycanlıların vahid təşkilatda birləşmələrinə çalışırdı.

Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi özünün 16 dekabr 1991-ci il tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Azərbaycan SSR Ali Soveti həmin günün bayram edilməsini öz qərarı ilə rəsmiləşdirdi. Həmin ildən başlayaraq Azərbaycanda dekabrın 31-i ümumxalq bayramı kimi qeyd edilir. O gündən sonra diaspor quruculuğu işi dövlətimizin prioritetlərindən birinə çevrilib.

Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların biri-birləri ilə əlaqə yaratmaq, yaxınlaşmaq, problemləri birgə həll etmək, qarşılıqlı faydalanmaq, Azərbaycanın müstəqilliyini daha da inkişaf etdirmək istiqamətində səylərin birləşdirilməsində ulu öndərimiz Heydər Əliyevin 26 dekabr 2000-ci il tarixli Dünya azərbaycanlılarına müraciəti mühüm əhəmiyyət kəsb edir. Müraciətdə deyilir: "Artıq 10 ildir ki, 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dövlət bayramı kimi Azərbaycan Respublikasının vətəndaşları və dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız tərəfindən təntənəli şəkildə qeyd edilir. Hər bir azərbaycanlı üçün vacib olan birlik və həmrəylik xalqımızın milli şüurunun güclənməsinin və azadlıq mübarizəsinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Bu bayram qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirir, hər bir azərbaycanlını öz tarixi Vətəni, milli varlığı, ölkəsinin və soydaşlarının taleyi üçün düşünməyə dəvət edir."

Bu gün fərəhlə qeyd edə bilərik ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi on beş ildə xarici ölkələrdəki həmvətənlərimiz diaspor təşkilatlarında sıx birləşiblər. Onlar hər hansı problemin qaldırılmasında və ya həllində həmrəylik nümayiş etdirirlər. Keçirdikləri tədbirlər nəticəsində Azərbaycanın mövqelərini xeyli gücləndirir, Dağlıq Qarabağ münaqişəsində haqlı olduğumuzu, ərazilərimizin Ermənistan tərəfindən zorakılıqla işğal edilməsini, erməni quldurlarının havadarlarının köməyi ilə Xocalı soyqırımını və digər faciələri törətmələrini dünya xalqlarına aşılayırlar. Bu tədbirlər nəticəsində dünya xalqları bizim haqq işimizdən xəbərdar olur və ölkəmizin dostlarının sayı getdikcə artır. Dünya mətbuatında Azərbaycan haqqında vaxtaşırı verilən məlumatlar, xüsusilə xarici ölkə vətəndaşlarının, siyasətçilərin, politoloqların müsbət rəyləri mövqeyimizi daha da gücləndirir. Tanınmış şəxslərin Azərbaycana səfərlərinin təşkili də böyük effekt verməkdədir. Onlar qayıdıb öz ölkələrində və ya beynəlxalq tribunalarda Azərbaycan həqiqətlərini açıq göstərirlər. Nəticədə ermənilərin yüz illərlə barəmizdə yaydıqları yalan informasiyalar puça çıxır. Bizim və ermənilərin haqqında olan rəylər öz yerini xeyrimizə dəyişir. Ermənilərin vəhşilikləri, daim özgə torpaqlarına göz dikmələri, torpağında məskunlaşdıqları xalqlara zülm etmələri, xəyanətkarlıqları öz əksini tapır, bir sözlə, düşmənin məkrli sifətləri aşkara çıxır. Diasporumuzun fəaliyyətinin düzgün əlaqələndirilməsinin nəticəsidir ki, ermənilər ABŞ-da Ağ evə daha yaxın düşə bilmirlər. Prezident Donald Tramp onları həndəvərinə belə buraxmır. Azərbaycan diasporu dünyanın super dövlətində erməni lobbisini "künc"ə sıxışdıraraq əl-qol açmasına imkan vermir. Diasporumuzun fəallaşması Ermənistanı və onun diaspor təşkilatlarının əl-qolunu bağlamaqdadır, bu isə təbii ki, onları narahat edir. Yüz illərlə əldə saxladıqları mövqelərinin əllərindən çıxması üzləşəcəkləri fəlakətlərdən xəbər verir. Vəziyyətin bu cür dəyişməsi Ermənistanda təşviş yaradır. Artıq diasporla Ermənistan hakimiyyəti arasında inamsızlıq və soyuqluq var. Diaspor İrəvana kömək etmək istəmir, biri-birilərinə qarşılıqlı ittihamlar irəli sürürlər. By faktlar onu göstərir ki, xaricdəki həmvətənlərimiz bir ordunun gərəcəyi işi görürlər.

Bir neçə gün əvvəl Belçikada, Almaniyada, ABŞ-da, Fransada, İngiltərədə, Türkiyədə, Litvada, Latviyada, Belarusda, Ukraynada və dünyanın bir çox ölkələrində Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar izdihamlı aksiyalar keçirildi. Həmin mitinqlərdə, piketlərdə, nümayişlərdə, yığıncaqlarda həmvətənlərimiz Xocalıya ədalət tələb etdilər. Plakatlarda və taransparantlarda Ermənistanı törətdiyi cinayətlərə görə cavab verməli olduğunu bildirdilər. Azərbaycanın daxilində olduğu kimi, xaricdə də həmvətənlərimizin Prezident İlham Əliyevin ətrafında sıx birləşdiklərinin şahidi olduq. Bu, Azərbaycan diasporunun yaxşı təşkilatlanmasından və gücündən xəbər verir. Diasporumuzun ABŞ-da və dünyanın bir çox ölkələrində erməni diasporunu üstələməsi dediklərimizin əyani sübutudur. ABŞ-ın 22 ştatının Xocalı soyqırımını rəsmən tanıması diasporumuzun səmərəli və məqsədyönlü fəaliyyətinin nəticəsində mümkün olub. Ancaq diasporumuz öz gücünü getdikcə artırır və qarşıya qoyulan hədəflərə çatır, vaxt keçdikcə dünya Azərbaycan həqiqətlərini daha səhih öyrənir. Bizim isə başlıca məqsədimiz əsl həqiqətlərin xalqlara çatdırılmasıdır. Bu istiqamətdə qazanılan uğurlar xalqımızı sevindirir, düşmənlərimizin isə bağrını yarır.

**Vəli İlyasov,**
***"İki sahil"***

***Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim olunur.***

# Pirkəkədə görüş

**Yeni Azərbaycan Partiyası (YAP) Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanov martın 1-də rayonun Pirkəkə kəndinin sakinləri ilə görüşüb.**



Son illər ərzində Azərbaycanda həyata keçirilən uğurlu siyasətdən söhbət açan C.Osmanov bildirib ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, ölkəmiz cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müstəqil siyasət apararaq Azərbaycan xalqının maraqlarını hər zaman müdafiə etsin. Ölkəmizdə beynəlxalq layihələrlə yanaşı, ölkə daxilində həyata keçirilən sosial, aqrar və sənaye layihələrinin də uğurla icra edildiyi görüş iştirakçılarının diqqətinə çatdırılıb. Son günlər ərzində imzalanan Fərman və sərəncamlara diqqət çəkən Cavid Osmanov qeyd edib ki, qəbul olunan bu sənədlərin hər biri sosialyönümlüdür və cənab Prezidentimizin ölkə vətəndaşlarının sosial rifah halının daim yaxşılaşdırılması üçün həyata keçirdiyi tədbirlərin bariz göstəricisidir.

Azərbaycanın hər bir bölgəsi kimi, Ağdaş rayonunun da son illərdə bu inkişafdan yararlandığını və bunun rayonun gündəlik həyatında da hiss olunduğunu qeyd edən Milli Məclisin deputatı ölkədə kənd yollarının çəkilməsindən, Pirkəkə kəndinin də bu uğurlu layihədən yararlandığından söhbət açıb.

C.Osmanov son dövrlərdə antiazərbaycan dairələrin və ermənipərəst qüvvələrin ölkəmizə qarşı iyrənc kampaniyalar aparmaq niyyətində olduqları haqqında da görüş iştirakçılarına məlumat verib.

Görüşdə çıxış edənlər Bəhlul Məmmədov, Ziyafət İsayeva, Fərman İsayev, Midanzadə İsmayılov və Mirzə Qarayev bildiriblər ki, ölkəmiz son dövrlər sürətli inkişaf mərhələsinə qədəm qoyub və insanların sabitlik, əmin-amanlıq şəraitində yaşaması, dövlət tərəfindən bütün problemlərin zamanında həll edilməsi onların üreyincədir. Ölkə başçısının problemli kreditlərlə bağlı imzaladığı Fərmanın isə kənd sakinlərində böyük sevinc hissləri yaşatdığını xüsusi qeyd ediblər.

Sonda Cavid Osmanov seçiciləri maraqlandıran sualları cavablandırıb, şəxsi müraciətləri ilə əlaqədar kənd sakinlərinin bir qrupu ilə fərdi söhbət edib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# MUXTAR RESPUBLİKADA ƏHALİNİN SAYI 456 MİNİ ÖTÜB

Bu il yanvarın 1-nə muxtar respublikada əhalinin sayı 2008-ci ilin sonu ilə müqayisədə 58 min 746 nəfər artaraq 456 min 93 nəfər olub.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, əhalinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edib. Əhalinin 29,5 faizi şəhər, 70,5 faizi isə kənd yerlərində yaşayır. Muxtar respublikada bir kvadratkilometrə düşən əhalinin sayı 83 nəfər olub ki, bu da 2008-ci ilin sonu ilə müqayisədə 11 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı Naxçıvan şəhərində bir kvadratkilometrə 489 nəfər düşür.

2018-ci ildə muxtar respublikada 5305 doğum qeydə alınıb, doğulanların 2795 nəfərini və ya 52,7 faizini oğlanlar, 2510 nəfərini və ya 47,3 faizini isə qızlar təşkil edib. Doğulanlardan 52-si əkiz, 1-i üçəm olub. 2018-ci ildə muxtar respublikada doğulan oğlanlarda Yusif, Əli, Məhəmməd, Hüseyn və Uğur, qızlarda isə Zəhra, Fatimə, Zeynəb, Damla və Məryəm adları üstünlük təşkil edib. Ümumilikdə, son 10 ildə muxtar respublikada 79 min 410 uşaq doğulub.

Ötən il muxtar respublikada 2600 nikah bağlanıb, nikaha girənlərdə orta yaş həddi kişilərdə 28 yaş, qadınlarda isə 23,6 yaş təşkil edib. 2009-cu ildən 1 yanvar 2019-cu il tarixə muxtar respublikada 30 min 471 nikah qeydə alınıb.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm göstəricisini aşağı salıb. Belə ki, əgər 2008-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfərinə hesabı ilə 5,6 nəfər olubsa, hazırda bu göstərici 4,5 nəfər təşkil edir.

Yanvarın 1-nə muxtar respublikada gənclərin sayı 140 min 477 nəfərə çatıb ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edib.

Muxtar respublikada əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu daha geniş məlumatların əldə edilməsi məqsədilə növbəti siyahıyaalma cari il oktyabrın 1-dən 10-dək keçiriləcək.

# *Azər Həsrət:* Dağıdıcı qüvvələrin cəfəng fikirlərinə əhəmiyyət verməyə dəyməz



İllərdir düşmən dəyirmanına su tökən dağıdıcı müxalifətin ayrı-ayrı dövlətlərin xüsusi xidmət orqanlarının, beynəlxalq təşkilatların əlaltısına, buyruqçusuna çevrilməsi dəfələrlə sübuta yetirilib. Xocalı soyqırımı, bir milyondan artıq soydaşlarımızın qaçqın və məcburi köçkün düşməsi, dinc sakinlərimizin, körpə balalarımızın düşmən gülləsinə tuş gəlməsi barədə xaricdəki ağalarına bir kəlmə belə deməyən məlunların sosial şəbəkələrdəki "qəhrəmanlığı" ikrah doğurmaya bilməz. Cılız "qəhrəmanların" sosial şəbəkələrdə "xalq", "vətən", "millət", "Qarabağ" kimi şüarlarla cəmiyyəti aldatması isə lap ikrahedicidir. Bu işbazlar ancaq ölkədə hər hansı bir əlamətdar tarixi hadisə və yaxud beynəlxalq tədbirlər zamanı quyruq bulayırlar. Başqa vaxtlarda isə "Sem dayı"nın atdığı sümük ilə günlərini başa vururlar. Radikal müxalifət funksionerləri özləri etiraf etməyə məcbur oldular ki, onların "liderləri" cəmiyyətə heç bir faydalı təklif verə bilmirlər. İllərdir bir faydalı əməklə məşğul olmayan bu məlunlar ancaq ermənipərəst qüvvələrin ayırdıqları sədəqələr ilə antifəaliyyətlə məşğul olublar. Fəaliyyətlərini isə pərdələmək üçün görülən işləri öz adlarına belə çıxarmaqdan utanmırlar. Bu kimi iyrənc əməllər təbii ki, cəmiyyəti narahat etməyə bilməz.

**Siyasi şərhçi Azər Həsrət "İki sahil" qəzetinə açıqlamasında bildirdi:** "Həyata keçirilən islahatlar kiminsə mitinq etməsinə görə deyil. Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev və onun komandası kimlərsə, hardasa nəyəsə etiraz edir deyə addım atmırlar. Cənab Prezidentin hakimiyyətdə olduğu bütün dövr ərzində aydın və strateji hədəfli proqramı olub. O da həmin proqram çərçivəsində hərəkət edib. Bundan başqa, ölkə başçısı daim xalqla təmasdadır və sadə vətəndaşın problemlərini öz problemi kimi görür. Ona görə də ortaya çıxan problemləri mərhələ-mərhələ həll edir. İndi kimlərsə durub iddia edirsə ki, biz mitinq elədik, problemlər həll edildi, bu, cəfəngiyatdır. Örnək üçün elə son addımlara nəzər salaq. Əmək haqqı, təqaüdlərin artırılması, şəhid ailələrinə müavinətlərin verilməsi, şəhid və köçkün ailələrinin mənzillə təmin edilməsi prosesi məgər Əli Kərimli dəstəsinin 19 yanvar mitinqindən sonra həyata keçirilib? Bu, illərdir davam edən prosesdir. Problemli kreditlər məsələsi də həmçinin. Xeyli müddət idi ki, cənab Prezidentin tapşırığı ilə bu məsələnin həlli üçün uyğun çıxış yolu axtarılırdı. İndi həmin yol tapılıb, Fərman verilib. Yəni kredit məsələsinin də həlli üçün addımlar atılanda bu adamların 19 yanvar mitinqinin nəinki özü, heç ideyası belə yox idi. Ona görə də həmin dağıdıcı qüvvələrin cəfəng fikirlərinə əhəmiyyət verməyə dəyməz".

**Şəmsiyyə Əliqızı,**
***"İkisahil"***

# Zəmanəmizin manqurtu



**Qvami Məhəbbətoğlu**

Özünü hüquq müdafiəçisi kimi qələmə verən Vidadi İsgəndərli öz çirkin əməllərini ört-basdır etmək məqsədilə Avropaya - Fransaya qaçaraq "siyasi mühacir" adı altında bu ölkəyə sığındı. Sığınan kimi də bütün etik normaları aşmaqla və bununla da əxlaq səviyyəsinin aşağı olduğunu bir daha nümayiş etdirməklə ölkəmizə, eləcə də nüfuzlu ictimai-siyasi şəxslərə qarşı təhqirlər, hədyanlar yağdırmağa başladı. Bununla da anormal düşüncəyə sahib olan Vidadi İsgəndərli sosial şəbəkələrdə səsləndirdiyi fikirlərlə, söyüş və təhqir dolu videolarla havadarlarının daha çox "rəğbətini" qazandı. Onun öz ölkəsinə qarşı olan nifrətinin, düşmənçiliyinin artmasında getdikcə artırılan qrantlar da önəmli rol oynadı. Bu da ondan xəbər verir ki, Ermənistanın və erməni lobbisinin maraqlarına xidmət edən Vidadi İsgəndərli və onun kimiləri üçün milli heysiyyat, Vətən, xalq məfhumu havadarlarından aldığı qrantlarla müqayisədə çox dəyərsizdir. Şübhəsiz, belə xəyanət yolunu tutanlar ermənilər, ya da Avropadakı erməni təşkilatları ilə birbaşa bağlı olanlardır. Yeri gəlmişkən, qeyd edək ki, II Dünya müharibəsi dövründə faşistlər müxtəlif millətlərdən olan satqınları ətraflarına yığaraq onlardan müxtəlif şəkildə istifadə edirdilər. Bu gün isə ermənilər öz sələflərinin əməllərindən daha səmərəli şəkildə faydalanmaqdadırlar.

Satqınlığı, gizli təşkilatlarla əməkdaşlığı sübut olunan, yalan, böhtan söyləməklə rekordları qıran Vidadi İsgəndərli kimi Vətən xaininin torpağına, elinə, obasına qənim kəsilməsi bunlarla bitmir. O, atdığı "addımlar"ın siyasi rəngini get-gedə tündləşdirir. Vicdanını yadellilərə satan Vidadi İsgəndərli bu günlərdə terrorçulara xas olan fikirlər səsləndirməklə özünü də terrorist niyyətini ortaya qoyub. Belə ki, bu vətən xaini deyib: "Azərbaycan Prezidenti Qarabağda müharibə elan etsə, həmin silahı ermənilərə qarşı yox, Azərbaycan hakimiyyətinə qarşı istifadə edəcəyəm".

Bəribaşdan qeyd edək ki, belə bir xainin, simasızın "Azərbaycan Prezidenti" ifadəsini yad tikələrdən murdarlanmış ağzına alıb, çirkləndirməyə əsla haqqı yoxdur. İkincisi, Ermənistana və ermənipərəst dairələrə xidmət edən Vidadi İsgəndərlinin belə bir fikir söyləməsi onun erməni xislətindən irəli gəlir. Bu mənada bütün gününü Azərbaycan əleyhinə təbliğat aparan ermənipərəst dairələrlə keçirən bir kəsin, yeni Vidadi İsgəndərlinin belə "düşünməsi" heç də təəccüblü deyil. Amma Vidadi İsgəndərli unutmasın ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı beynəlxalq səviyyədə danışıqlar gedir. Əgər danışıqlar heç bir nəticə verməsə, o zaman Azərbaycan beynəlxalq hüquq normalarına əsaslanaraq öz torpaqlarını daşnaklardan azad edəcək. Artıq Azərbaycan Ordusu buna hazır vəziyyətədir və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrini gözləyir. O zaman sən Vidadi İsgəndərli isə silahdan ermənilərə qarşı yox, Azərbaycan hakimiyyətinə qarşı istifadə edəcəksən, eləmi? Amma unutma ki, Azərbaycan hakimiyyəti xalqa məxsusdur. Bu gün hakimiyyətlə xalq yekdildir. Bu isə o deməkdir ki, sən vətən xaini kimi öz xalqına ermənilərdən betər qənim kəsilmisən, hətta onun qanına susamısan. Səni isə bu rəzalətlərinə görə indiki və gələcək nəsillər nifrətlə yad edəcəklər. Üstəlik, xalqımız, dövlətimiz, ölkəmizin başçısına qarşı belə mövqe nümayiş etdirdiyinə görə qanun qarşısında cavab verməli olacaqsan.

Şübhəsiz, xaricdəki ermənipərəst dairələrin, eləcə də kəşfiyyat orqanlarının əlində alət kimi istifadə olunan Vidadi İsgəndərlini terrorçu kimi danışdıran, terrorçuluğa sövq edən, öz xalqına qarşı qaldıran aldığı və alacağı qrantlardır. Görünür işğalçı Ermənistanın xüsusi xidmət orqanları ilə birbaşa işləyən və xaricdə oturub guya Azərbaycanda demokratiya uğrunda "mübarizə apardığını" iddia edən bu qrant dəllalına yeni "layihə"dən daha çox məbləğ vəd olunub. Elə bir məbləğ ki, artıq həmin miqdar onu tamamilə manqurta - şüursuz köləyə çevirib.

*Ekspert:*

## Beynəlxalq sürücülük vəsiqəsi mövcud problemləri həll edəcək

Ölkə daxilində tanınan rəsmi sənədlərlə yanaşı, bir sıra sənədlər var ki, onların xaricdə də tanınması çox önəmlidir. Bu sənədlər sırasına sürücülük vəsiqələri də aiddir. Çünki xarici ölkələrdə olarkən belə avtomobil idarə etmək istəyənlər olur. Artıq bu ildən etibarən sürücülərin bu arzusu gerçəkləşəcək .

Azərbaycanda milli vəsiqəyə malik olan vətəndaşlar beynəlxalq sürücülük vəsiqəsi də əldə etməklə istənilən dövlətin ərazisində rahatlıqla avtomobil icarəyə götürə və idarə edə bilərlər. Belə vəsiqələr yalnız milli sürücülük vəsiqəsi olan, eləcə də ilk dəfə sürücülük hüququ əldə etmiş şəxslərə milli sürücülük vəsiqələri ilə eyni vaxtda verilə bilər. Milli sürücülük vəsiqəsi olmayanlar beynəlxalq vəsiqəni əldə edə bilməzlər. Çünki beynəlxalq sürücülük vəsiqəsini harasa təqdim etdikdə milli vəsiqə də mütləq təqdim olunmalıdır. Bunsuz beynəlxalq vəsiqənin heç bir hüququ qüvvəsi olmur.

Beynəlxalq sürücülük vəsiqələri nə dərəcə vacibdir?



**Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,** səyahətlər zamanı tanımadığımız sürücü ilə ünsiyyətdən yaranan psixoloji gərginlik hissi, sərbəst, asudə olmaq bir çoxlarımızın arzusu idi: "Bunun üçün ya avtomobil icarəyə götürmək və ya almaq lazımdır. Lakin bu istəyimizi gerçəkləşdirmək üçün əvvəlcədən tədbirli olmalıyıq. Beynəlxalq sürücülük vəsiqəsinə malik olmağımız isə bu işdə bizə kömək edə bilər. Dünyanın bir çox inkişaf etmiş dövlətlərinin təcrübəsində geniş yayılan Beynəlxalq sürücülük vəsiqəsi xarici dövlətlərdə avtomobil icarəyə götürərkən, avtomobillə Konvensiyaya üzv dövlətlərin ərazisindən keçərkən, birbaşa və ya tranzit yük və ya sərnişin daşımaları zamanı istifadə olunur və sahibinə ölkədən kənarda avtomobil idarə etməyə icazə verir."

"Sürücülük vəsiqələrində latın əlifbasında olmayan hərflərin işlənməsi, əsasən, Avropa ölkələrində olan sürücülərimiz üçün müəyyən problemlər yaradırdı. MDB ölkələrində isə bizim sürücülər üçün elə də ciddi problemlər olmayıb. Çünki sürücülük vəsiqələrimizi MDB ölkələrinin aidiyyəti strukturları, müəyyən mənada, tanıyırdı və qəbul edirdi. Amma sürücülərimiz üçün bir sıra Avropa dövlətlərində nəqliyyat vasitəsinin icarəyə götürülməsində, sığorta şəhadətnaməsinin alınmasında və digər məsələlərdə problemlər var idi. Dilimizdəki ə, ö, ü, ğ hərflərinin xarici dövlətlərdə çətin oxunması problemini həll edən Beynəlxalq sürücülük vəsiqəsi latın qrafikası ilə, eyni zamanda, ayrı-ayrı səhifələrdə alman, fransız, italyan, ingilis, Çin və sair, ümumilikdə, 8 dildə çap olunur. Vəsiqə sahibi barəsində məlumatlar isə vəsiqənin son səhifəsində ingilis dilində tərtib olunur. Beynəlxalq sürücülük vəsiqəsi milli sürücülük vəsiqəsi təqdim edildikdə etibarlıdır",- deyə ekspert bildirdi.

Azər Allahverənov Beynəlxalq sürücülük vəsiqəsini çox sadə üsulla əldə etməyin mümkün olduğunu qeyd etdi: "Beynəlxalq sürücülük vəsiqəsi əldə etmək istəyən vətəndaşlar Bakı Şəhəri Baş Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat İmtahan İdarəsinə, habelə Sumqayıt Regional Qeydiyyat İmtahan və Texniki Baxış Şöbəsinə şəxsiyyət vəsiqəsi, milli sürücülük vəsiqəsi, iki ədəd 3x4 ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət edə və qısa müddətdə ona yiyələnə bilərlər. Beynəlxalq sürücülük vəsiqəsi əldə etmək istəyən şəxslərdən sürücülük bacarıqlarını yoxlamaq üçün əlavə imtahandan keçmək tələb olunmur".

Ekspert, həmçinin əlavə etdi ki, beynəlxalq sürücülük vəsiqələrini almaq məcburi deyil: "Əslində belə vəsiqələr çox əhəmiyyətlidir. Xarici ölkələrdə səfərdə olan insanlar, xüsusən də uzunmüddətli gedənlər qayıdarkən istirahətdən deyil də, həmin ölkənin yol polisləri ilə aralarında yaranan narazılıqdan bəhs edirdilər. Artıq bu vəsiqələrin mövcudluğu imkan verir ki, yol polisi və əcnəbi sürücülər arasında sənədlərlə bağlı yaranan bütün problemlər öz həllini tapsın. Lakin bu, məcburi deyil, könüllü xarakter daşıyır. Kimlərin ehtiyacı varsa, onlar müraciət edərək ala bilərlər. Tez-tez xaricə səfər edənlər üçün bu vəsiqənin varlığı olduqca vacibdir. Fikrimcə, ziyanı yoxdur, əksinə xeyirdir."

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# GƏNC NƏSLƏ ÇAĞIRIŞ:
# milli ruhda, vətənpərvərlik ovqatında tərbiyə alın, dövlət maraqlarını, milli mənafeyi layiqincə qoruyun



Hər sahədə təcrübəsi nümunə olan Azərbaycan dövləti zamanın çağırışlarını yüksək səviyyədə cavablandırmağı, dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən təkmilləşməni, yeniləşməni həyata keçirdiyi siyasətin əsas xətti kimi qəbul edərək, davamlı inkişaf yolunda inamla irəliləyir. Hər dövrün öz tələbi olsa da, aktuallığını itirməyən, tarixin hər bir məhələsi üçün qəbul olunan çağırışlarımız da mövcuddur. Bunlardan ən ümdəsi gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin tərbiyəsidir. Müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyev bildirmişdir ki, gələcəyimiz indiki gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır. Gənclər öz ana dilinə, tarixinə, mədəniyyətinə hörmətlə yanaşmalı, milli mənəvi dəyərlərimizi qorumalı, daim inkişaf etdirməlidirlər. Bir mühüm məqamı da qeyd etmək yerinə düşər ki, bu gün sıralarında birləşən 700 mindən artıq üzvün 40 faizdən çoxunu gənclər təşkil edən Yeni Azərbaycan Partiyasının II qurultayının 2001-ci ilə- Azərbaycanın dövlət müstəqilliyinin yenidən bərpa olunmasının 10 illiyinə təsadüf etdiyini önə çəkən dahi şəxsiyyət Heydər Əliyev tədbirdə bu fikri xüsusi qeyd etmişdir ki, 1991-ci ildə 10 yaşı olan uşaq bu gün 20 yaşında gəncdir. Bu gəncin keçmiş dövr haqqında, Azərbaycanın müstəqillik yolunun nə qədər ağır dövrdən keçməsindən məlumatı yoxdur. Heydər Əliyev bugünkü və gələcək nəsillərə Azərbaycanın müstəqillik yolunun heç də hamar olmadığını, sınaqlardan üzüağ çıxaraq inkişafa, tərəqqiyə nail olduğunu əsaslı şəkildə çatdırmağı qarşıya mühüm vəzifə kimi qoymuşdur. Bu mühüm tələb gənc nəslin milli şurunun inkişaf etdirilməsində stimulverici rola malik idi. Bu fakt da inkaredilməzdir ki, Azərbaycanda gənclər siyasəti ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət hakimiyyətinin hər iki dövründə harda yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların vahid ideya-azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməsinə çağırış edir, bu günümüz və gələcəyimiz üçün möhkəm baza formalaşdırmışdır. Azərbaycan gənclərinin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərinə göndərilməsinin nə kimi əhəmiyyətə malik olduğunu bu günümüzdən dünənimizə baxış keçirdikdə daha aydın görürük. Ulu Öndər o zamanlarda Azərbaycanı gələcəkdə müstəqil dövlət kimi görərək, yüksək ixtisaslı kadrların yetişdirilməsini prioritet məsələ kimi öndə saxlayırdı. Bu, eyni zamanda, gənclərdə milli şüurun formalaşmasına, vətənpərvərlik hissinin daha da möhkəmlənməsinə öz müsbət təsirini göstərirdi. Bu kimi addımlar, eyni zamanda, Azərbaycanın təbliğinə xidmət idi. Məhz bu uğurlara söykənərək, Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpasından, daha dəqiq desək, ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra gənc nəslin azərbaycançılıq ruhunda formalaşması istiqamətində davamlı addımlar dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. Daim qeyd olunduğu kimi, əgər dahi şəxsiyyətin hakimiyyətinin birinci dövrü kadrların yetişdirilməsi ilə xarakterizə olunurdusa, ikinci hakimiyyəti dövründə gənclərin idarəçilik sistemində təmsil olunmaları əsas diqqət göstərilən məsələlərdən idi. Azərbaycan gəncləri onlara göstərilən diqqət və qayğını fəallıqlarını artırmaları, Azərbaycanın inkişafına töhfələri ilə cavablandırmağa çalışırdılar.

Son 15 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin gənc nəslin inkişafına diqqət və qayğısı göz önündədir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, əsrlər boyu xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Ortaya çıxan "Nəyə görə" sualını isə belə cavablandıra bilərik ki, xalqımı daim öz dəyərlərinə bağlı olmuşdur. Bu ənənəyə bugünkü və gələcək nəsil hər zaman diqqət yetirməlidir. Gənc nəsildə vətənpərvərlik duyğuları aşılanmalı, milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın mənafeyini layiqincə qoruya bilsinlər.

Bir mühüm məqamı da unutmamalıyıq ki, Azərbaycan müharibə şəraitində yaşayır. Vətən, torpaq uğrunda həlak olub şəhidlik zirvəsinə ucalan oğul və qızlarımız vardır. Əbəs yerə deyilmir ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Gənclərimiz bu gün böyük ruh yüksəkliyi ilə hərbi xidmətə gedir, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin hücum əmrinə hər zaman hazır olduqlarını bildirirlər. Gənclərimizin cəbhə xəttində göstərdiklər döyüş şücaəti, qələbə əzmi hər kəsə məlumdur. 2016-cı ilin aprel döyüşlərini xatırlamaq kifayətdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqlarımız işğalçılardan azad edildi. Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağı ucaldıldı. Bu böyük qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən, torpaq uğrunda canından keçməyə hazırdır.

Bu günümüzün gəncləri sağlam düşüncəyə, yüksək intelektə, savada, dünyagörüşə malik olan gənclərdir. Gənclərimizin elmin sirlərinə dərincən yiyələnmələri, gənc alimlərin yetişdirilməsi üçün tədbirlər davamlılığı ilə diqqət çəkir. Dövlətimizin başçısı İlham Əliyevin son sərəncamlarına diqqət yetirmək kifayətdir. Belə ki, təqaüd sisteminin təkmilləşdirilməsinə dair, ali məktəb tələbələri üçün Prezident təqaüdünün artırılması barədə, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında sərəncamlar ölkəmizdə təhsilin, elmin inkişafında əsas amil olan rəqabət mühitinin gücləndirilməsində əhəmiyyətli rol oynayacaq. Gənc alimlərimiz müxtəlif sahələrdə elmi potensialımızı gücləndirirlər. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılıb. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Hər bir addım özlüyündə gənc nəslin milli vətənpərvərlik hissinin daha da yüksəlməsinə öz müsbət təsirini göstərir. Dövlətimizin başçısı İlham Əliyev gənc nəslə bu çağırışı edir: "Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır. Biz xoşbəxtik ki, müstəqillik dövründə yaşayırıq. Əsrlər boyu Azərbaycan xalqı müstəqillik eşqi ilə yaşamışdır. Nəsillər gəlirdi-gedirdi, biz başqa ölkələrin tərkibində yaşayırdıq, öz bayrağımızı qaldıra, öz himnimizi səsləndirə bilmirdik. Amma bu gün böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövründə yaşayırıq və əsl müstəqil siyasət həyata keçiririk. Ona görə bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır."

Yazının əvvəlində bu məqamı xüsusi qeyd etdik ki, hər dövrün öz çağırışları vardır. İnformasiya cəmiyyətinin bərqərar olması ilə əlaqəli proseslər sübut edir ki, müasirlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə sivilizasiyanın bütövlükdə simasını dəyişdirə bilər. Məhz bu keyfiyyətlərə söykənərək belə bir inam ifadə olunur ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının sədri, İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın gördüyü işlər gənclərimiz üçün örnəkdir. Onun Azərbaycanın tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin təbliği istiqamətində gördüyü işlərin miqyası günbəgün genişlənir. Məlum olduğu kimi, Leyla Əliyeva xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində göstərdiyi xidmətlərə görə Dünya azərbaycanlılarının III qurultayında "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Uğurlarımız davamlıdır. Dövlətimizin başçısı İlham Əliyev dilimizin, milli mənəvi dəyərlərimizin, tariximizin, mədəniyyətimizin qorunması və inkişaf etdirilməsi istiqamətində biri-birindən önəmli addımlar atır. 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli", 2019-cu ilin "Nəsimi ili" elan edilməsini, həmçinin Azərbaycan dilinin saflığının qorunması ilə bağlı imzalanan Fərmanı xüsusi qeyd etməliyik. Hər bir sənəd özlüyündə zəngin tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə sahib olmağımıza işarədir. Bu tezis daim təkrar-təkrar diqqətə çatdırılır ki, keçmişinə baxan, bu günü ilə qürur duyan, gələcəyə böyük ümidlərlə addımlayan xalq daim tarixin sınaqlarından şərəflə çıxar, varlığını yüksək səviyyədə qoruyar. Azərbaycan xalqı bu xoşbəxtliyə sahib olan xalqdır. Tarixinə sahib çıxan xalq məğlubedilməzdir. Dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr verən Azərbaycanın bu il YUNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi barədə qərarın qəbul olunmasında da milli-mənəvi dəyərlərinə, tarixi-mədəni irsinə bağlılığı əsas yer tutur. Azərbaycanın bu uğurları gənc nəslin vətənpərlik hissini daha da gücləndirərək, sabaha daha inamla addımlamalarına stimul verir.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

AZƏRBAYCAN DEYƏNDƏ...

# Azərbaycan deyəndə məşhur "Bir millət, iki dövlət" anlayışını bütün qəlbimlə hiss edirəm

**Tanınmış şairlərimizdən olan Tofiq Bayramın məşhur "Azərbaycan deyəndə..." başlıqlı şeirinin ürəkisindən misralarının doğmalığından yola çıxaraq "İki sahil" qəzeti eyniadlı publisistik layihəni gerçəkləşdirir. Şairin "...Gözümdə doğmalaşar bütün xalqlar, ölkələr - Azərbaycan deyəndə!" sevgiqarışıq misralarına söykənib davam etdiyimiz "Azərbaycan deyəndə..." layihəsinin əsas məqsədi ölkəmizdə yaşayan, çalışan, təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan haqqında ümumi təəssüratlarını, buradakı iş və yaşam mühiti haqqında düşüncə və arzularını oxucularla bölüşməkdir. Layihəmizin budəfəki qonağı Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Nümayəndəliyinin koordinatoru Teoman Tiryakidir.**



TİKA 1992-ci ildə Türkiyə Xarici İşlər Nazirliyinin nəzdində xarici yardımların göstərilməsi məqsədilə yaradılıb. TİKA hazırda 59 ölkədə 61 Proqram Koordinasiya Ofisi ilə, 150-yə yaxın ölkədə isə əməkdaşlıq formatında fəaliyyət göstərir. Təşkilatın Bakı Proqram Koordinasiya Ofisi 1994-cü ildən etibarən fəaliyyətə başlayıb. 2018-ci ilin avqustundan etibarən Bakıdakı Koordinasiya Ofisinə Teoman Tiryaki rəhbərlik edir. TİKA-nın layihələri birdəfəlik əsasda kiçik həcmli yardımlar formasında həyata keçirilir. TİKA-nın kənd təsərrüfatı, turizm, təhsil, institusional infrastrukturun inkişaf etdirilməsi, iqtisadi, texniki, sosial, mədəni və səhiyyə sahələri üzrə fəaliyyətlərində Azərbaycanın dövlət və qeyri-dövlət strukturları ilə əməkdaşlığa xüsusi əhəmiyyət verilir.

### ÜRƏYİMİZ HƏMİŞƏ AZƏRBAYCANLA BİRGƏ DÖYÜNÜR

1981-ci ildə Türkiyənin Bayburt vilayətində dünyaya gəlmişəm. 10 ildir TİKA-da çalışıram. İndiyədək fərqli coğrafiyalarda, müxtəlif bölgələrdə vəzifəmi icra etmişəm. 2018-ci ilin avqustunda TİKA-nın Bakı üzrə əlaqələndiricisi təyin edildikdə buraya böyük sevinclə gəldim. Bakıya ilk gəlişim olsa da, həmişə ürəyimin bir tərəfi buraya aid olub. Biz Azərbaycanı həmişə ata torpağımız olaraq görmüşük, burada baş verənləri ciddi bir şəkildə izləyərək yaşamışıq. TİKA-nın fəaliyyət göstərdiyi bütün ölkələr mənim üçün bir yanadı, Azərbaycan bir yana. Ürəyimiz həmişə Azərbaycanla birgə döyünür. Azərbaycana artıq inkişaf etmiş bir ölkə deyə bilərik. Son 15 ildə ölkə çox güclü bir inkişaf yolu keçib və bu inkişaf bizi çox xoşbəxt edir. Belə bir ölkədə vəzifəsini icra etmək çox sevindiricidir.

### TİKA TÜRKİYƏNİN İNKİŞAF TƏCRÜBƏSİNİ BAŞQA ÖLKƏLƏRLƏ PAYLAŞMAQ PRİNSİPİ İLƏ ÇALIŞIR

TİKA-nın sədri Sərdar Çamın da söylədiyi kimi, Türkiyə beynəlxalq münasibətlərdən başlamış iqtisadiyyata, sənətdən tutmuş sosiologiyaya qədər hər bir sahədə yüksək performans sərgiləyir. Türkiyə verdiyi qəti qərarlarla və atdığı doğru addımlarla öz inkişaf təcrübəsi ilə digər ölkələr üçün model rolunu oynayır. TİKA Türkiyənin inkişaf təcrübəsini başqa ölkələrlə paylaşmaq prinsipi və işbirliyi ortaqlığı anlayışı ilə çalışmaqdadır. Biz Azərbaycanda da demək olar ki, inkişafa ehtiyacı olan bütün sferalarda fəaliyyət göstəririk. 2019-cu ildə TİKA-nın sədri Sərdar Çamı Bakıda ağırlamaq imkanımız oldu. Burada həyata keçirmək istədiyimiz layihələri Sərdar bəyə təqdim etdik, onların hamısının gerçəkləşdirilməsi ilə bağlı təlimatlar aldıq. TİKA indiyədək Azərbaycanda bir çox ortaq layihələrdə iştirak edib, müstəqil şəkildə də xeyli işlər həyata keçirib. Son dönəmdə reallaşan bəzi layihələrə göz ataq. İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə həyata keçirdikləri və TİKA-nın da qatıldığı layihələr çərçivəsində artıq Cəbrayıl rayonunun erməni işğalından azad edilən Cocuq Mərcanlı kəndində yaradılmış istixanalarda və arıçılıq təsərrüfatlarında istehsal edilən məhsulların satışı həyata keçirilir.

Türkiyənin Azərbaycandakı səfirliyi, TİKA və "Dağ arıçıları" İctimai Birliyinin sədri, Qubadlı rayon sakini, arıçılıq üzrə mütəxəssis Yusif Quliyevin köməkliyi ilə Sumqayıtda bal və bal məhsullarının qablaşdırılması və arı yemi istehsalı müəssisəsi yaradılıb. Orada istehsal edilən ballar hazırda "Qarabağlı" markası altında satışa çıxarılır.

Gəncə Dövlət Universitetinin beşinci tədris binasında TİKA-nın maliyyə dəstəyi ilə Nuru Paşa adına kitabxana yaradılıb.

TİKA tərəfindən Azərbaycan Memarlıq və İnşaat Universitetinə yeni tədris ilində memarlıq fakültəsinin kompyuter laboratoriyasına 53 kompyuter, 14 proyektor, 6 smart board, 1ədəd 3D skayner hədiyyə olunub və digər texniki avadanlıqlarla təmin edilib. Azərbaycandakı bir qrup hakimliyə namizədlər təhsillərini tamamladıqdan sonra Türkiyədə uzmanlıq keçmək üçün göndərilirlər. Təcrübə mübadiləsi çərçivəsində hər iki ölkənin müxtəlif nazirliklərinin mütəxəssisləri qarşılıqlı olaraq Azərbaycanda və Türkiyədə ixtisaslaşma kursları keçirlər. Bu il Ədliyyə Nazirliyi ilə də layihələr gerçəkləşdirəcəyik.

Bu yaxınlarda TİKA Azərbaycan Yazıçılar Birliyi və Yunus Əmrə İnstitutu ilə birgə Xalq şairi Bəxtiyar Vahabzadəyə həsr olunmuş "Ustada sayğı gecəsi" təşkil edib.

Görüləcək işlər sıyahısında isə Gəncə Dövlət Universitetinin Cavad Rəfibəyli küçəsində yerləşən 101 otaqlı yataqxana binasının TİKA-nın maliyyə dəstəyi ilə bu il yenidən qurulub tələbələrin ixtiyarına verilməsi yer alır. Gəncədəki Tibb Kollecində qiraətxana yaratmağı, sonrakı dönəmdə isə orada bir laboratoriya qurmağı planlaşdırırıq.

TİKA Bakıdakı Anadolu liseyində və Diyanət Vəqfinin buradakı məktəblərində də təmir işləri aparıb. Bakıdakı Atatürk liseyinin yeni aldığı binada da əsaslı təmir işləri aparmağı düşünürük. Həyata keçiriləcək layihələrimiz çoxdur, inşallah, hamısını reallaşdıracağıq.



### "ASAN XİDMƏT"dən ÇOX ŞEY ÖYRƏNƏ BİLƏRİK

Birgə layihələr həyata keçirdiyimiz önəmli qurumlardan biri də "ASAN xidmət"dir. Hesab edirəm ki, Türkiyədə də "ASAN xidmət"in olması vacibdir. "ASAN xidmət" həqiqətən Azərbaycanın göz bəbəyi bir brendidir. "ASAN xidmət" bizə heç bir bürokratik əngələ rastlamadan çox rahat bir şəkildə işlərimizi qısa müddətdə həyata keçirməyə imkan verir. Türkiyə olaraq "ASAN xidmət"dən çox şey öyrənə biləcəyimizi düşünürəm. TİKA "ASAN xidmət"in tabeçiliyində olan "ABAD"la və "İçərişəhər" Dövlət Tarixi - Memarlıq Qoruq İdarəsi ilə birgə sosial layihələrə dəstək çərçivəsində "ABAD" sənətkarlıq- satış mərkəzi yaradıb. Bu tipli layihələrimizi gələcəkdə də davam etdirəcəyik. Bunda məqsədimiz ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaqdır.

### AZƏRBAYCANDA EYNİ DİLDƏ DANIŞMAQ BAXIMINDAN YAŞADIĞIM XOŞBƏXTLİK İNANILMAZDIR

Fərqli dildə danışan ölkələrdə bu amil sosial həyatda, küçədə, qarşılıqlı münasibətlərdə, görüşlərdə çox çətinlik yaradır. Bu zaman ingiliscəni bilsək də, tərcüməçi olsa da istər-istəməz anlaşmada böyük çətinliklər yaşamalı oluruq. Azərbaycanda isə öz dilimizdə danışmaq, tərcüməçisiz birbaşa ünsiyyət qurmaq imkanının olması çox sevindiricidir. Azərbaycanda eyni dildə danışmaq baxımından yaşadığım xoşbəxtlik inanılmazdır. Sanki öz Vətənimdə vəzifəmi icra edirəm. Ancaq dilimizdə elə kəlmələr var ki, həm türklər, həm də azərbaycanlılar istifadə edir amma fərqli mənalarda. Bununla bağlı bəzən təbəssüm doğuran komik məqamlar yaşayırıq, bu zaman durumu toparlamaq lazım gəlir (gülür). Buraya gəldiyim ilk vaxtlarda bu vəziyyət bir az çətinlik yaradırdı, sonra uyğunlaşdım.



### TÜRKİYƏ VƏ AZƏRBAYCAN CANBİR QANBİR QARDAŞDIRLAR

Azərbaycan deyəndə məşhur "Bir millət, iki dövlət" anlayışını bütün qəlbimlə hiss edirəm. Azərbaycan bizə o qədər yaxındır ki, dost ölkə desəm, yad kimi səslənəcəyini düşünürəm. Türkiyə və Azərbaycan canbir qanbir qardaşdırlar. Özümüzə qarşı o dərin qardaş məhəbbətini hiss etmək bizi çox xoşbəxt edir.

Azərbaycan mətbəxini də çox sevirəm. Buraya gələndə dostlarım zarafatla "Azərbaycanda ətdən doyacaqsan" demişdilər (gülür). Ən sevdiyim təam yarpaq dolmasıdır. Türkiyədə yarpaq dolmasını tapmaq çətindir, bunun üçün xüsusi restoran, ya da kafe axtarıb tapmalısan. Azərbaycanda isə demək olar ki, istədiyin vaxt əksər restoranlarda dadlı yarpaq dolması tapmaq mümkündür. Azərbaycanın ləzzətli düşbərəsini də xüsusilə qeyd edərdim.

### AZƏRBAYCAN QADINLARI ÇOX GÜCLÜDÜR

Azərbaycanda, xüsusən Bakıda qadınların rolunun daha artıq olduğunu düşünürəm. Azərbaycan qadınları çox güclüdür, cəmiyyət içərisində sözləri daha çox dinlənilir, öz ayaqları üzərində durmağı bacarırlar. Uşaqlarının əlindən tutub məktəbə, müxtəlif kurslara aparmağa da, evlərini çəkib-çevirməyə də, bununla yanaşı, işə yollanmağa da vaxtları və gücləri yetir. Azərbaycan qadınları aktivdirlər, həm cəmiyyətdə, həm də ictimai həyatda kifayət qədər ciddi rol oynayırlar. Onlar dövlət işində və özəl sektorda önəmli vəzifələrdə çox təmsil olunurlar. Bu amil Azərbaycanda, ümumiyyətlə, cəmiyyətin güclü olmasının göstəricisidir. Bunu çox təqdir edirəm.

### AZƏRBAYCANDA MUSİQİ VƏ TEATR ÇOX İNKİŞAF EDİB

Hələ ki iş çoxluğundan sosial həyata, asudə vaxta imkan olmur. Düzənimiz tam oturuşduqdan sonra burada musiqi sahəsində özümü inkişaf etdirmək istəyirəm. Yaşım etibarilə gec olsa da, həvəskar kimi piano çalmaq sahəsində burada bilgimi inkişaf etdirmək arzusundayam. Azərbaycanda musiqi və teatr çox inkişaf edib. Teatra da marağım böyükdür, ən son Bakı Bələdiyyə Teatrında Sarıqamışda əsir düşən hərbçilərin xatirəsinə həsr edilən "Nargin faciəsi" tamaşasını izləmişəm. Çox təsirli idi. Vaxtım olduqca, burada daha çox teatr tamaşalarına getməyi düşünürəm. Azərbaycanın klassik kino komediyalarına baxmışam, çox bəyənirəm. Azərbaycan ədəbiyyatından Nizami Gəncəvini, Məhəmməd Füzulini vaxtaşırı mütaliə edirəm. Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu il Azərbaycanda "Nəsimi ili" elan olunub. Bu il çərçivəsində TİKA olaraq Azərbaycanın Milli Elmlər Akademiyası, eləcə də Yunus Əmrə İnstitutu ilə İmadəddin Nəsimi ilə yanaşı, adını çəkdiyim klassik şairlərin də yaradıcılığına həsr olunmuş simpozium və tədbirlər gerçəkləşdirməyi planlaşdırırıq.

**Sevinc Mürvətqızı,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**polietilen borulara (160mm, 225mm və 400mm) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29009-19) elan edir**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 05.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 590 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***
**Müsabiqə təklifinin təminatı:**
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
**Müqavilənin yerinə yetirilməsi təminatı:**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin sifarişə uyğun 1 (bir) il ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:**
Cəlilov Ceyhun
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-489)
ceyhun.calilov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 05.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə 12:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**Polad əymələrə (lot 1), Polietilen əyməyə (lot 2) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29011-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 05.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, Rus və ya İngilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 1-ci lot üçün 118 AZN, 2-ci lot üçün 59 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***
**Müsabiqə təklifinin təminatı: tətbiq olunmur**
*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*
*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*
*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*
*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*
**Avans ödənişinə görə təminat:**
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
**Müqavilənin yerinə yetirilməsi təminatı: tətbiq olunmur**
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin lot 1 üzrə 2 ay, lot 2 üzrə 1 ay müddətində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:***
AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23
**Əlaqələndirici şəxs:**
Hüseynova Nərmin
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29 491)
narmin.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 05.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə 11:00-da lot 1, 11:30-da lot 2 elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**

NEFT TARİXİMİZ...

# AZƏRBAYCAN NEFT SƏNAYESİ XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ (1872-1920-ci illər)

## *İltizam sisteminin ləğvi və Azərbaycan neft sənayesi 1873-1913-cü illərdə*

⇨ Əvvəli ötən saylarda

Neft hasilatı artdıqca mədənlərdə çalışan fəhlələrin də sayı artırdı. 1879-cu ildə Bakının neft mədənlərində 1800, 1897-ci ildə - 10789, 1901-ci ildə isə 27000 fəhlə çalışırdı.

Neft hasilatında yüksəliş eyni zamanda, həm də istismarda olan torpaq sahələrinin genişlənməsi hesabına baş vermişdi. XIX əsrin sonuncu onilliyində Ramanı (1890-cı il), Bibiheybət (1893-cü il) və Binəqədi (1898-cü il) ərazilərində yeni neftli torpaq sahələrinin əlavə işlənməsinə başlanıldı. 1896-1900- cü illərdə keçirilən hərraclar nəticəsində dövlət sahibkarlara 394 desyatin 1221 sajen neftli torpaq sahələrini icarəyə verdi ki, bu da Abşeronda istismarda olan bütün neftli torpaq sahələrinin 40% - ni təşkil edirdi. Eyni zamanda, bu illərdə istismara əlavə 80 desyatin şəxsi mülkiyyətdə olan torpaqlar da daxil edildi. 1900-cü ildə Abşeronda 140 neft sahəsi istismar olunurdu və onlar bu sahələrdə çıxarılan neftin miqdarından asılı olaraq 4 qrupa bölünmüşdülər. Birinci qrupa ildə hasilatı 7,5 mln puddan artıq olan, ikinci qrupa - 7,5 - 2, üçüncü qrupa 2 - 0,5 və nəhayət, dördüncü qrupa 0,5 mln. puddan aşağı olan mədənlər daxil idilər.

1874-cü ilin yayından başlayaraq fontan üsulu ilə qazılan quyuların sayı kəskin surətdə artmağa başladı. Neft mədənlərinin xüsusən vəhşicəsinə istismarına XIX əsrin 80-90-cı illərində başlanıldı. 1887-ci ildə Bakıda çıxarılan neftin 42%-i fontan üsulu ilə çıxarılırdı. 1893-cü ildə fontan nefti ümumi hasilatın 30%, 1895-ci ildə 33%, 1898-ci ildə 24%-ni təşkil etmişdi. 1889-cu ildə Bakı neft mədənlərindən fontan üsulu ilə - 42, 6, 1897-ci ildə - 49,47, 1891-ci ildə - 39,2, 1892-ci ildə - 75,7, 1893-cü ildə 109, 2 mln. pud neft hasil edilmişdi.

XIX əsrin 80-90-cı illərində quyuların tez-tez fontan vurması ilə əlaqədar mədənlərdə neftin saxlanma sisteminin yaradılması məsələsi çox kəskin bir problem olaraq qalırdı. XIX əsrin 80-ci illərində iri şirkətlər mədənlərdə həcmləri 30 - 100 pud olan dəmir çənlər düzəltdirməyə başladılar və onların sayı hər il getdikcə artırdı.

Neft hasilatının mütəmadi artmasına baxmayaraq, 1894-cü ildə Azərbaycan neft sənayesində böhran yaşandı. Belə ki, həmin il 1893-cü illə müqayisədə neft hasilatı (344,5 mln pud) cəmi 308, 5 mln pud təşkil etdi, yəni 36 mln pud aşağı düşdü. Hökumətin neftlə bağlı ticarət-sənaye böhranını zəifləmək və ağ neftin (kerosinin) xaricə ixrac rüsumlarını azaltmaq kimi gördüyü tədbirlərə baxmayaraq, neft emalı zavodlarının məhsuldarlığı və neft məhsullarının ixracı xeyli azaldı. Böhrana əsas səbəb isə bir tərəfdən dünya bazarında kerosinin qiymətinin kəskin aşağı düşməsi idi, digər tərəfdən isə Bakıda neft hasilatının azalması və eyni zamanda, onun qiymətinin artması olmuşdu. Lakin görülən tədbirlər nəticəsində 1895-ci ildə neft hasilatı yenidən sürətlə artmağa başladı və ABŞ səviyyəsinə çataraq 400 mln pud təşkil etdi.

Rusiya hökumətinin 6 iyul 1898-ci il tarixli xüsusi qərarına əsasən dövlətə məxsus torpaq sahələrində Rusiyanin təbəəliyində olanlarla yanaşı, xaricilər də sərbəst neft kəşfiyyatı aparmaq, onun hasilatı üçün torpaq sahələri almaq, həmçinin neftvermə qabiliyyəti olan sahələrin icarəyə verilməsi üzrə növbəti sövdələşmələrdə iştirak etmək imkanı əldə edirdilər.

XIX əsrin sonunda Azərbaycanda neft sənayesində 78 səhmdar cəmiyyət var idi. 1890-1900-cü illərdə şirkətlərin ümumi sayının 9,5%-i Bakı neftinin 69%-ni hasil edirdilər. 1894-cü ildə hasil olunan 300,8 mln. pud neftin 111,2 mln. pudu (37%) beş iri şirkətin - Nobel, Rotşild, Tağıyev və başqalarının payına düşürdü. 1899-cu ildə isə Bakıda hasil olunan neftin 44,1%-ni bu beş şirkət çıxarırdı və bunun da 17,7% "Branobel" şirkətinin payına düşürdü.

1896- cı ilə qədər neftin istehsalı Rusiya imperatorunun bağışladığı fərdi sahibkar torpaqlarında, iltizam üsulu ləğv olunandan sonra müzaidə (auksiyon) ilə alınan və ya 1872-ci ilin qaydalarına müvafiq olaraq fərdi istifadəyə verilən torpaqlarda həyata keçirilirdi. Xarici kapitalın təsiri və təzyiqi altında çar hökuməti azərbaycanlıların şəxsi mülkiyyəti olan neftli torpaqların hərraca çıxarılmaqla satılması barədə qanun qəbul etmək istəyirdi. Əslində belə bir qərarın qəbul edilməsinə göstərilən cəhd, imperiyanın yerli əhaliyə qarşı müstəmləkə münasibətinin təzahürü idi. Onların babaları və əcdadları əsrlərlə bu torpaqlarda yaşamışdılar. Müsəlman əhalinin nümayəndəsi - öncə Peterburqa, sonra isə Tiflisə göndərilən Əhməd bəy Ağayevə bu fərmanın verilməsini dayandırmaq böyük əziyyət bahasına başa gəlmişdi.

Buna baxmayaraq, əcnəbilər çar hakimiyyət orqanlarının başında duranlarla sövdələşməyə girə bildilər. Əksər hallarda hansısa bir neftlə zəngin olan mədəni və ya neftli torpağı hərracda satmaq və gəliri dövlət xəzinəsinə keçirmək əvəzinə, həmin torpaq çarın xüsusi fərmanı ilə bir qrafın, knyazın və ya taca yaxın olan adamın havayı olaraq əlinə keçir, o isə, əsasən, onu neft sahibkarlarına, şirkətlərə satır və ya sahəni ortaqlı istismara verirdi. Suraxanıda neftli torpaq sahələrinin əksəriyyəti bu yolla talan edilmişdi.

Balaxanı, Sabunçu, Ramanı, Bibiheybət, Binəqədi kəndlərində torpaq üstündə tez-tez toqquşmalar baş verirdi. İşlər bəzən məhkəməyədək gedib çıxırdı, hətta qantökmə ilə nəticələnirdi. Belə hallarda hakimiyyət, torpaq üstündə dava düşdüyünü bəhanə gətirərək, həmin torpağı alıb çar xəzinəsinə verir və ya hərraca çıxararaq satırdı. Neftli torpaq



sahələrinə bir çox hallarda çar ailəsinə yaxın adamlar sahib olurdular. Elə bu siyasətin nəticəsidir ki, Qafqazın canişini qraf Voronsov-Daşkov Balaxanı kəndinin ortasında zəngin mədənin sahibi olmuşdu.

Bakıda iki növ neft sahibkarlarına rast gəlmək olardı: birincilər mədən və zavod sahibkarları, yəni əsl "neft maqnatları" idilər. İkinciləri isə "dirəkçilər" adlandırırdılar.

Neftli torpaqlar uğrunda mübarizə çox kəskin şəkildə gedirdi. Müzaidəyə (hərraca) gələn adamların məqsədi torpaqların alveri idi. Onlar hasilatla məşğul deyildilər, sadəcə sahəni alıb ora dirəklər basdırır (buradan da onları - dirək sahibkarları və ya "dirəkçilər" adlandırırdılar) və müəyyən müddətdən sonra sahəni çox yüksək qiymətlə başqasına satırdılar.

"Dirəkçilər" zirək, diribaş işbazlar idilər. Onlar Abşeronda torpaqları alır və ya icarəyə götürür, sahənin ortasına sahibinin adını və alınma tarixini göstərməklə dirək basdırırdılar. Onlar öz sahələrində kəşfiyyat işləri aparır, lakin quyu qazmırdılar. Onlar 50-60 sahəni beləcə dirəkləyərək səbrlə gözləyirdilər. Əgər qonşuluqdakı sahədə neft tapılırdısa, dirək basdırılmış sahələr qiymətdə yüz dəfə bahalaşırdı, "dirəkçilər" isə külli miqdarda gəlir əldə edirdilər. "Dirəkçilər" Abşeronun qərbində, Qobustan otlaqlarında, Kür və Xəzəryanı ovalıqlarda, Siyəzəndə, Şamaxıda, Gəncə quberniyasında - Naftalanda çoxsaylı sahələri bu yolla "dirəkləmişdilər". Mərkəzdə və Abşeronun şərqində "dirəkçilər"in işləri bir o qədər də yaxşı getmirdi, çünki o əraziləri neft sahibkarları çoxdan zəbt etmişdilər.

Belə bir vəziyyət neft sənayesinə ciddi ziyan vururdu. Onlar ən yaxşı neftli sahələri konservasiya edir, neft məhsullarının qiymətinin artmasına imkan yaradır və neft texnikasının inkişafını ləngidirdilər. Ona görə də, 1900-cü ildə icarədarların müəyyən müddət ərzində icarəyə götürdükləri torpaqlarda işlərə başlaması barədə qanun qəbul edildi.

Lakin 1900-cü ilin avqust ayında neftin qiymətinin aşağı düşməsi neftli sahələrin alveri ilə məşğul olan şəxsləri çıxılmaz vəziyyətə saldı. Bununla əlaqədar, 1902-ci ilin martında hökumət belə bir qərara gəldi: "...dövlətə məxsus neftli sahələr hərracdan pay bölgüsünə görə satılsın", yəni neftin puduna görə alınan dövlət vergisi neftin payından ödənilən vergi ilə əvəz olundu.

1900-cü ilə qədər Abşeronda 1700-dən çox neft quyusu qazılmışdı. Bu quyuların çoxu -796-sı Sabunçuda, 176-sı Balaxanı yatağında, 233-ü Ramanıda və 186-sı Bibiheybətdə qazılmışdı. Sənaye üsulu ilə neft hasilatına başlanandan Abşeronda istismarda olan neftli torpaqların sahəsi çox ləng genişlənirdi. Əsas neft hasil olunan sahələr - Balaxanı, Sabunçu, Bibiheybət, Ramanı və Binəqədi sahələri idi. Özü də Ramanı sahəsinin işlənməsinə XIX əsrin 90-cı illərinin əvvəllərində, Binəqədi sahəsinin işlənməsinə isə 90-cı illərin sonunda başlanılmışdı. XX əsrin əvvəllərində Suraxanı, Pirallahı adası və digər sahələrdə neft hasilatına başlanıldı. 1900-cü ildə Bakıda 10 nəhəng ağac anbarı, 207 neft şirkəti, 16 neft boru kəmərləri, 80 mexaniki emalatxana və zavod, 14 kimya zavodu fəaliyyət göstərirdi.

XX əsrin ilk beş ilində Bakı neft rayonunda hər il 10 mln. tondan çox neft hasil edilirdı ki, bu da Bakını birinci dərəcəli sənaye şəhərləri sırasına çıxardı. 1901-ci ildə neft hasilatında Azərbaycan ABŞ-ı ötərək (706,8 mln. pud və ya 11,6 mln. ton) dünyada birinci yerə çıxdı.

1898-ci ildə xam neft hasilatına görə Bakının ABŞ-ı üstələməsi, 1901-ci ildə isə Azərbaycanın dünyada neft hasilatında birinci yerə çıxması yanacaq bazarında böyük təlatümə səbəb oldu. Dünyanın neft biznesində mühüm bir hadisə baş vermişdi. Fred Merkus özünün "Qara qan" kitabında yazır: "Rokfellerin düşərgəsində təşvişə düşdülər. Rus (yəni Bakı) nefti xüsusilə perspektivli və sərfəli idi. Çünki yüksək keyfiyyətə malik idi və onun yataqları Avropa bazarlarına məsafəcə əlverişli bölgədə yerləşirdi".

Belə bir vaxtda Rokfellerin nəzəri Bakıya yönəldi və özünün şəksiz nüfuzundan və o maliyyə imkanlarından istifadə edərək burada da əlverişli mövqe tutmağa çalışdı. Hələ 1903-cü il oktyabrın 31-də İngiltərədə nəşr olunan "Petrolium revyu" məcmuəsində "Standard Oil" şirkətinin Azərbaycanın neft sənayesində iştirak etmək layihəsi dərc olunmuşdu. Lakin bu o qədər də asan deyildi, çünki Bakı artıq nəhəng neft şirkətləri şəhəri idi. Avropa və Rusiya kapitalının (o cümlədən yerli kapitalın) cəmləşdiyi neft sənayesi üçün zəruri olan infrastrukturun xeyli təşəkkül tapdığı bir yerdə "Standard Oil"un özünə yer etməsi son dərəcə çətin bir məsələ idi. Bundan başqa, Rotşildlərin maliyyə yardımı ilə Bakının neft biznesində özünə əlverişli şərait yaratmış "Shell" şirkəti də "Standard Oil"un qarşısında duran ciddi maneələrdən biri idi. Buna görə də, "Standard Oil" şirkəti "Shell"lə birləşmək təklifini irəli sürdü, lakin buna nail ola bilmədi. Əksinə, "Standard Oil"la rəqabət aparmaq durumunda olmaq üçün 1907-ci ildə kapital payları 60/40 nisbətində olmaqla yeni bir neft nəhəngi - "Royal Dutch/Shell" şirkəti yarandı. Birləşdikdən sonra onların Bakıya, eləcə də Qafqaz neftinə olan maraqları daha da artdı. Həmin dövrdə Bakının, habelə Qafqaz bölgəsinin neft sənayesində hökmranlıq əsasən iki qrupa - Nobellər ailəsinə və Rotşildlərin bankir ailəsinin Paris qoluna məxsus idi. Hər iki qrup Markus Samuelin Bakının neft məkanına daxil olmasında bu və ya digər şəkildə iştirak etmişdi.

"Kim neftə malikdirsə, dünyanı da o idarə edir". İngilis admiralı Fişerə aid olan bu ibarə nə qədər şişirdilmiş olsa da, heç şübhəsiz, bu XX əsrdə gerçəkləşəcək bir həqiqətin təsdiqi idi.

⇨ Ardı var

✍ Cəbi Bəhramov
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, t.ü.f.d., dosent

# Sürətli yeməyi necə tərgitməli?



*Hamımız həyatın gərgin və sürətli axınına uyğunlaşmalı oluruq. Amma bu sürətimizi dayandırmalı olduğumuz bir yer var, o da yemək masası. Yeməyinizi tez yeyib işinizin başına dönmək ilk baxışda bir müvəffəqiyyət kimi görünsə də, əslində sağlamlığınız üçün çox zərərlidir.*

### Obeziteyə səbəb olur

Biz hamımız bilirik ki, doyma siqnallarının beyinə getməsi üçün bir qədər vaxt lazımdır. Bununla belə, buna əməl etməyə çalışmaq çətin olur və yeməyimizi sürətli bir şəkildə yeyib işimizin başına dönmək ön plana keçir. Əvvəlcə bunu bilmək lazımdır ki, yemək yemək bir həzzdir. Bunu unutmamalıyıq. Yemək yeyərkən biz yeməkdən zövq almalıyıq.

Sürətli yemək yeyən şəxslər yeməyi kifayət qədər çeynəmir və dadını hiss etməkdə çətinlik çəkirlər. Doyma siqnallarının çatmasında çətinlik yarananda da insan toxluq hiss etmir və daha çox yemək istəyir. Bu da artıq çəki və hətta obeziteyə səbəb ola bilər.

### Sürətli yemək vərdişi necə dəyişə bilər?

Birincisi, sürətli yemək yediyinizi qəbul edin. Yeməyi 5 dəfə çeynəyirsinizsə, bunu 10-a, daha sonra isə 15-ə qaldırın. Səbrli olmağa çalışın. Yemək yeyəndə çeynəmə vərdişini düzəltmək digər vərdişlərdən azad olmaqda da yardımçı ola bilər.

Yemək yeyəndə bir neçə dəfə qısa tənəffüslər də edə bilərsiniz. Boşqabınızdakı bütün yeməyi bitirmədən öncə dayanın və yanınızdakılarla söhbət edin.

Hər loxmada çəngəl-bıçağı kənara qoymaq da bir addımdır. Bir loxma yemək yeyin və çəngəl-bıçağınızı boşqabınızın kənarına qoyun. Loxmalarınızı astaca çeynəyin və tələsmədən digərinə keçin.

Ən vacibi odur ki, orada sadəcə oturub yemək yeməyə gəldiyinizi düşünməyin, olduğunuz məkandan zövq almağa çalışın.

**Röya Rasimqızı,**
***"İki sahil"***

*Dünya turuna çıxan polşalı veloturist:*

# Azərbaycanda yüksək qonaqpərvərliyin şahidi oldum



Dünya turuna çıxan polşalı veloturist Lukas Oqonovski Azərbaycan Velosiped İdmanı Federasiyasının qonağı olub. Peşəsi ingilis dili müəllimi olan 38 yaşlı qonaq bu vaxta qədər dünyanın 56 ölkəsində olub və 53 min km məsafə qət edib.

Federasiyadan Trend-ə verilən məlumata görə, yeniyetmə və gənc velosipedçilərlə, həmçinin məşqçilərlə görüş zamanı polşalı turist ölkəmizdə ilk dəfə olduğunu deyib: "Azərbaycanda yüksək qonaqpərvərliyin şahidi oldum. Adətən gecəni yollarda öz çadırımda keçirirəm. Sərhədi keçdikdən sonra Böyükkəsik kəndində sakinlər məni evə dəvət etdilər, gecəni çadırda keçirməyə qoymadılar. Doğrusu belə münasibəti, qonaqpərvərliyi gözləmirdim. Ölkənizin təbiəti də çox xoşuma gəldi. İstəyirəm ki, sizin dili, mədəniyyətinizi öyrənim".

Azərbaycana səfərini başa vurduqdan sonra dəniz vasitəsilə Qazaxıstana keçməyi planlaşdıran Lukas Oqonovski Asiya ölkələrinə, hətta Filippinə qədər getməyi düşünür.

Görüşün sonunda polşalı qonaq velosipedçilərin suallarını cavablandırıb.

# Nə üçün duz və istiot süfrələrin şahı hesab olunur?



**Harada yemək yeməyimizdən asılı olmayaraq hər zaman süfrədə iki ədviyyat yer alacaq: duz və istiot. Müasir dünya mətbəxində süfrədə duz və istiot müqəddəslik rəmzi hesab olunur. Bəs hansı səbəbdən biz bu iki ədviyyatın yanında digər ədviyyatlardan istifadə etmirik? Məsələn, zirə, qırmızı istiot və ya sarıkök və s. Nəyə görə, məhz duz və qara istiot mətbəxlərin ayrılmaz hissəsi olub?**



Tarix boyu duz və istiot bir - biri ilə sıx əlaqəli olub. Natrium xloridsiz (mətbəx duzunun kimyəvi adı) insan, ümumiyyətlə, yaşaya bilməzdi: duz orqanizmdə olan maye balansına nəzarət edir, qan təzyiqini tənzimləyir və sinir sisteminin fəaliyyətini normallaşdırmaq üçün vacib komponent hesab olunur. Duz olmasaydı bəşəriyyət bir neçə min il bundan qabaq hədsiz epidemiyalar ardıcıllığı içərisində məhv olardı: məhz duz məhsulların xarab olmasının qarşısını ala bilən mükəmməl mühafizkardır.



Tarixin müəyyən dövründə duz qızıldan dəyərli hesab olunurdu: Ondan əmək haqqı və vergi ödəmək üçün istifadə edirdilər, hətta bir neçə ovuc duza qul bazarından qul almaq da mümkün idi. Təbii ki, duzdan müxtəlif yeməklərin bişirilməsində də istifadə olunurdu.



Maraqlıdır ki, XVII əsrə qədər avropalı aşbazlar hazırladıqları yeməyin içərisinə duzu şəkər ilə birlikdə qatırdılar. Hər şey Fransa Kralı XIV Lüdovik hakimiyyətə gələndən sonra dəyişdi. Dövrünün məşhur qurmanı olan XIV Lüdovik aşbazlarına yeməyə şəkərlə duzun birlikdə qatılmaması əmrini verdi.

XIV Lüdovikin hakimiyyəti illərində Fransa bütün Avropa mədəniyyətini qabaqlayırdı. Buraya fransız mətbəxi də daxil idi.

Beləliklə, duz Avropa mətbəxinin baş ədviyyatı hüququna malikdir. Bəs nəyə görə duz ilə yanaşı, süfrəyə üyüdülmüş qara istiot qoyulur? Axı, qara istiot hamının yeməyində istifadə etmək istədiyi ədviyyat deyil.

Roma imperiyasının dövründə varlı zadəganlar yeməklərində üyüdülmüş uzun istiot növündən istifadə etməyi xoşlayırdılar. Bu istiot növü Aralıq dənizi ölkələri olan Hindistandan və İndoneziyadan gətirilirdi. Lakin hətta bir çox varlı insanlar belə bəzən bu ədviyyatın sifarişlə gətirilməsinə gücləri çatmırdı və məhz elə bu səbəbdən satıcılardan onu əvəz edə bilən, ucuz başa gələn üyüdülmüş qara istiot sifariş verirdilər. Bizim eradan əvvəl IV əsrdə qara istiot duz kimi bir müddət pul əvəzinə istifadə olundu. Hətta Roma imperiyası qotlardan (qədim german tayfası) başçıları Alarixi almaq üçün onlara pul əvəzinə 1500 kiloqram qara istiot vermişdi.

Romanın süqutundan sonra qara istiotun ekspansiyası yüksəlməyə davam edirdi. Böyük İpək Yolu ilə Şərqdən Qərbə ədviyyatla dolu karvanlar gedirdi. İstiota görə müharibələr başlanıb, müqavilələr imzalanıb, dövlətlər dağılıb və s. Nəhayət, Xristofor Kolumb su yolu axtarışı üçün Hindistana məşhur səyahətinə gedən zaman təsadüfən Amerikanı kəşf etməsi ilə Cənubi Amerikada istiotun yeni növləri aşkar olundu. Beləliklə, yeni istiot növləri tezliklə bütün Avropa bazarlarına çıxarıldı.

Lakin bütün bunlara baxmayaraq istiotun mətbəxin ayrılmaz hissəsi olması yenə də XIV Lüdovikin hesabına olub. Belə ki, Fransa Kralı aşbazlarına yeməklərdə yalnız iki ədviyyatdan - duz və qara istiotdan istifadə etmək əmrini vermişdi.

Artıq süfrəyə qoyulan duz və istiot dolu qabları görəndə biləcəksiniz ki, onlar bu süfrəyə gələnə qədər uzun və tarixi bir yol keçiblər.

**Könül Cavid,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**İkitavr 45B1 olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi üzrə müraciətlərin son tarixinin, həmçinin təklif zərflərinin açılış tarixinin müddətinin uzadılmasını elan edir (25019-19).**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi ; (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 28.03.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 236 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin yerinə yetirilməsi qrafik üzrə tələb olunacaq.

Bank təminatı:

İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-dək məbləğindən aşağı olmamalıdır.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**
Anar İsmayilov
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Tel: +994 12 521-07-67
Tel: +994 50 292 80 85
Tel: +994 55 234 84 85
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 28.03.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Tal kanatın sakitləşdiricisinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26013-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət ;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 28.03.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 03.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 03.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

Son səhifə

32

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 42 (7297) / Şənbə, 2 mart 2019-cu il

# Hər kəsin cavabını axtardığı maraqlı suallar

***Yəqin ki, bir çoxlarımızın, xüsusən də xanımların soğan soyarkən gözləri yaşarır. Bəs bunun səbəbi nədir? Soğanın tərkibində olan syn-propanetial-S-oksid adlı kimyəvi maddədir. Bu maddə asanlıqla havaya yayıla bilən uçucu kükürd tərkibli qazdır. Buna görə də soğanı kəsdiyimiz zaman asanlıqla havaya yayılır və gözlərimizə dolur. Bu zaman gözün təbii qorunma mexanizmi işə düşür, nəmlənərək yad maddəni kənara qovmağa çalışır. Bunun qarşısını almaq üçün başlamadan əvvəl bıçağı, doğramamışdan qabaq isə soğanı soyuq su ilə yuyun.***



Xüsusən emosional hal yaşadıqda, üşüdükdə insanın dəri kökləri sanki dikəlir, biz-biz durur. İnsanın dərisində çoxsaylı tük folikulları və onları hərəkət etdirən əzələlər var. Bu əzələlər sıxılanda dərinin altında kiçik təpəciklər yaranır bu hadisə el arasında "tüklərim biz-biz oldu" deyilir. Nəticədə dəri sanki tikan-tikan olur. Bu refleks insana əcdadı olan meymunlardan miras qalıb. Soyuqda isə tüklər qabardıqda tüklə dəri arasında qalan boşluqda hava təbəqəsi yaranır və bu təbəqə bayırdakı soyuğu dəriyə, dəridəki istini isə bayıra çıxmağa qoymur. Bədənimizdəki tük olmasa belə dərimizin belə biz-biz olması bizi də isidir, çünki hərəkət edən əzələlərdə qan dövranı sürətlənir, qan isə bədəni isidir. Düzdür, bu istilik çox cüzidir, amma azacıq da olsa işə yarayır.

Çox duyğulu və təsirli hal yaşadıqda isə bu beynimizin amiqdala bölgəsinə təsir edir. Bu bölgə qorxu hisslərimizə nəzarət edən beyin bölgəsidir. Buna görə də həmin məqamlar beynimizin qorxu zonasını aktivləşdirir. Yaşanan vəziyyətə uyğunlaşdıqda isə hisslərimiz "sakitləşir".

Hər birimizi maraqlandıran suallardan biri də çips paketlərinin niyə tam doldurulmamasıdır. Bəzən bunu "istehlakçıların qənaəti" adlandırılması isə heç də doğru deyil. Əslində bunun səbəbi çox zərif formada olan çipslərin daşınma, çatdırılma zamanı əzilməməsi üçündür. Məhz buna görə də qablaşdırma yarımçıq və çox hissəsi də hava ilə doldurulur.

Yəqin ki, kal xurma yeyən zaman çoxunuzun ağzı büzüşür, ani diksinmə olur. Bunun səbəbi xurmanın tərkibində olan aşılayıcı maddələrdir. Ağız büzücü hissi xurmanın tərkibindəki tanin adlı maddə verir. Ağız büzmə hissi ancaq kal meyvəni yedikdə olur. Yetişmiş meyvənin tərkibində isə bu maddə demək olar ki, yoxdur. Oxşar hissi nar qabığı yeyəndə, çox tünd çay içəndə də olur.

Əksər sürücülərin heç cür qəbul etmədiyi avtomobildə təhlükəsizlik kəmərlərindən istifadə olunmasıdır. Lakin bu kəmərlərin çox mühüm vəzifələri vardır. Qəzalarda ağır xəsarətin, yaralanmanın, ciddi təsirlərin təhlükəsizlik kəmərləri 70 faiz qarşısını alır. Üzbəüz toqquşmadan 2,3 dəfə, yandan toqquşmadan isə 1,8 dəfə həyat xilas edir. Bunun üçün də yol polisindən və cərimədən ehtiyatlandığınız üçün deyil, məhz həyatınızın müdafiəsi üçün istifadə etmək lazımdır. Təhlükəsizlik kəmərlərinizi taxmağı unutmayın.

Bir çoxumuz qəpiklərin kənarındakı naxışlara diqqət etmişik. Əvvəllər sikkələrin dəyəri istifadə edilən qiymətli metalın miqdarına bərabər idi. Fırıldaqçılar sikkələrin kənarlarını kəsib kiçildərək, artıq qalan metaldan yeni sikkələr hazırlayırdılar. Bunun qarşısını almaq üçün sikkələrin kənarına bəzəkli haşiyə vurmağa başladılar. Nəticə sikkənin kənarını kəsdikdə haşiyə pozuldu və bu da gözə çarpırdı.

İtaliyada bütün makaron növlərinə pasta deyilir. Bu söz italyan dilindən tərcümədə "makaron üçün xəmir mənasını" verir.

Veqan və vegetarian arasında hansı fərqlər var. Bildiyimiz kimi, vegetarianlar yalnız ət yemirlər, buna baxmayaraq heyvan məhsulu olan südü içir yumurtanı yeyir, heyvan dərisindən gödəkçə, ayaqqabı geyinirlər. Veqanlar isə bunların heç birini etmir. Onlar ancaq bitki tərkibli məhsullarla qidalanır. Heyvanlardan alınan heç bir qida və digər məhsulları qəbul etmirlər. Bir də "xam yeyənlər" var. Onlara meyvəyeyən də deyilir. Bu insanlar ancaq meyvə-tərəvəzlə qidalanır, amma bişməmiş formada, yəni xam bişirilmədən yeyilə bilən meyvə-tərəvəzlərlə qidalanır.

Gün ərzində daha çox oturaq, stabil vəziyyətdə olan insanlar bir müddət eyni formada qaldıqda ayağa durarkən uyuşma, keyimə və iynə batır kimi hiss edirlər. Bu sinir reseptorlarının reaksiyasıdır. Ayaq, əl əzilən zaman damarlar sıxılır və qan dövranı zəifləyir. Bu cür vəziyyətdə oksigen çatışmazlığı həssas olan sinir reseptorları fəaliyyətlərini müvəqqəti dayandırırlar. Biz isə bunu uyuşma kimi hiss edirik. Uyuşan ayağımızı tərpədəndə isə qan dövranı normal qaydaya düşür. Sinir reseptorları da bu barədə siqnal verir. Bu siqnalları biz sancma, iynə batma və bədənimizdə qarışqaların girməsi kimi hiss edirik.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

## Fatih Terim "Qalatasaray"ın prezidenti olacaq?



"Qalatasaray"ın baş məşqçisi Fatih Terim dünən sonuncu dəfə müqavilə imzalayıb.

Milli.Az xəbər verir ki, "cim-bom"la sözləşmə müddətini 2024-cü ilə qədər uzadan təcrübəli mütəxəssis həmin tarixdən sonra karyerasını bitirəcək.

Ancaq 66 yaşlı çalışdırıcının sevimli komandasından ayrılmaq fikri yoxdu. Belə ki, o, məhz 2024-cü ildən etibarən rəhbər vəzifədə çalışmaq üçün hərəkətə keçəcək. Terimin müqavilə müddəti bitərbitməz "Qalatasaray"da prezident seçkiləri olacaq. O da həmin seçkilərdə namizədliyini irəli sürmək niyyətindədir.

Hər şey planlaşdırılan məcrada getsə, Fatih Terim 70 yaşında "sarı-qırmızılılar"ın prezidenti seçiləcək.

## Raul "Real"a qayıdır



Madrid "Real"ının gənclərdən ibarət (U-18) komandasının çalışdırıcısı Alvaro Benito qovulub.

Milli.Az xəbər verir ki, mütəxəssis əsas komandanın İspaniya kubokunda "Barselona"ya məğlubiyyətini (0:3) kəskin tənqid edib: "Vinisius hamını heyran qoyur. Gənc futbolçu əlindən gələni edir. Kazmiro və Kroos kimilər isə sadəcə, meydanda vaxt keçirir".

Bundan sonra Benito postundan göndərilib. U-18 Raul Qonsalesə tapşırılacaq.

Xatırladaq ki, o, 16 il "Real"ın formasını daşıyıb. Klubda keçirdiyi 520 oyunda 228 qol vurub, 16 mükafat əldə edib.

## "Mançester Yunayted" De Xeanın tələbini rədd etdi



"Mançester Yunayted" qolkiper David de Xeanın məvacibini artırmayacaq.

Milli.Az xəbər verir ki, klub ispaniyalıya ən yüksək məvacibli müqavilə təklif etmək niyyətində deyil. Mançester təmsilçisi qapıçıya həftəlik 400 min avro ödəməyə hazır idi. Lakin de Xeya razılaşmayıb. Danışıqlar alınmasa qolkiper yayda azad agent kimi "Mançester Yunayted"dən ayrılacaq.

Qeyd edək ki, "qırmızı şeytanlar"ın heyətində Pol Poqba və Aleksis Sançes hamıdan çox məvacib alır.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi SOCAR-ın Kompleks Qazma İşləri Trestinin Sosial şöbəsinin rəisi Nazim Əhmədova, qardaşı

**Rövşən Əhmədovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

SOCAR-ın Nəqliyyat İdarəsinin rəhbərliyi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin Ə.Əmirov adına NQÇİ-nin rəis müavini Rahib Abıyevə, anası

**Hökumə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Azneft" İB-nin Ə.Əmirov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin rəis müavini Rahib Abıyevə, anası

**Hökumə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor:
**Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini:
**İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* 530-26-46, 430-87-97
*Baş redaktorun I müavini:* 530-26-36
*FAX:* 430-87-47
*Mühasibatlıq:* 430-87-27
*e-mail:* ikisahil@azdata.net

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 02.03.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8289**
*İndeks:* **0151**, *Sifariş:* **627**

Qəzetdə *"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX* informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.